THE WORLD BANK

Standart və Normalara Əməl Olunma Hesabatı (SNƏH)

Korporativ İdarəetmə

# Korporativ İdarəetmə üzrə Ölkə Qiymətləndirməsi

Azərbaycan

sentyabr 2009

# Korporativ İdarəetmə üzrə SNƏH proqramı haqqında məlumat

## KORPORATİV İDARƏETMƏ NƏDİR?

Korporativ idarəetmə şirkətlərdə idarəetmə və nəzarət strukturları və prosesləri ilə bağlıdır. Korporativ idarəetmə rəhbərlik, Direktorlar Şurası, nəzarət edən səhmdarlar, minoritar səhmdarlar və digər səhmdarlar arasında münasibətləri əhatə edir. Yaxşı korporativ idarəetmə şirkətlərin səmərəliliyini və kənar kapitalı əldə etmək imkanlarını artıraraq davamlı iqtisadi inkişafa töhfə verir.

İƏİT-in Korporativ İdarəetmə Prinsipləri Dünya Bankının bu sahədə apardığı fəaliyyət üçün çərçivəni təmin edir və əsas praktiki məsələləri müəyyən edir: səhmdarların və maliyyə sahəsində digər tərəfdaşların hüquqları və onlara qarşı ədalətli yanaşma, qeyri-maliyyə tərəfdaşlarının rolu, açıqlama və şəffaflıq və Direktorlar Şurasının vəzifələri.

## KORPORATİV İDARƏETMƏ NƏYƏ GÖRƏ ƏHƏMİYYƏTLİDİR?

Yeni formalaşmış bazar iqtisadiyyatı ölkələri üçün korporativ idarəetmənin təkmilləşdirilməsi bir sıra mühüm ictimai siyasət məqsədlərinə xidmət göstərə bilər. Yaxşı korporativ idarəetmə yeni formalaşan bazarın maliyyə böhranlarına həssaslığını azaldır, əmlak hüquqlarını gücləndirilir, əməliyyat məsrəflərini və kapital qiymətlərini azaldır və kapital bazarının inkişafına gətirir. Zəif korporativ idarəetmə çərçivələri investorların inamını azadlır və kənardan investisiyaların daxil olmasına mənfi təsir göstərə bilər. Həmçinin, pensiya fondları tərəfindən kapital bazarlarına daha çox investisiya qoyulmasını nəzərə alaraq, yaxşı korporativ idarəetmə pensiya əmanətlərinin saxlanması üçün xüsusi əhəmiyyət kəsb edir. Son bir neçə il ərzində, korporativ idarəetmənin əhəmiyyəti elmi tədqiqatların artması ilə vurğulanıb.

Tədqiqatlar yaxşı korporativ idarəetmə təcrübəsinin şirkətlərdə əlavə iqtisadi dəyərin (ƏİD) əhəmiyyətli dərəcədə artması, məhsuldarlığın artması və ölkələrdə sistemli maliyyə problemlərlə bağlı riskin azalması ilə nəticələnməsini göstərmişdir.

## KORPORATİV İDARƏETMƏ ÜZRƏ SNƏH QİYMƏTLƏNDİRMƏLƏRİ

Korporativ idarəetmə beynəlxalq maliyyə icması tərəfindən əsas on iki qabaqcıl təcrübə standartlarının biri kimi qəbul olunmuşdur. Dünya Bankı İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinin tətbiqini qiymətləndirir. Onun qiymətləndirmələri Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun (BFV) Standart və Normalara Əməl Olunma Hesabatları (SNƏH) proqramının tərkibi hissəsidir.

SNƏH təşəbbüsünün məqsədi ölkənin iqtisadi və maliyyə həssaslığını artıra biləcək zəif məqamların aşkar edilməsindən ibarətdir. Korporativ İdarəetmə üzrə hər SNƏH qiymətləndirməsində hüquqi və tənzimləyici çərçivə və, həmçinin, fond birjasında qeydiyyatdan keçmiş şirkətlər tərəfindən tətbiq olunan qaydalar və əməl olunma nəzərdən keçirir və çərçivə beynəlxalq səviyyədə qəbul olunmuş etalona uyğun olaraq qiymətləndirilir.

- Korporativ idarəetmə çərçivələri İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə əsasən qiymətləndirilir.
- Ölkənin qiymətləndirmədə iştirakı və yekun hesabatın dərc olunması könüllüdür.
- Qiymətləndirmələrin diqqət mərkəzi fond birjalarında qeydiyyatdan keçmiş şirkətlərin korporativ idarəetməsidir. Siyasəti formalaşdıranların müraciəti əsasında, SNƏH-larda, həmçinin, konkret sektorlar (misal üçün, banklar, digər maliyyə təşkilatları və ya dövlət müəssisələri) xüsusi siyasət baxımından qiymətləndirilə bilərlər. .
- Qiymətləndirmələr standartlaşdırılmış və sistemli xarakter daşıyır və siyasət tövsiyələrini daxil edir. Cavab olaraq, bir çox ölkələr korporativ idarəetmə sahəsində hüquqi, tənzimləyici və institusional islahatlara başlamışdır.
- Vaxt ötdükcə irəliləyişlərin ölçülməsi məqsədilə qiymətləndirmələr yeniləşdirilə bilər.

2009-cu ilin iyun ayının sonuna qədər dünyanın 55 ölkəsində 66 qiymətləndirmə başa çatdırılmışdır.

# STANDART VƏ NORMALARA ƏMƏL OLUNMA HESABATI (SNƏH)

## Ölkədə korporativ idarəetmənin qiymətləndirilməsi

## AZƏRBAYCAN

## SENTYABR 2009


## Xülasə

Hazırkı hesabat Azərbaycanda korporativ idarəetmə üzrə siyasət çərçivəsini qiymətləndirilir. Hesabatda korporativ idarəetmənin tənzimlənməsində son təkmilləşdirmələr qeyd olunur, siyasət tövsiyələri verilir və investorlar üçün Azərbaycanda korporativ idarəetmənin qiymətləndirilməsi üçün etalonlar təqdim olunur. Sənəd 2005-ci ilin Korporativ İdarəetmə üzrə SNƏH Hesabatının yeniləşdirilmiş variantıdır.

**Nailiyyətlər.** Son illərdə Azərbaycanın iqtisadiyyatında ciddi artım baş vermiş və əvvəlki illərin əhəmiyyətli institusional və hüquqi dəyişiklikləri davam etdirilmişdir. Yeni qanunlar və digər hüquqi-normativ aktlar investorların hüquqi müdafiəsini artırıb və daha geniş işgüzar mühiti yaxşılaşdırmışdır. Bura 2007-ci ilin Sığorta Fəaliyyəti və Daxili Audit haqqında Qanunları, həmçinin 2008-ci ildə Mülki Məcəlləyə edilmiş dəyişikliklər və idarə heyəti üzvlərinin vəzifələrini müəyyən edən və aidiyyəti şəxslərlə əqdləri tənzimləyən müddəalar daxildir. Azərbaycanın "Doing Business" hesabatında reytinqi 2005-ci ildən başlayaraq əhəmiyyətli dərəcədə artmışdır. Korporativ idarəetmənin tətbiqi və icrası, həmçinin və xüsusilə xarici investisiyalar qoyulmuş banklarda və şirkətlərdə yaxşılaşmağa başlayıb. Xarici donorların, o cümlədən, BMK-nin Azərbaycanda Korporativ İdarəetmə Layihəsinin fəaliyyəti bu sahədə yararlı olmuşdur.

**Əsas maneələr** Əsas bazar infrastrukturu mövcud olsa da, likvidlik minimal səviyyədədir və yalnız bir neçə şirkət maliyyələşdirmə üçün kapital bazarlarından istifadə edir. Son zamanlar həyata keçirilmiş hüquqi dəyişikliklər haqqında geniş biliklər mövcud deyil, yeni qaydalara az əməl olunur və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) məhdud resurslar və cərimələrlə iri sayda səhmdar cəmiyyətlərinə nəzarət etmək məcburiyyətindədir. Konkret problemlərə kiçik səhmdarların az müdafiə olunması, müşahidə şurası və idarə heyəti, o cümlədən, təftiş komissiyası kimi aidiyyəti orqanlar üçün lazımi səviyyədə müəyyən edilməmiş hüquq və vəzifələr, müşahidə şuralarında müstəqil üzvlərin çatışmazlığı və açıqlama tələblərinə az riayət olunması daxildir: şirkətlər bütün hallarda maliyyə hesabatlarını dərc etmir və auditin keyfiyyəti qarışıqdır.

**Növbəti addımlar** Azərbaycanın islahatları aparmağa davam etməsini nəzərə alaraq, QKDK-nin gücləndirilməsi, səhmdar cəmiyyətləri üçün hüquqi çərçivənin bərpası və korporativ idarəetmə məcəlləsinin yaradılması üzrə tədbirlər görülməlidir. Bu şura və idarə heyəti üzvləri və investorlar arasında məlumatlılığın artırılması və maliyyə və korporativ açıqlamaların təkmilləşdirilməsi üzrə davamlı səylərin görülməsi ilə dəstəklənməlidir. Kapital bazarlarının infrastrukturu və daha geniş hüquqi çərçivəsi, həmçinin, bərpa olunmalıdır.

Prioritet islahatlara aşağıdakılar daxildir: müşahidə şurası və idarə heyəti üçün müvafiq hüquq və vəzifələrin dəqiqləşdirilməsi, kiçik səhmdarların müdafiəsinin artırılması, mülkiyyət və aidiyyəti tərəflərin əqdləri haqqında açıqlama vermək tələblərinin gücləndirilməsi və icrasının təmin edilməsi və daha çox korporativ məlumatların ictimaiyyətə açıqlanmasının təmin edilməsi.

## Təşəkkürlər

Azərbaycanda korporativ idarəetmənin hazırkı qiymətləndirməsi 2009-cu ilin yanvar ayında Standart və Normalara Əməl Olunma Hesabatları Proqramı çərçivəsində Dünya Bankının Qlobal Kapital Bazarların İnkişafı Departamentinin Korporativ İdarəetmə Şöbəsinin əməkdaşları Ketrin Hiki və Devid Robinett tərəfindən həyata keçirilmişdir. Hesabatda 2009-cu ilin sentyabr ayına qədər baş vermiş bütün dəyişikliklər əks etdirilmişdir. Bu, Tatyana Nenova və Syu Rutledc tərəfindən 2005-ci il üçün hazırlanmış SNƏH-ın yeniləşdirilmiş variantıdır.

Komanda BMK-nin Azərbaycanda Korporativ İdarəetmə Layihəsi, o cümlədən Anar Əliyevin hüquqi icmalı, AKİL tərəfindən keçirilmiş və nəticələri 2007-ci ildə dərc olunmuş korporativ idarəetmə sorğusu, ümumi məlumatlardan və zəruri çalışqanlığın əlaqələndirilməsindən ciddi dəstək almışdır.

Qiymətləndirmə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Maliyyə Nazirliyi, Azərbaycanın Mərkəzi Bankı, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Bakı Fond Birjası, Auditorlar Palatası və USAID və, həmçinin, kommersiya bankları, emitentlər və bir çox bazar iştirakçıları ilə aparılmış texniki müzakirələri əks etdirir.

Maykl Edvards, Aleksander S. Berq, Çarlz Kenfild, Yan Til, Kristos Kostopolus, Keroline Brayt, Asad Alam və Qreqory T. Yedrjeyçak məsləhət və şərhlərini təmin etdilər.

# Mündəricat

**Bazar haqqında məlumat** ........ 1

**Əsas nəticələr** ........ 2

*İnvestorların müdafiəsi* ........ 3

*Açıqlama* ........ 4

*Şirkətə nəzarət, müşahidə şurası və idarə heyəti* ........ 5

*İcranın təmin edilməsi* ........ 7

**Tövsiyələr** ........ 7

**Əsas tövsiyələrin xülasəsi** ........ 13

**2005-ci ilin Korporativ İdarəetmə üzrə SNƏH-dən sonra irəliləyişlərin xülasəsi** ........ 14

**İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinin yerinə yetirilməsinin xülasəsi** ........ 15

**Korporativ idarəetmə haqqında ümumi məlumat** ........ 17

**Korporativ idarəetmə prinsiplərinin bir-bir nəzərdən keçirilməsi** ........ 20

*Hissə I: Səmərəli korporativ idarəetmə çərçivəsi üçün bazanın təmin edilməsi* ........ 20

*Hissə II: Səhmdarların hüquqları və əsas sahiblik funksiyaları* ........ 22

*Hissə III: Səhmdarlara Ədalətli Yanaşma* ........ 27

*Hissə IV: Tərəf müqabillərinin korporativ idarəetmədə rolu* ........ 30

*Hissə V: Açıqlama və şəffaflıq* ........ 31

*Hissə VI: Müşahidə şurası və idarə heyətinin vəzifələri* ........ 36

# Ölkə qiymətləndirməsi: Azərbaycan

2005-ci ilin Azərbaycanda Korporativ İdarəetmə üzrə Standart və Normalara Əməl olunma Hesabatının (SNƏH) hazırkı yeniləşdirilmiş variantı qanun və təcrübələri İƏİT-in Korporativ İdarəetmə Prinsipləri (Prinsiplər) müqayisə edir və əsasən açıq səhmdar cəmiyyətlərinə həsr olunur.

Son illərdə Azərbaycanda ciddi iqtisadi artım baş verib: yüksək neft qiymətləri və artmış hasilat nəticəsində ÜDM-in artım tempi 2007-ci ildə 25% və 2008-ci ildə 11% təşkil etmişdir. 2005-ci ildən sonra, əvvəlki illərin ciddi institusional və hüquqi dəyişiklikləri davam etmişdir. Yeni qanun və digər normativ-hüquqi aktlar investorların hüquqi müdafiəsini artırıb daha geniş işgüzar mühit yaratmışdır. Həmin dəyişiklikləri əks etdirərək, 2008-ci ildə Azərbaycanın "Doing Business" hesabatında İnvestorların Müdafiəsi reytinqi 110-cı yerdən 18-ə və ümumi reytinq 97-dən 33-ə qalxmışdır. Korporativ idarəetmənin tətbiqi və icrası, həmçinin Mərkəzi Bankın təşəbbüsləri və BMK, AYIB və digər beynəlxalq donorlar və investorların dəstəyi ilə yaxşılaşmağa başlamışdır. Bu, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) tərəfindən icra tədbirlərinin canlandırılması istiqamətində göstərdiyi səyləri nəzərə alaraq davam etməlidir.

Lakin, ciddi əngəllər də mövcuddur. Kapital bazarının əsas infrastrukturu mövcud olsa da, alqı-satqı və likvidlik minimaldır və yalnız bir neçə şirkət maliyyələşdirmə mənbəyi üçün səhm bazarına müraciət etmişdir. Korporativ idarəetmə və investorların müdafiəsi üzrə hüquqi çərçivə gücləndirilib, lakin ictimaiyyətin həmin dəyişikliklər haqqında bilgiləri kifayət deyil və yeni qaydalara aşağı səviyyədə riayət olunur. Kritik olaraq, nəzarət obyektlərinin sayının çoxluğunu nəzərə alaraq QKDK-nin resursları və cərimə tətbiq etmək imkanları məhduddur. Konkret problemlərə kiçik səhmdarların az müdafiə olunması, müşahidə şurası və idarə heyəti, həmçinin təftiş komissiyası kimi aidiyyəti orqanlar üçün lazımi səviyyədə müəyyən edilməmiş hüquq və vəzifələr, müşahidə şuralarında müstəqil üzvlərin çatışmazlığı və açıqlama tələblərinə az riayət olması daxildir: bir çox şirkətlər maliyyə hesabatlarını müntəzəm olaraq dərc etmir; sahiblik açıqlanmır və auditin keyfiyyəti birmənalı deyil.

## Bazar haqqında məlumat

*BFB-də alqı-satqı fəaliyyəti məhduddur*

Bakı Fond Birjası Azərbaycanın yeganə fond birjasıdır. 100-dən çox səhmdarı olan 234 səhmdar cəmiyyətindən (SC) səhmlərin alqı-satqı üçün birjada yerləşdirilməsi tələb olunur. Lakin, onlardan heç biri listinqin tələblərini yerinə yetirməyib və onların səhmləri, həmçinin, birjadankənar bazarda alınıb-satıla bilər, harada ki, altqı-satqı əqdlərinin əksəriyyəti bağlanılır. BFB-nin verdiyi məlumatlara əsasən, 2008-ci ildə dövriyyə təxminən 9.5 milyard manat təşkil etmişdir, bu da 2007-ci ilin eyni göstəricisindən 5.5 milyard manat yuxarıdır. Dövriyyə əsasən hökumətin sabit gəlirli qiymətli kağızlarından ibarət olmuşdur. BFB bazarın kapitallaşması ilə bağlı statistik uçot aparmır və əqlərin az bağlanmasını nəzərə alaraq bu o qədər də məqsədəmüvafiq deyil. Doqquz şirkət birja vasitəsilə istiqrazlar buraxıb və onların demək olar ki, hamısı banklar olmuşdur.

*Əksər SC-lə özəlləşdirmə vasitəsilə yaradılmışdır*

Şirkətlərin əksər hissəsi özəlləşdirmə nəticəsində yaradılıb. İşçilərin səhmlərə sahibliyi geniş yayılıb və özəlləşdirmədən sonra sahibliyin konsentrasiyası sabit artım göstərmişdir. Qarşılıqlı fondlar və ya pensiya fondları yoxdur.

*İnstitusional investorlar meydana çıxmağa başlayır*

2006-cı ildə, Hökumət neft sektoruna daxil olmayan şirkətlərə investisiya qoyan 90 milyon manat həcmində (100 milyon ABŞ dolları) fond - Azərbaycanın İnvestisiya Şirkətini (AİŞ) yaratmışdır. AIŞ, investisiya qərarlarının verilməsində korporativ idarəetmə amillərini nəzərə alır. "Kazimir Partners" Azərbaycanın iki bankına investisiya qoymuş özəl investisiya şirkətidir.

*Dövlət mülkiyyəti genişdir*

Özəl sektorin həcmi əhəmiyyətli dərəcədə artsa da, dövlət mülkiyyəti hələ də genişdir. Dövlət müəssisələrinin payına düşən ÜDM 15-25% arasında hesablanır. ARDNŞ və Azərbaycan Hava Yolları kimi iri təşkilatlar, habelə 200-dən çox digər kiçik SC-lər Azərbaycan hökumətinə məxsusdur.

*Azərbaycanın hüquqi bazası dərinləşdirilir*

Azərbaycan kontinental hüquq ölkəsidir. Buna baxmayaraq, ölkədə şirkətlər haqqında ayrıca qanun mövcud deyil. Bu cür qanun 2004-cü ilə qədər qüvvədə olmuş, lakin sonra qüvvədən düşmüşdür və şirkətlərə aid müvafiq müddəalar ölkənin korporativ və kommersiya məsələləri ilə bağlı əsas qanunvericiliyi olan 2000-ci ildə qəbul olunmuş Mülki Məcəlləyə daxil edilmişdir. Digər əsas qanunlara 2004-cü ildə qəbul olunmuş Mühasibat Uçotu haqqında Qanun (hansı ki, iri şirkətlər və maliyyə şirkətləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarını tətbiq edir) və 1994-cü ildə qəbul olunmuş Audit Xidməti haqqında Qanun daxildir.

2004-cü ildə Banklar haqqında Qanunda və Azərbaycanın Mərkəzi Bankının Banklarda Korporativ İdarəetmə Standartlarının tətbiqi haqqında Təlimatda banklar üçün korporativ idarəetmə üzrə qabaqcıl qaydalar müəyyən edilmişdir. 2008-ci ildə Aidiyyəti şəxslərlə əqdlər haqqında qaydalar qəbul olunub və 2008-ci ildə Mülki Məcəlləyə direktorların fidusiar vəzifələri ilə bağlı dəyişikliklər edilmişdir[1]. Qoşmada 2005-ci ilin SNƏH-dən sonra edilmiş dəyişikliklərin xülasəsi verilir.

*İcranın məhdudluğu*

Qanunvericiliklə bağlı səylər uğurludur və hal-hazırda davam etdirilir, qanunvericiliyin icrası isə hələ də geri qalmaqdadır. Hal-hazırda, QKDK şirkətlərə yalnız nominal cərimə tətbiq edir və tənzimləmə resurslarını yüzlərlə SC-lər arasında bölüşdürməyə məcburdur və həmin SC-lər yalnız qiymətli kağızları buraxan və ya səhmləri BFB-də ticarət olunan açıq səhmdar cəmiyyətlərlə məhdudlaşmır. BFB-dən başqa, kapital bazarlarına aid əsas təşkilatlar Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) və Milli Depozit Mərkəzidir (MDM). Yeni sədr QKDK-yə 2008-ci ildə təyin olunub və qiymətli kağızlara aid qanunvericiliyin tətbiqini artırmağa çalışır.

*Banklarda korporativ idarəetmə kifayət qədər qabaqcıldır*

Banklara qabaqcıl korporativ idarəetmə təcrübəsini tələb edən tənzimləmə rejimi tətbiq olunur. Azərbaycan Mərkəzi Bankı (AMB) bank menecerləri üçün təlimlərin müntəzəm və davamlı keçirilməsinə nəzarət edir. 2007-ci ilin fevral ayından başlayaraq, banklarda audit yoxlamaları Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq həyata keçirilməlidir.

*Korporativ idarəetmə məcəlləsi hazırlanmaqdadır*

Hal-hazırda SC-lər üçün korporativ idarəetmə məcəlləsi mövcud deyil. Korporativ idarəetmə məcəlləsi İqtisadi İnkişaf Nazirliyinin nəzdində yaradılmış korporativ idarəetmə üzrə işçi qrupu tərəfindən hazırlanmaqdadır.

## Əsas nəticələr

Aşağıdakı bölmələrdə Azərbaycan tərəfindən İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinin yerinə yetirilməsi hər bir prinsip üzrə işıqlandırılır (səhifə 23). 2005-ci il üzrə Korporativ İdarəetmə SNƏH-dən sonra dəyişikliklərin xülasəsi bu bölmənin

[1] SNƏH-in başa çatdırılması zamanı, BFB üçün yeni listinq qaydaları təsdiqlənmişdir.

sonunda verilir (səhifə 13) . 2005-ci ildən sonra vəziyyət yaxşılaşsa da, ümumi icra məhduddur və Azərbaycan Avropa və Mərkəzi Asiya regionunun bəzi ölkələrindən, xüsusilə, Balkan ölkələri və, xüsusilə, AB-nin yeni üzv ölkələrindən əhəmiyyətli dərəcədə geridə qalır.

## İnvestorların müdafiəsi

*Səhmdarların bir çox əsas hüquqları var ...*

Səhmdarların ümumi yığıncaqlarda iştirak etmək, səhmləri almaq, satmaq və ötürmək, şirkətdən əsas məlumatlar almaq, idarə heyətinin üzvlərini seçmək və iri əqdləri təsdiq etməkdən ibarət olan ümumi hüquqları var. Şirkətin nizamnaməsinə dəyişikliklərin edilməsi, yeni səhmdar kapitalının emissiyası və şirkətin yenidən təşkili və ya ləğv edilməsi prosesinin başlanması üçün ümumi yığıncaqda iştirak edən səhmdarların 66%-nin təsdiqi tələb olunur. Səhmdarlar ümumi yığıncaqda qəbul olunmuş qərardan məhkəmədə şikayətlənə bilər və yeni fidusiar vəzifələr onu nəzərdə tutur ki, nəzəriyyədə, həmçinin, zərərə görə şirkətin direktorlarını və əməkdaşlarını məhkəməyə verə bilərlər.

*....lakin onlara az riayət olunur*

Ümumi yığıncaqlar hər zaman keçirilmir və keçirildiyi halda, səhmdarlar iri əqdləri təsdiq edə və ya bütün tələb olunan məlumatı ala bilmir. Səhmdarların ümumi yığıncaq zamanı suallar verməyə açıq hüququ yoxdur. Kapitalın emissiyası ilə bağlı qərarın verilməsi direktorlar şurasına həvalə edilə bilər və minoritar səhmdarların səhmlərin emissiyasında üstünlük hüquqları yoxdur. Korporativ informasiyanı əldə etmək çətindir.

*Bazar infrastrukturu yararsızdır*

Qiymətli kağızlar bazarının köhnəlmiş infrastrukturu və normaları və məhdud likvidlik, həmçinin, səhmlərin ticarətini çətinləşdirərək səhmdarların hüquqlarını məhdudlaşdırır. BFB-də ticarət olunan bütün qiymətli kağızların klirinqi BFB-dən alınmış sərəncamlar əsasında qiymətli kağızlar üzrə hesablaşmanı həyata keçirən MDM tərəfindən deyil, BFB tərəfindən həyata keçirilir. ÖTQ-ə (ödəniş əsasında təchizat) tam əməl olunmur: hesablaşma real vaxt rejimində qross əsasda həyata keçirilir. Əksər əqdlər birjadankənar bazarda bağlanılır. Listinq tələblərini yerinə yetirən şirkətlərin əksəriyyəti, həmçinin, səhmdarların hüquqlarını məhdudlaşdırır.

*Korporativ nəzarət bazarı lazımi səviyyədə inkişaf etməyib*

Hal-hazırda şirkətə nəzarətin əldə edilməsi ilə bağlı qanun və ya qaydalar mövcud deyil və şirkətə nəzarəti əldə etmək istəyən investordan digər səhmdarlara tender təklifinin verilməsi tələb olunmur. Təcrübədə, nəzarətdə çox az dəyişikliklər baş verib. Açıq SC-dən qapalı SC-yə çevrilmə ümumi yığıncaqda səslərin 2/3 hissəsini tələb edir, lakin bu cür dəyişikliyin baş verməsi zamanı minoritar səhmdarlar üçün çox az digər müdafiə vasitəsi mövcuddur. Özəlləşdirmə zamanı yaradılmış açıq səhmdar cəmiyyətlərin və kiçik səhmdarların böyük sayını nəzərə alaraq, məsələ ciddi narahatlıq doğurur.

*İnsayderlər üçün ticarət qaydaları mövcuddur, lakin onların icrası aşağı səviyyədədir*

İnsayderlər qanunvericilikdə müəyyən olunub və insayderlər daxili məlumatlardan istifadə etməklə ticarət apara və ya həmin məlumatları üçüncü tərəflərə açıqlaya bilməzlər. İnsayderlər bağladıqları əqdləri bir gün ərzində QKDK-yə qeydiyyat üçün təqdim etməlidir. QKDK və BFB, həmçinin, pozulma hallarının aşkar edilməsi üçün ticarəti izləməlidirlər, lakin cinayət məsuliyyəti sanksiyalarının tətbiq edilməsinə icazə verilmir və mülki sanksiyaların məbləğləri aşağıdır. Təcrübədə, bu sahədə qanunvericiliyin icrası aşağı səviyyədədir.

*Dividendlər nadir hallarda ödənilir*

Dividendlər müşahidə şurası tərəfindən təklif olunur və ümumi yığıncaq tərəfindən təsdiq olunur. Təcrübədə, səhmdarlar hər zaman dividendləri təsdiq etmir və 2007-ci ildə BMK-nin sorğusunda iştirak etmiş şirkətlərin yalnız 18% dividendləri elan edib ödəmişdirlər.

*Aidiyyəti tərəflərin*

QKDK-nin aidiyyəti tərəflərin əqdləri ilə bağlı yeni qaydalarında aidiyyəti tərəflərin

*əqdləri haqqında yeni qaydalar*

tərifi verilir və maraqlı tərəfdən əqddə marağın təbiəti və həcmi haqqında müşahidə şurasına yazılı məlumat verməsi tələb olunur. Qaydalarda, həmçinin, tələb olunur ki, şirkətin aktivlərinin 5%-dən yüksək olan aidiyyəti tərəflərin əqdləri səhmdarların ümumi yığıncağında təsdiq olunsun və həmin əqdlər haqqında məlumat ictimaiyyətə açıqlansın. Yeni qaydaları qəbul edilməsi mühüm irəliləyiş olsa da, bazarın bir çox iştirakçıları onlardan agah deyillər.

## Açıqlama

*Qanun şirkətlərdən audit yoxlaması aparılmış maliyyə hesabatlarının hazıralnmasını tələb edir, lakin bir çox şirkətlər bu tələbi yerinə yetirmir*

Bütün şirkətlərdən balans hesabatı və mənfəət və zərərlər hesabatını daxil edən audit yoxlaması aparılmış maliyyə hesabatlarının hazırlanması tələb olunur. Bir çox SC-lərdən nağd pul dövriyyəsi hesabatı və nəzarət edən və faktiki sahiblər haqqında məlumat tələb olunmur. Son zamanlara qədər, şirkətlərin əksəriyyəti illik hesabatlar və ya maliyyə hesabatlarını hazırlamırdılar və ya səhmdarlara təqdim etmirdilər. QKDK pozuntulara görə cərimələri tətbiq etməyə başlayıb və artıq şirkətlərin əksəriyyəti maliyyə hesabatlarını hazırlayır. Bir çoxları isə hələ də, hazırlamır və bir çox hallarda keyfiyyət aşağıdır.

*MBHS-dan daha çox bank və digər şirkətlər istifadə edir*

Banklar və (2008-ci ilin yanvar ayından) ictimai əhəmiyyətli qurumlar[2] sayılan şirkətlərdən Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MBHS) konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanması tələb olunur. Digər şirkətlər Milli Mühasibat Uçotu Standartlarından istifadə edə bilərlər. MMUS-lar MHBS-lara uyğunlaşdırılıb, lakin onlar daha sadədir və bununla kiçik və orta müəssisələr üçün onlara riayət etməsi daha asandır. Daha iri banklar və bəzi şirkətlər, bir qayda olaraq xarici investisiyalar qoyulmuş və ya nəzarət olunan şirkətlər MHBS-ların tətbiqində irəliləyib, digər şirkətlər isə yox. Bir çox şirkətlər hələ də MMUS-ları tətbiq etmir və hesabatlarını vergi uçotu əsasında hazırlayır.

*Auditin keyfiyyəti tədricən artır*

Bütün SC-lərdən kənar auditorun cəlb olunması tələb edilsə də, bu yaxınlara qədər bir çoxları bu tələbi yerinə yetirmirdi. Audit yoxlamalarının keyfiyyəti, həmçinin, bazarın bəzi iştirakçılarında şübhə yaradıb, lakin yerli bazarda xarici audit firmalarının sayının artması və mühasibat uçotu və audit sahəsində təhsilin keyfiyyətinin tədricən artması ən azı banklar və müəyyən şirkətlər üçün auditin keyfiyyətini artıra bilər.

*Auditorun müstəqilliyi ilə bağlı tələblər azdır*

Auditorlar şirkətə birbaşa bağlı ola bilməzlər və peşəkar etika məcəlləsinə riayət etməlidirlər. Auditorun səhmdarlara hesabatlılığı haqqında müddəalar faktiki olaraq qanundan çıxarılıb və əvəz olunmayıb. Audit firmaları və ya partnyorların dəyişməsi ilə bağlı tələblər yoxdur və müstəqilliklə bağlı digər tələblər minimaldır. Bir çox hallarda, auditorlar müştəriləri üçün auditdən ibarət olmayan işi yerinə yetirir. Bəzi hallarda onlar, faktiki olaraq, hesabatları həm hazırlaya, həm yoxlaya bilərlər.

*Auditorlar Palatası peşəni tənzimləyir*

Auditorlar Palatası peşəni tənzimləyir və auditorlar və audit firmalarına lisenziya verir. Palata yerli audit standartlarını müəyyən edir və 2009-cu ildən başlayaraq Beynəlxalq Audit Standartlarının (BAS) tətbiq olunmasını tələb edir. Palata auditorlar və müştərilər arasında yaranmış mübahisələri həll edə bilər və auditin keyfiyyətini yoxlayır. O, keyfiyyəti aşağı olan audit yoxlamalarına görə lisenziyanı geri çağıra bilər və bir neçə hallarda geri çağırmışdır. Palata lisenziya almış auditorlardan cari təlimlərdə iştirak etməyi tələb edir və təlimləri təşkil edir. Palata 2008-ci ildən başlayaraq IFAC-ın tam üzvüdür. Bazar iştirakçılarının Palataya qarşı münasibəti

[2] Qanuna əsasən, ictimai əhəmiyyətli qurumlara sığorta şirkətləri, banklar, səhmləri birjada ticarət olunan digər SC-lər və hökumət tərəfindən müəyyən edilmiş konkret limitlərə cavab verən digər kommersiya təşkilatları daxildir. Təcrübədə, banklar, sığorta şirkətləri və bəzi iri dövlət müəssisəsindən başqa, ictimai əhəmiyyətli qurumun tələblərinə az nəzarət olunur və bununla bağlı məlumatlılıq aşağı səviyyədədir.

qarışıqdır, bir çoxları müsbət rəy bildirib, lakin bəziləri hesabt etdilər ki, o, mühasibat uçotu və auditin keyfiyyətinin artırılması sahəsində daha səmərəli ola bilərdi.

*İnformasiyanı hələ də çətin əldə etmək olar*

2005-ci ilin SNƏH-dən sonra vəziyyətin yaxşılaşması müşahidə olunsa da, səhmdarlar və investorlar şirkət haqqında məlumatların əldə edilməsi ilə bağlı problemlərin olmasını bildirməyə davam edirlər. BFB emissiya prospektləri və kiçik sayda illik hesabatlar kimi, bəzi məlumatları yerləşdirir və Nəqliyyat Nazirliyinin Reyestrində, həmçinin, şirkətlər üçün əsas məlumatlar var. Bəzi banklar və bir neçə şirkətin ictimaiyyət üçün məlumatlarla internet səhifələri var.

## Şirkətə nəzarət və müşahidə şurası və idarə heyəti

*Müşahidə şurası və idarə heyəti arasında vəzifələrin bölgüsü bir çox hallarda aydın deyil*

Azərbaycanda şirkətlərin idarəetmə strukturu iki pilləlidir: müşahidə şurası və idarə heyəti[3]. Müşahidə şurası idarə heyətinin fəaliyyətinə nəzarət etməlidir, idarə heyəti isə şirkətin gündəlik fəaliyyəti üçün məsuliyyət daşıyır. Təcrübədə isə vəziyyət əhəmiyyətli dərəcədə fərqlənir və bəzi şirkətlərdə müşahidə şurası çox az rol oynayır, digərlərində isə gündəlik idarəetmə məsələlərinə daxil olaraq həddən artıq fəal iştirak edir. Ümumiyyətlə, bir çox SC-lərdə müşahidə şuraları əsas funksiyalara, o cümlədən, korporativ strategiya, maliyyə hesabatverməsi, risklərin idarə edilməsi və siyasətə nəzarət etmir.

*İdarə heyətinin üzvləri bir çox hallarda müşahidə şurası əvəzinə səhmdarların ümumi yığıncağı tərəfindən seçilir*

Mülki məcəlləyə əsasən, SC-lərin idarə heyətləri səhmdarların ümumi yığıncağı və ya müşahidə şurası tərəfindən seçilə bilər. Şirkətlərin iki pilləli idarəetmə strukturunu tətbiq edən bir çox ölkələrdə yalnız müşahidə şuraları idarə heyətini təyin edə bilərlər. İdarə heyətinin üzvlərinin səhmdarların ümumi yığıncağı tərəfindən seçilməsi müşahidə şurasının rəhbərliyə nəzarət etmək və onları məsuliyyətə cəlb etmək imkanını məhdudlaşdırır.

*Təftiş komissiyaları korporativ strukturun elementi olaraq qalır*

Təftiş komissiyaları səhmdarların ümumi yığıncağı tərəfindən seçilir və onların üzvləri müşahidə şurası və idarə heyətinin üzvləri deyillər. Onlar maliyyə hesabatlarının təsdiqindən vergi məsələləri üzrə məsləhətlərin verilməsinə qədər müxtəlif məqsədlərə xidmət edir. Bir çox hallarda, gördükləri işin audit komitəsi və ya kənar auditor tərəfindən görülən işdən fərqlənməsi aydın deyil. Bu cür orqanlarda Şərqi və Mərkəzi Avropa ölkələrində artıq islahatlar keçirilib və ya onlar tamamilə ləğv olunub və bəzi ekspertlər də Azərbaycan üçün bunu tövsiyə etmişdir.[4]

Hal-hazırda Daxili Audit haqqında Qanun müəyyən şirkətlərin audit komitələrindən təftiş komissiyalarının gördüyü işi yerinə yetirilməsini tələb edir. Anlaşılmazlığı artıraraq, bankların məcburi audit komitələri var və onlar səhmdar cəmiyyətlərin təftiş komissiyaları ilə oxşar funksiyaları yerinə yetirir və sığorta şirkətlərinin "təftiş komissiyaları" var və onlar şuranın audit komitəsinə oxşardır. Müşahidə şurasının digər komitələrindən geniş istifadə olunmur.

*Fidusiar vəzifələr tətbiq olunub*

2007-ci ildə Mülki Məcəllədə müşahidə şurasının üzvləri üçün fidusiar vəzifələr müəyyən edilib. Həmin vəzifələrə uyğun olaraq, direktorlar və şirkətin rəhbər vəzifəli şəxsləri şirkətə qarşı məntiqlə və vicdanla hərəkət etməlidirlər. Direktorlar haqsız hərəkətlər nəticəsində şirkətə vurulmuş zərərə görə məsuliyyətə cəlb oluna bilərlər,

---

[3] Səhmdarların sayı 50 və daha az olan səhmdar cəmiyyətlərin müşahidə şuraları yoxdur və, banklar və sığorta şirkətləri istisna olmaqla, səhmdar cəmiyyətləri idarə heyəti əvəzinə bir direktoru seçə bilərlər. Səhmdarların sayı 100 və ondan çox olan şirkətlərin əksəriyyətində həm müşahidə şurası, həm idarə heyəti var.

[4] Bura Çarlz Kenfild və Vüsal Eynullayev, *Azərbaycanın Qanunvericiliyində Təftiş komissiyalarının ləğv edilməsi və Audit Komitəsinin yaradılması,* Azərbaycanda Korporativ İdarəetmə İcmalı (sentyabr 2007) və İƏİT-in *Avrasiyanın Banklarında Korporativ İdarəetmə haqqında Siyasət Sənədi (aprel 2008)* daxildir.

lakin bu günə qədər heç bir direktorun məsuliyyətə cəlb olunması halı müşahidə olunmamışdır.[5]

*Müstəqil şura üzvlərinə nadir hallarda rast gəlmək olar*

Sığorta şirkətlərindən başqa, qanunvericilikdə müşahidə şuraları ilə bağlı müstəqillik tələbləri mövcud deyil. Kənardan investisiyaların cəlb olunması məqsədilə korporativ idarəetməni təkmilləşdirmək istəyən banklar və səhmdar cəmiyyətləri müşahidə şuralarına müstəqil üzvləri cəlb etdilər, lakin, bir çoxları şikayət edir ki, Azərbaycanda xidmət göstərmək üçün biznes sahəsində yaxşı təcrübəsi olan həqiqətən də müstəqil şəxs tapmaq çətindir. Müşahidə şuralarında müstəqil üzvlərin faiz payı hələ də aşağıdır. BMK tərəfindən 2007-ci ildə aparılmış sorğuda iştirak etmiş şirkətlərin 28% müstəqilliklə bağlı öz təriflərindən istifadə etməklə müşahidə şuralarında müstəqil üzvlərin olmasına şübhə bildirdilər.

*Maraqların toqquşması sahəsində yeni qaydalar*

Səhmdar cəmiyyətləri üçün maraqların toqquşması ilə bağlı az qaydalar var, baxmayaraq ki, QKDK-nın aidiyyəti şəxslərlə əqdlər ilə bağlı yeni qaydaları müşahidə şurasının üzvlərinə şamil olunur. Bankların idarə heyəti və müşahidə şurasının üzvlərinə maraqların toqquşması ilə bağlı daha konkret qaydalar tətbiq olunur.

*Müşahidə şurasının üzvləri üçün təlimlər*

BMK-nin Azərbaycanda Korporativ İdarəetmə Layihəsi şirkətlər keçirilən üçün cari təlimləri təşkil edir. Lakin, səhmdar cəmiyyətlərin müşahidə şuralarının üzvləri üçün təlimlər hələ də, nisbətən nadir hallarda keçirilir. Müşahidə şurasının üzvləri üçün korporativ idarəetmə məcəlləsi hazırlanmaqdadır və hələ ki, dərc olunmayıb. Banklar üçün daha çox təlimlər keçirilir. Şuranın fəaliyyəti, həmçinin, nadir hallarda qiymətləndirilir.

*Dövlət müəssisələrində korporativ idarəetmə sahəsində müəyyən irəliləyişlər əldə olunmuşdur*

Dövlət müəssisələrinin əksəriyyəti səhmdar cəmiyyətlərinə çevrilib və onlara Mülki Məcəllə tətbiq olunur. İri dövlət müəssisələrində mühasibat uçotu və audit üzrə beynəlxalq standartların tətbiqinə başlanıb və Dünya Bankı həmin müəssisələrə maliyyə hesabatlarının təkmilləşdirilməsi sahəsində yardım göstərir. Bu yaxınlarda keçirilmiş digər islahatlar, o cümlədən dövlət banklarına tətbiq olunacaq AMB-nin korporativ idarəetmə standartları, direktorlar üçün vəzifələrin müəyyən edilməsi və aidiyyəti şəxslərlə əqdlər haqqında qaydaların təsdiqlənməsi, və şura üzvləri üçün BMK tərəfindən təlimlərin keçirilməsi və məlumatlılığın artırılması müəyyən dövlət müəssisələrində idarəetmənin təkmilləşməsi ilə nəticələnmişdir.

*...lakin çağırışlar mövduddur .*

Lakin, dövlət müəssisələrində daha təkmil idarəetmə, həmçinin, bir sıra əngəllər və maneələrlə üzləşir. Ən vacib dövlət müəssisələrinin bəziləri səhmdar cəmiyyətlərinə çevrilməyib və qeyri-müəyyən hüquqi formaya malikdir.[6] Bir çox dövlət müəssisələri hələ ki, dövlətin birbaşa və ya dolayı maliyyə yardımına arxalanır və bəzən, aydın maliyyə mexanizmləri olmadan, müxtəlif sosial və digər qeyri-kommersiya funksiyalarını yerinə yetirirlər. Bir sıra icra hakimiyyəti orqanları dövlət mülkiyyəti hüquqlarını əsasən sistemsiz şəkildə həyata keçirir. İri dövlət müəssisələri münasibətdə açıqlama sahəsində irəliləyişlər əldə olunsa da, əksəriyyəti qeyri-şəffaf qalmaqdadır. Şuranın fəaliyyət qaydaları, mandatı və müstəqilliyi lazımi səviyyədə

[5] Məhkəmə mənbələri və ya bazar iştirakçıları hər hansı belə halı təsdiq etməmişdir.
[6] Bura Dövlət Neft Şirkəti (ARDNŞ), Xəzər Dəniz Gəmiçiliyi (KASPAR) və Bakı Metropoliteni aiddir.

təmin edilməyib və bir çox dövlət müəssisələrinin müşahidə şuraları yoxdur.

### İcranın təmin edilməsi

*QKDK-nin geniş səlahiyyətləri var, lakin cərimələr aşağıdır*

QKDK qiymətli kağızların emitentləri, brokerləri və digər peşəkar bazar iştirakçıları, BFB və MDM və bütün 1.914 səhmdar cəmiyyətinin kommersiya və qiymətli kağızlarla bağlı məsələləri tənzimləyir. QKDK-nın yeni qaydaları təsdiq etmək, şikayətləri araşdırmaq, mülki iddialar irəli sürmək və cərimələr tətbiq etmək, lisenziya vermək və geri çağırmaq səlahiyyətləri var. O, bu yaxınlarda, icranın təmin edilməsi sahəsində fəaliyyətə başlayıb və 2008-ci ildə investorlar tərəfindən verilmiş 200-dən çox şikayəti araşdırmışdır.

Lakin, onun cərimələri aşağıdır və ən ciddi pozuntulara görə maksimum 300 manat və ya 400 ABŞ dolları təşkil edir. QKDK rəqabətli əmək haqlarını ödəyə bilmir və faktiki büdcə və inzibati müstəqilliyə malik deyil. Bütün səhmdar cəmiyyətlərinə nəzarət etmək zərurəti, həmçinin, onun məhdud resurslarını daha da məhdudlaşdırır.

*AMB yaxşı idarəetmənin vacib elementidir*

2005-ci ilin SNƏH-dən sonra, AMB korporativ idarəetmənin mühüm komponentinə çevrilib və həm müvafiq qanun və qaydaların icrasına nəzarət edir, həm təlimlər keçirir və agahlığı artırır. Məhkəmə sistemi, həmçinin, əvvəlki SNƏH-dən başlayaraq, mühüm islahatdan keçib və, misal üçün, kommersiya işinin həllinə tələb olunan vaxt kimi fəaliyyətin səmərəliliyini ölçən ümumi göstəricilər əhəmiyyətli dərəcədə yaxşılaşıb. Lakin, müəyyən bazar iştirakçıları məhkəmələrin mürəkkəb korporativ işləri həll etmək imkanlarını şübhə altına qoyur.

## Tövsiyələr

*İslahatlar davam etməlidir*

Azərbaycan ciddi və geniş islahatlar həyata keçirib və, əksəriyyəti son bir neçə il ərzində həyata keçirilməklə, kapital bazarları və korporativ idarəetmə üçün hüquqi və institusional çərçivə yaradıb. Lakin, kapital bazarlarının potensialının tam istifadə edilməsi və müşahidə şurası, idarə heyətinin və idarəetmənin peşəkar səviyyəyə gətirilməsi üçün həmin islahatların davam etdirilməsi tələb olunur.

Yaxşı korporativ idarəetmə şirkətlər tərəfindən resursların daha səmərəli istifadə edilməsi və işçilər, kreditorlar və digər tərəf müqabilləri ilə münasibətlərin yaxşılaşmasını təmin edir. Bu, davamlı və uzunmüddətli iqtisadi inkişaf üçün tələb olunan kapitalın cəlb olunması üçün önəmli və başlıca şərtdir.

***QKDK-nın və icranın gücləndirilməsi***

*QKDK-ə daha böyük səlahiyyətlər və resurslar lazımdır*

Qanunvericiliyə QKDK-yə cinayət işlərini başlamaq və yerlərdə yoxlamalar aparmaq səlahiyyətlərini verən dəyişikliklər edilməlidir. QKDK-nin tətbiq etdiyi cərimələr həmçinin artırılmalıdır ki, hüquq pozuntularının qarşısının alınması effekti təmin olunsun.

Resursların hal-hazırda məhdud olmasına görə, QKDK icra tədbirlərini "ictimai əhəmiyyətli qurumlara" və 100 və daha çox səhmdarı olan iri səhmdar cəmiyyətlərinə yönəltməlidir. Aşağıda qeyd edildiyi kimi, kiçik səhmdar cəmiyyətləri qapalı səhmdar cəmiyyətlərinə və ya məhdud məsuliyyətli cəmiyyətlərə çevrilməyə həvəsləndirilməlidir və QKDK həmin prosesi dəstəkləməlidir. Yeniləşdirilmiş prioritetlərə qeydiyyat və digər açıqlama tələblərinin yerinə yetirilməsi və, həmçinin, səhmdarların müdafiəsinin digər elementləri daxil olmalıdır.

QKDK tərəfindən vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün daha çox vəsaitin ayrılması zəruridir. Zəruri sayda ixtisaslı əməkdaşların saxlanması və özəl sektordan cəlb olunması üçün QKDK-ə işçilərin əmək haqlarını artırmağa imkan verilməlidir. Təşkilat, korporativ idarəetmə üzrə təlim daxil olmaqla, əməkdaşları üçün təlimlər təşkil etməli və potensialını artırmaq üçün donorlar və digər beynəlxalq tərəf

müqabilləri ilə çalışmalıdır. Bura, həmçinin, QKDK-nin idarə edilməsi və müstəqilliyini nəzərdən keçirəcək IOSCO qiymətləndirməsi daxil olmalıdır.

*AMB yaxşı təcrübə tətbiq olunan bankların sayını artırmalıdır*

Azərbaycan Mərkəzi Bankı icranın təmin edilməsi və maliyyə təşkilatları və onların müşahidə şurası və idarə heyətlərinin üzvləri üçün təlimlərin keçirilməsi sahəsində səylərini davam etməlidir. O, ictimaiyyətə hesabatların açıqlanması tələblərinin və, eyni zamanda korporativ idarəetmə və prudensial tələblərinin yerinə yetirilməsi daxil olmaqla, daha çox bankda yaxşı təcrübənin tətbiq edilməsini təmin etməyə çalışmalı və həmin bankları BMK-nin Korporativ İdarəetmə Layihəsi və BYİB-dən yardım almağa həvəsləndirməlidir.

***Şirkətlər üzrə qanunvericiliyə ciddi dəyişikliklərin edilməsi və şirkətlər üçün yeni qanunun qəbul edilməsinə baxılması***

*Yeni qanunvericiliklə və ya qanunvericiliyə dəyişikliklərin edilməsi vasitəsilə müşahidə şurası və idarə heyəti arasında vəzifələrin bölgüsü dəqiqləşdirilməlidir*

Mülki Məcəlləyə dəyişikliklərin edilməsi və ya daha yaxşı ki, şirkətlər üçün xüsusi qanunun qəbul edilməsi vasitəsilə səhmdar cəmiyyətlərin hüquqi bazası gücləndirilməli və dəqiqləşdirilməlidir. Aşağıda göstərildiyi kimi, yeni bazar iştirakçılarının yaradılması üçün şərait yaradan və mülkiyyətin davamlı birləşməsi zamanı investorları müdafiə edən kapital bazarlarının daha geniş hüquqi islahatı ilə dəstəklənməlidir.

Dəyişikliklər edilmiş Mülki Məcəllədə və ya yeni qanunda müşahidə şurası və idarə heyətinin vəzifələrini dəqiq müəyyən etməlidir. Müşahidə şurasına idarə heyətinə üzvləri seçmək və əvəz etmək müstəsna hüququ verilməlidir və idarə heyəti, öz növbəsində, səhmdar cəmiyyətinin gündəlik fəaliyyəti ilə bağlı dəqiq səlahiyyətlərə malik olmalıdır. Müşahidə şurası, həmçinin, idarə heyətinin üzvləri üçün əmək haqlarını təsdiq etmək və rəhbərliyin fəaliyyətinə, korporativ strategiyaya və maliyyə hesabatlarının hazırlanması və məlumatın ictimaiyyətə açıqlanması prosesinə nəzarət üzrə müstəsna hüquqa malik olmalıdır.

*...səhmdar cəmiyyətlərini təftiş komissiyaları əvəzinə audit komitələrini yaratmağa həvəsləndirmək*

Yeni və ya yenidən baxılmış qanunvericilikdə müşahidə şurasında üzv ola biləcək iri səhmdarların və sabiq idarə heyəti üzvlərinin sayı məhdudlaşdırılmalıdır. Qanunvericilik, həmçinin, səhmdar cəmiyyəti tərəfindən müşahidə şurasının üzvlərindən ibarət audit komitələrini yaratmaq hüququnu dəqiq müəyyən etməli və bu cür komitədə üzvlərin əksəriyyətinin majoritar səhmdarlardan və idarə heyətinin üzvlərindən müstəqil olmasını tələb etməlidir. Bu cür komitəsi və kənar auditoru olan səhmdar cəmiyyətinin təftiş komissiyası olmamalıdır.

İctimai əhəmiyyətli qurumlar, banklar və sığorta şirkətləri üçün müvafiq qanunvericilik müşahidə şurasının müstəqil üzvlərindən ibarət audit komitələrinin yaradılmasını tələb etmək üçün yenidən baxılmalı və uyğunlaşdırılmalıdır.

*...və səhmdarların müdafiəsini artırmaq*

Yeni və ya yenidən baxılmış qanunvericilik səhmdarların ümumi yığıncağına müşahidə şurası üzvlərinin əmək haqqının təsdiq edilməsi üzrə müstəsna hüquq verməli və QKDK-nın aidiyyəti şəxslərlə əqdlər haqqında qaydalarına və banklar üçün müvafiq tələblərə uyğun olan maraqların toqquşması üzrə prosedurları daxil etməlidir. Səhmdarların səhmdar cəmiyyəti yeni səhmləri buraxanda səhmləri ilk növbədə almaq imkanını verən üstünlük hüquqları olmalıdır və yeni səhmlərin emissiyasının təsdiqi səhmdarların ümumi yığıncağının müstəsna hüququ olmalıdır və idarə heyətinə həvalə edilməməlidir.

Səhmdarların ümumi yığıncaqda iştirak etmək və suallar vermək hüquqi yeni qanunvericilikdə dəqiq müəyyən edilməli və həmin hüququn pozulmasına görə müvafiq cərimələr tətbiq olunmalıdır. Yeni və ya yeni baxılmış qanunvericilikdə əvəz edən şəxslərin cəlb olunması asanlaşdırılmalı və etibarnamə verilməyən hallarda əvəz edən şəxslərdən səhmdar tərəfindən verilmiş yazılı göstərişlərə əməl edilməsi tələb olunmalıdır.

Yeni qanun və ya yenidən baxılmış Mülki Məcəllədə, həmçinin, qapalı səhmdar cəmiyyətlərinə çevrilən şirkətlərə qarşı daha ciddi tələblər irəli sürülməli və səhmlərini şirkətə və ya nəzarət edən səhmdara ədalətli qiymətlə satan səhmdarlara razılaşmamaq imkanı verilməlidir. Aşağıda göstərildiyi kimi, "çıxarma hüquqi" ilə bağlı müddəaların digər növləri həmçinin nəzərdən keçirilməlidir.

*Daha kiçik səhmdar cəmiyyətlərinə müəyyən tələblərin tətbiq edilməməsi*

İcranın səmərəliliyini artırmaq və məsrəfləri azaltmaq məqsədilə, müəyyən tələblər, o cümlədən, audit yoxlaması aparılmış maliyyə hesabatlarını dərc etmək tələbi daha kiçik SC-lərə tətbiq edilməməlidir. Vaxt ötdükcə, bütün qapalı SC-lər həmin tələbdən azad edilməli, lakin yalnız, yuxarıda göstərildiyi kimi, onların səhmdarları səhmləri sata bildikdən sonra. Alternativ olaraq, daha kiçik SC-lər məhdud məsuliyyətli cəmiyyətlərə çevrilərək qapalı SC-lər tədricən ləğv edilə bilər.

***Korporativ idarəetmə məcəlləsinin qəbul edilməsi və korporativ idarəetmə haqqında biliklərin artırılması***

*Məcəllə praktiki rəhbərliyi təmin etməli və banklar üçün cari tələblər əsasında qurulmalıdır*

Banklar üçün mövcud qaydalara və İƏİT-in *Korporativ İdarəetmə Prinsiplərinə* əsaslanan Korporativ İdarəetmə Məcəlləsi qəbul olunmalıdır. Məcəllə, müşahidə şurasının vəzifə və funksiyalarını ətraflı müəyyən etməli, bütün səhmdarların eyni hüquqlara malik olmasını vurğulamalı və səhmdarların ümumi yığıncağı ilə bağlı təlimat verməli, açıqlamaların artırılmasını həvəsləndirməli və riskin idarə edilməsi üzrə səmərəli siyasətin qəbul edilməsinə gətirməlidir. Məcəllə ilə bağlı tövsiyələrin daha ətraflı siyahısı hazırkı bölmənin sonunda verilir.

*Korporativ idarəetmənin vacibliyi haqqında agahlığın artırılması*

Məcəllənin hazırlanması və dərc olunması yaxşı korporativ idarəetmənin vacibliyi haqqında agahlığın artırılması üçün böyük imkanlar verir. Məcəllə, Azərbaycanda müxtəlif tərəf müqabilləri ilə məsləhətləşməklə hazırlanmalıdır. Qlobal Korporativ İdarəetmə Forumunun "Qabaqcıl Təcrübə Məcəllələrinin Hazırlanması" modeli bu cür məsləhətləşmə prosesi üçün yaxşı modeldir. BMK-nin Azərbaycanda Korporativ İdarəetmə Layihəsi (AKİL) və Qlobal Korporativ İdarəetmə Forumu məcəllənin hazırlanmasını və, KİV-lər üçün korporativ idarəetmə ilə bağlı seminarların keçirilməsi kimi, onunla bağlı işləri dəstəkləmək üçün ciddi mövqeyə malikdirlər.

*Müşahidə şurası və idarə heyəti üzvləri üçün təlim imkanlarının artırılması*

Müşahidə şurası və idarə heyəti üzvlərinin müstəqilliyinin və obyektivliyinin artırılması şura və heyət üzvləri və şirkətlər üçün genişləndirilmiş təlimlərin keçirilməsini tələb edəcək. BMK-nin AKİL layihəsi və Qlobal Korporativ İdarəetmə Forumu müşahidə şurası və idarə heyəti üzvləri üçün təlimlərin dəstəklənməsində mühüm rol oynaya bilərlər. Ölkə daxilində korporativ idarəetmə institutunun yaradılması nəzərdən keçirilməlidir. Forum tərəfindən "Direktorların Təlimi üzrə Təşkilatların Quruculuğu" ilə bağlı hazırlanmış alətlər dəsti bu cür institutun yaradılması sahəsində faydalı məlumatlar təqdim edir.

### *Açıqlamaları təkmilləşdirməyə davam etmək*

*MHBS-ların icrası sahəsində səyləri artırmaq*

İctimai əhəmiyyətli qurumlarda və xarici investisiyalar qoyulmuş digər banklar və SC-lərdə MBHS-ların tətbiqi üzrə cari səylər davam etməli və mühasibat uçotunun ümumi keyfiyyətinin qaldırılması üçün artırılmalıdır. Bura daha ətraflı təlimlərin keçirilməsi və məlumatlandırma və şirkətlərin ştatında ixtisaslı mühasiblərin olmasının təmin edilməsini tələb edəcək.

*Açıqlama tələblərini daha sərt icra etmək*

Bu mühasibat uçotu və audit sahəsində daha ciddi nəzarəti tələb edəcək. QKDK SC-lərin, xüsusilə 100 və daha çox səhmdarı olan açıq səhmdar cəmiyyətlərinin qeydiyyat tələblərinə əməl etməsi və illik hesabatları dərc etməsinin təmin edilməsi sahəsində səylərini davam etməlidir. O, həmçinin, ictimai əhəmiyyət qurumu tərifinə cavab verən SC-lərin hesabatlarının seçimli əsasda nəzərdən keçirilməsi proqramını başlamalıdır.

Auditorlar Palatası, həmçinin, keyfiyyətin təmin edilməsində daha fəal rol oynamalı və audit standartlarına əməl olunmasınn yoxlanması sahəsində səylərini artırmalıdır. O, yerli firmalar və, eyni zamanda iri beynəlxalq auditorların affiliə edilmiş təşkilatları tərəfindən yüksək keyfiyyətli audit yoxlamalarının aparılmasının təmin edilməsi istiqamətində fəaliyyət göstərməlidir.

*Son sahibliyin açıqlanması tələbi*

Daha sərt icranın təmin edilməsinə şirkətlər tərəfindən sahibliyin açıqlanması ilə bağlı cari tələblər daxil olmalıdır. Bu iki hüquqi dəyişikliklə dəstəklənməlidir:

- Birbaşa və nəzarət sahibliyinin açıqlanmasını tələb etmək və həmin konsepsiyaları qanunvericilikdə müəyyən etmək;
- 10% sahiblik limitini keçmiş fərdi səhmdarlardan birbaşa və nəzarət sahibliyinin açıqlanmasını tələb etmək.

*Məlumatın ictimaiyyətə açıqlanması*

Həmçinin, təkmilləşdirilmiş icra, yeni məcəllə və hüquqi dəyişikliklər nəticəsində daha çox şirkət özləri barəsində məlumatları ictimaiyyətə açıqlamalıdır. Daha iri səhmdar cəmiyyətləri və banklar hesabatlarını internet səhifələrində dərc etməli və, onların BFB-nin internet səhifəsində yerləşdirilməsinə imkan yaratmalıdır.

Şirkətlər, həmçinin, qanunvericiliyin tələblərinə uyğun olaraq ciddi faktlar haqqında hesabat verməlidir və qaydalarda həmin məlumatların, misal üçün BFB-nin və ya QKDK-nin internet saytında yerləşdirilməsi vasitəsilə ictimaiyyətə təqdim edilməsini tələb etməlidir.

*Auditorların müstəqilliyinin artırılması*

Qanunvericilikdə auditorların müstəqilliyi ilə bağlı mövcud tələblər gücləndirilməlidir. Mülki Məcəllədən çıxarılmış müddəalar bərpa olunmalıdır (və ya şirkətlər haqqında yeni qanuna daxil edilməlidir) və səhmdarların ümumi yığıncağına auditorları seçmək hüququ verilməli və onların səhmdarlar və şirkət qarşısında cavabdeh olması təsdiq olunmalıdır.

Ağlabatan müddət sonra, misal üçün hər 5 ildən bir audit partnyorunun dəyişməsi tələb edilməlidir və audit firması tərəfindən görülmüş müxtəlif və bütün xidmətlərin haqqı səhmdarların ümumi yığıncağına və illik hesabatda açıqlanmalıdır. Gələcəkdə, audit firması tərəfindən auditlə bağlı olmayan işlərin görülməsinə əlavə məhdudiyyətlər qoyulmalıdır.

*Siqnalçıların müdafiə edilməsi*

Həm şirkət səviyyəsində, həm də milli qanunvericilikdə qanuni narahatlıq doğuran məsələləri müşahidə şurasına, və ya, məqsədəmüvafiq hallarda, tənzimləyici orqana və mətbuata çatdıran işçilərin müdafiəsi istiqamətində səylər görülməlidir. İşçilərdən narahatlıq doğuran ciddi məsələlər haqqında məlumatın alınması audit komitəsinin əsas vəzifəsi olmalıdır.

*2006-cı ilin Audit və Mühasibat Uçotu sahəsində SNƏH-in icrası*

2006-cı ilin Mühasibat Uçotu və Audit sahəsində SNƏH şəffaflığın və açıqlamaların artırılması ilə bağlı tövsiyələr vermişdir və QKDK, Palata və digər dövlət orqanları həmin tövsiyələri yerinə yetirməyə davam etməlidir.

### *Kapital bazarlarının çərçivəsinin genişləndirilməsi*

*Bazar infrastrukturunu modernləşdirmək və korporativ idarəetməni əhatə edən yeni listinq qaydalarının nəzərdən keçirilməsi*

İnvestorların tam müdafiəsi kapital bazarları infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və hüquqi bazanın genişləndirilməsini tələb edəcək. QKDK və BFB-nin hazırkı sahədə cari təşəbbüsləri üzrə iş irəliləməlidir və aşağıdakıların təmin edilməsinə cəhd edilməlidir:

- Hesablaşmanın ÖƏÇ (ödəniş əsasında çatdırılma) sisteminə keçməsi və t+3 və ya daha cəld olması;
- Birjada ticarətin məsrəfləri birjadankənar ticarətlə müqayisədə rəqabətlidir;
- Listinq qaydaları aydındır və aparıcı banklar və SC-lərin listinqinə əlverişli şərait yaradır.

Həmin dəyişiklikləri dəstəkləmək üçün QKDK bazardankənar ticarətə əlavə məhdudiyyətlərin qoyulmasını və BFB-nin idarə edilməsini, habelə MDM-in təkmilləşdirilməsi və onun BFB-də rolunun artırılması yollarını nəzərdən keçirməlidir.

BFB və QKDK həmçinin iki pilləli listinq rejiminin tətbiq edilməsi haqqında düşünməlidir. Aşağı pillədə ümumi açıqlama və digər tələblər olacaq, daha yüksək pillə isə daha sərt korporativ idarəetməni seçmək istəyən şirkətlər üçün nəzərdə tutulacaq. Bu, daha ciddi islahatlar aparmaq şirkətlər üçün bunu investorlara bildirməyə imkan verəcək, bu da, digər ölkələrin təcrübəsinə əsaslanaraq, səhmlərin qiymətlərinin və kapitala çıxışın artırılmasına zəmin yaradacaq.

*Bazarın konsolidasiyasına şərait yaratmaq*

Özəlləşdirmə nəticəsində yaranmış kiçik səhmdar cəmiyyətləri və kiçik səhmdarların iri miqdarını nəzərə alaraq, sahibliyin konsolidasiyası gələcəkdə bazarın inkişafının təbii hissəsi olacaq. Daha uzun müddət perspektivində, sahibliyin dəyişməsi haqqında qanun qəbul edilməlidir, hansı ki, nəzarətdə dəyişikliklərin edilməsi zamanı həmin əqdlərin şəffaflığının artırılması vasitəsilə səhmdarları müdafiə edəcək və şirkətə nəzarəti əldə etmək istəyənlərdən bütün səhmdarlara ədalətli qiymət təklif olunmaqla açıq tenderlərin keçirilməsini tələb edəcək. Səhmlərin 90% və ya 95%-dən çoxunu saxlayan səhmdardan ədalətli qiymətlə digər səhmdarlardan səhmləri almağa hüquq verən və ya tələb edən qaydalar həmçinin nəzərdən keçirilməlidir.

Əlavə olaraq, fəaliyyət göstərməyən SC-lər və digər qurumlar Reyestrdən çıxarılmalıdır.

*İnstitusional investorlar üçün hüquqi bazanın yaradılması*

Bazarın uzun müddətdə inkişafı institusional investorların rolunun artırılmasını, habelə həmin investorlar və digər peşəkar iştirakçılar üçün daha səmərəli hüquqi bazanı tələb edəcək. Həmin baza investorların və fondların idarə edilməsini əhatə etməli, benefisiarlara əsas müdafiəni təklif etməli və fondlar, brokerlər və digər tərəflərin iştirakı ilə maraqların toqquşması hallarını məhdudlaşdırmağa çalışmalıdır.

**Korporativ İdarəetmə Məcəlləsi: Ətraflı Tövsiyələr**

Korporativ idarəetmə məcəlləsi bütün ictimai əhəmiyyətli qurumlara, habelə 100 və daha çox səhmdarı olan səhmdar cəmiyyətlərinə şamil olunmalıdır. Həmin şirkətlərin müşahidə şuralarından səhmdarlara bu cür məcəlləyə əməl olunma haqqında hesabat verilməsi tələb olunmalıdır.

- Müşahidə şurasının vəzifə və funksiyaları həmin məcəllənin vacib hissəsidir. Məcəllə:
  - Müşahidə şurası üçün müstəqillik tələblərini müəyyən etməli.
  - Şuranın strateji istiqamətləndirmənin və idarəetmə nəzarətinin təmin edilməsində rolu ilə bağlı təlimat verməli
  - Şuranın seçilməsi və iclasların keçirilməsi prosedurları
  - Şura üzvlərinin sayı və xarakteristikası haqqında məsləhət verməli
  - Şura üzvlərinin vəzifələrinə əsaslanmalı və bütün səhmdarlara eyni yanaşılması, fidusiar qayğı və sadiqlik və səhmdarların qanuni maraqlarının nəzərə alınması öhdəliyini əhatə etməli
  - Şura üzvlərinə təlimlərin keçirilməsi və onların qiymətləndirilməsini həvəsləndirməli
  - Məcəlləyə riayət etmə haqqında müşahidə şurası tərəfindən hesabat verilməsini tələb etməli
  - Şuranın səmərəli strukturu və bacarıqlarını şərtləndirməlidir
- Məcəllə bütün səhmdarların hüquqlarının bərabərliyini təmin etməlidir. Bu məqsədlə, məcəllə:
  - Bütün səhmdarların ümumi yığıncaqda iştirak etmək hüququnu vurğulamalı və ümumi yığıncağın keçirilməsi haqqında bildirişin verilməsi ilə bağlı tələbləri müəyyən etməli
  - Şirkətlərə proporsional təmsilçiliyə və kumulyativ səsverməyə icazə verməyə məsləhət görməli
  - Bütün şura üzvlərini və kənar auditorun nümayəndəsini səhmdarların ümumi yığıncağında iştirak etməyə həvəsləndirməli
  - Şirkətlərə səhmdarların təsdiqini tələb edən əqdlərin dəyərləndirilməsi və təqdim edilməsi ilə bağlı məsləhət verməli
  - Etika məcəllələrinin qəbul edilməsini və siqnalçılarla bağlı siyasətin qəbul edilməsini ciddi tövsiyə etməli
- Məcəllə açıqlamaların artırılması üçün əsas alət ola bilər. Məcəllə:
  - Şirkətlərdən şirkətin internet səhifəsində və ya digər yerdə dərc edilməli illik hesabatların hazırlanmasını tələb etmək
  - İri şirkətlərdən MHBS-ların (daha kiçik firmalar üçün MMUS-lar tələb edilməlidir) və onların auditorlarından BAS-ın tətbiq edilməsini tələb etmək.
  - Şirkətləri faktiki mülkiyyət kimi bütün qeyri-maliyyə maddələrini, bütün əhəmiyyətli hadisələri açıqlamağa həvəsləndirməli və aidiyyəti şəxslərlə əqdlərin açıqlanması zərurətini vurğulamalıdır
- Məcəllə riskin idarə edilməsi üzrə səmərəli prosedurların qəbul edilməsini həvəsləndirməlidir. Məcəllə
  - Səmərəli daxili nəzarətin yaradılmasını həvəsləndirməli
  - Daxili audit departamenti ilə bağlı məlumat verməli və onun müşahidə şurasının audit komitəsinə hesabat verməsini tələb etməli
  - Şirkətlərə şirkətin ümumi maliyyə durumuna obyektiv qiymət verəcək nüfuzlu kənar auditoru cəlb etməyə məsləhət görməli
  - Audit komitəsi ilə bağlı əlavə istiqamətləndirmə vermək və onun maliyyə sahəsində bilik və təcrübəsi olan müstəqil üzvlərdən ibarət olmasını həvəsləndirməlidir.

# Əsas tövsiyələrin xülasəsi

| Tövsiyə | Tövsiyənin yerinə yetirilməsi | Prioritet / status |
|---|---|---|
| ***QKDK-nın və icranın gücləndirilməsi*** | | |
| QKDK-nın səlahiyyətlərini və cərimələri artırmaq | Müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi | Dərhal |
| QKDK tərəfindən ödənilən əmək haqlarını və ona ayrılan resursları artırmaq | Müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi / Donor yardımı | Orta müddətli |
| Daha çox bankda idarəetmənin təkmilləşdirilməsi | AMB-nin cari səyləri | Orta müddətli |
| ***Şirkətlərlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi*** | | |
| Müşahidə şurası və idarə heyətinin səlahiyyətləri və vəzifələrinin dəqiqləşdirilməsi | Şirkətlər haqqında yeni qanun və ya Mülki Məcəlləyə dəyişikliklərin edilməsi | Orta müddətli |
| Təftiş komissiyasının audit komitəsi ilə əvəz edilməsi | Şirkətlər haqqında yeni qanun və ya Mülki Məcəlləyə dəyişikliklərin edilməsi | Orta müddətli |
| Səhmdarların səlahiyyətlərinin dəqiqləşdirilməsi | Şirkətlər haqqında yeni qanun və ya Mülki Məcəlləyə dəyişikliklərin edilməsi | Orta müddətli |
| Səhmdarların ümumi yığıncaqda iştirakı hüquqlarının gücləndirilməsi | Şirkətlər haqqında yeni qanun və ya Mülki Məcəlləyə dəyişikliklərin edilməsi | Orta müddətli |
| Şirkətin qapalı səhmdar cəmiyyətinə və ya məhdud məsuliyyətli cəmiyyətə çevrilməsində müdafiə | Şirkətlər haqqında yeni qanun və ya Mülki Məcəlləyə dəyişikliklərin edilməsi | Orta müddətli |
| Kiçik müəssisələr üçün daha asan qaydalar | Şirkətlər haqqında yeni qanun və ya Mülki Məcəlləyə dəyişikliklərin edilməsi | Uzun müddətli |
| ***Korporativ idarəetmə məcəlləsinin qəbul edilməsi və məlumatlılığın artırılması*** | | |
| Kİ məcəlləsinin başa çatdırılması | Geniş məsləhətləşmə / Donor yardımı | Dərhal |
| Kİ haqqında məlumatlılığın artırılması | Donor yardımı | Orta müddətli |
| Müşahidə şurası və idarə heyəti üzvləri üçün təlimlərin artırılması | Cari səylər / Donor yardımı | Orta müddətli |
| Yerli Kİ institutunun yaradılması | Donor yardımı | Uzun müdətli |
| ***Açıqlamaların təkmilləşdirilməsi istiqamətində fəaliyyətin davam etdirilməsi*** | | |
| MHBS-ların icrasının sürətləndirilməsi | Cari səylər / Donor yardımı | Dərhal |
| İcranın artırılması | QKDK və Palata | Dərhal |
| Korporativ nəzarət üzrə açıqlamaların artırılması | Müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi<br>Sahibliyin dəyişməsi haqqında yeni qanun | Orta müddətli |
| Auditorlarla maraqların toqquşması hallarını məhdudlaşdırmaq | Müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi | Orta müddətli |
| İnformasiyanın onlayn yayılmasının artırılması | Yeni Məcəllə / Yeni qanunvericilik | Orta müddətli |
| Siqnalçıların formal müdafiəsi | Yeni Məcəllə / Siqnalçılar haqqında yeni qanun | Uzun müddətli |
| ***Kapital bazarları üçün çərçivənin genişləndirilməsi*** | | |
| Yeni listinq rejimi | Cari səylər / Donor yardımı | Dərhal |
| Yeni bazar infrastrukturu | Cari səylər / Donor yardımı | Orta müddətli |
| Bazarların cəmləşməsinə şəraitin yaradılması | Sahibliyin dəyişməsi haqqında yeni qanun | Uzun müddətli |
| İnstitusional investorlar üçün hüquqi baza | İnvestorlar haqqında yeni qanun | Uzun müddətli |

# 2005-ci ilin Korporativ İdarəetmə üzrə SNƏH-dən sonra irəliləyişlərin xülasəsi

Azərbaycan üzrə ilk Korporativ İdarəetmə SNƏH-i 2004-cü ildə keçiriləndən sonra, Azərbaycan korporativ idarəetmə çərçivəsinin təkmilləşdirilməsi ilə nəticələnən bir sıra hüquqi və tənzimləmə dəyişikliklərini həyata keçirib. Həmin dəyişikliklərin xülasəsi aşağıda verilir.

**HÜQUQİ DƏYİŞİKLİKLƏR**

**2007 Sığorta Fəaliyyəti haqqında Qanun**

- Bütün sığorta şirkətlərinin açıq səhmdar cəmiyyətləri olmasını tələb edir
- Sığorta şirkətlərindən həm direktorlar şurası, həm idarə heyətinin yaradılmasını (banklara oxşar olaraq) tələb etmk
- Sığorta şirkətinin müşahidə şuralarında təftiş komissiyalarının yaradılmasını tələb edir
- Direktorlar şurası və idarə heyətindən və digər əsas rəhbər əməkdaşlardan Maliyyə Nazirliyi tərəfindən keçirilən attestasiyadan keçməsini tələb edir
- Direktorlar Şurasında ən azı bir müstəqil üzvün olmasını tələb edir
- Əlaqəli şəxslərin əqdlərini və onların təsdiqi prosesini müəyyən edir

**2007 Daxili Audit haqqında Qanun**

- Şirkətlərdən Beynəlxalq Auditorlar İnstitutu tərəfindən müəyyən edilmiş qabaqcıl beynəlxalq təcrübəyə uyğun olan daxili audit funksiyasının yaradılmasını tələb edir.
- Bütün ictimai əhəmiyyətli qurumlarda audit komitələrinin yaradılmasını tələb edir.

**2008 Mülki Məcəlləyə Direktorların Fidusiar Vəzifələri ilə bağlı Dəyişikliklər**

- Müşahidə şurası və idarə heyətinin üzvləri üçün fidusiar vəzifələri müəyyən edir
- Müşahidə şurasının üzvlərinin şirkətə haqsız hərəkətlər nəticəsində vurulmuş zərərə görə məsuliyyətə cəlb oluna bilməsini müəyyən edir

**QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN QAYDALARINDA DƏYİŞİKLİKLƏR**

**2008 QKDK-nin Maraqlı şəxslərlə əqdlərin bağlanması və açıqlanması haqqında qaydaları**

- Əlaqəli şəxsləri və qaydaların şamil olunduğu şirkət növlərini müəyyən edir
- Əlaqəli şəxslərdən əqddə marağın təbiəti və həcmi haqqında müşahidə şurasının dərhal xəbərdar edilməsini tələb edir
- Əlaqəli şəxslərlə əqdin dəyərinin şirkətin aktivlərinin 5%-dən yuxarı olması halda onun səhmdarların ümumi yığıncağı tərəfindən təsdiq olunmasını tələb edir
- Şirkətlərdən dəyəri şirkətin aktivlərinin 5%-dən yuxarı olan əqdlər haqqında məlumatların əqdin bağlanmasından beş iş günü ərzində mətbuatda və şirkətin rəsmi internet səhifəsində açıqlanmasını tələb edir
- Əqdin prosedur tələbləri pozmaqla bağlanması nəticəsində şirkətə vurulmuş zərərə görə əlaqəli şəxslərin məsuliyyətə cəlb oluna bilməsini tələb edir.

# İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinin yerinə yetirilməsinin xülasəsi

| Ölkələr | Yerinə yetirilib | Əsasən yerinə yetirilib | Qismən / əsasən yerinə yetirilməyib | Yerinə yetirilməyib |
|---|---|---|---|---|
| **Azərbaycan (2009)*** | **0** | **2** | **21** | **9** |
| **Azərbaycan (2005)** | **0** | **0** | **25** | **7** |
| Ermənistan (2005) | 1 | 1 | 29 | 1 |
| Bosniya və Herzeqovina (2006) | 0 | 4 | 28 | 0 |
| Bolqaristan (2008)* | 3 | 13 | 15 | 1 |
| Xorvatiya (2008)* | 2 | 10 | 19 | 1 |
| Makedoniya (2005) | 0 | 9 | 22 | 1 |
| Polşa (2005) | 7 | 12 | 12 | 1 |
| Ukrayna (2006) | 0 | 1 | 28 | 3 |
| **AMa regionu üzrə orta hesabla ECA (05-09)** | **1.4** | **5. 8** | **22.2** | **2. 6** |

*hazırkı SNƏH-də reytiqlər müqayisə məqsədilə 2008-ci ildən əvvəl istifadə edilmiş formata çevrilmişdir.

| | Prinsip | TYY | ƏYY | QYY | YY | AD |
|---|---|---|---|---|---|---|
| **I. SƏMƏRƏLİ KORPORATİV İDARƏETMƏ ÇƏRÇİVƏSİ ÜÇÜN BAZANIN TƏMİN EDİLMƏSİ** | | | | | | |
| IA | Ümumi korporativ idarəetmə çərçivəsi | | | X | | |
| IB | Hüquqi çərçivə icra olunan / şəffafdır | | | X | | |
| IC | Tənzimləmə vəzifələrinin dəqiq bölgüsü | | X | | | |
| ID | Tənzimləmə orqanı, düzgünlük, resurslar | | | X | | |
| **II. SƏHMDARLARIN HÜQUQLARI VƏ ƏSAS SAHİBLİK FUNKSİYALARI** | | | | | | |
| IIA | Səhmdarların əsas hüquqları | | | | | |
| IIA 1 | Sahibliyin qeydiyyata alınmasının etibarlı metodları | | | X | | |
| IIA 2 | Səhmlərin köçürülməsi və ya ötürülməsi | | | X | | |
| IIA 3 | Şirkətlə bağlı aidiyyəti və mühüm məlumatların alınması | | | X | | |
| IIA 4 | Səhmdarların ümumi yığıncağında iştirak və səsvermə | | | X | | |
| IIA 5 | Müşahidə şurası üzvlərinin seçilməsi və vəzifədən azad edilməsi | | X | | | |
| IIA 6 | Şirkətin mənfəətlərində pay | | | X | | |
| IIB | Fundamental qərarların verilməsində iştirak etmək hüququ | | | | | |
| IIB I | Nizamnaməyə dəyişikliklər | | X | | | |
| IIB 2 | Əlavə səhmlərin təsdiqi | | | X | | |
| IIB 3 | Xüsusi əqdlər, o cümlədən şirkətin iri aktivlərinin satılması | | X | | | |
| IIC | Səhmdarların ümumi yığıncaqla bağlı hüquqları | | | | | |
| IIC 1 | Ümumi yığıncaqda yetərli məlumatların vaxtında alınması | | | X | | |
| IIC 2 | Ümumi yığıncaqda müşahidə şurasına sual vermək imkanı | | | X | | |
| IIC 3 | İdarəetmə ilə bağlı qərarların verilməsində səhmdarların səmərəli iştirak etməsi | | | X | | |
| IIC 4 | Yığıncaqda şəxsən və qiyabi səs vermək imkanı | | | X | | |
| IID | Qeyri-proporsional nəzarətlə bağlı açıqlama | | | | X | |
| IIE | Nəzarət mexanizmi işləyə bilir | | | | | |
| IIE 1 | Korporativ nəzarətin əldə edilməsini tənzimləyən qaydaların şəffaflığı və ədalətliliyi | | | | X | |
| IIE 2 | Sahibliyin dəyişməsinə qarşı alətlər | | | | X | |
| IIF | Sahiblik hüquqlarının icrası dəstəklənir | | | | | |
| IIF 1 | İnstitusional investorlar tərəfindən korporativ idarəetmə və səsvermə siyasətlərinin açıqlanması | | | | X | |
| IIF 2 | İnstitusional investorlar tərəfindən maraqların toqquşmasının idarə edilməsinin açıqlanması | | | | X | |
| IIG | Səhmdarlara bir biri ilə məsləhətləşmək hüququ verilir | | | X | | |
| **III. SƏHMDARLARA ƏDALƏTLİ YANAŞMA** | | | | | | |
| IIIA | Bütün səhmdarlara ədalətli yanaşılmalıdır | | | | | |
| IIIA 1 | Səhm kateqoriyaları daxilində və arasında ədalətlilik və hüquqların açıqlanması | | X | | | |
| IIIA 2 | Minoritar səhmdarların nəzarət payını saxlayan səhmdarlar tərəfindən hüquqlarının pozulmasından müdafiəsi; minoritar səhmdarlara kompensasiyaların ödənilməsi | | | X | | |

| | Prinsip | TYY | ƏYY | QYY | YY | AD |
|---|---|---|---|---|---|---|
| IIIA 3 | Faktiki sahiblərin göstərişi əsasında qəyyumların səsverməsi | | | X | | |
| IIIA 4 | Sərhədlərarası səsvermə ilə bağlı maneələr aradan qaldırılmalıdıır | | X | | | |
| IIIA 5 | Ümumi yığıncaqda bütün səhmdarlara ədalətli yanaşma | | | X | | |
| IIIB | İnsayderlərin alqı-satqı əqdlərinə qadağa qoyulması | | | X | | |
| IIIC | Müşahidə şurası və idarə heyəti /rəhbər əməkdaşlar maraqlarını açıqlamalı | | | X | | |
| **IV. TƏRƏF MÜQABİLLƏRİNİN KORPORATİV İDARƏETMƏDƏ ROLU** | | | | | | |
| IVA | Tərəf müqabillərinin hüquqları yerinə yetirilir | | | X | | |
| IVB | Hüquqların pozulmasına görə kompensasiyaların ödənilməsi | | | X | | |
| IVC | Səmərəliliyin artırılması mexanizmləri | | | X | | |
| IVD | İnformasiyaya çıxış | | | | X | |
| IVE | Siqnalçıların müdafiəsi | | | | X | |
| IVF | Kreditor hüquqları ilə bağlı qanunvericilik və onun icrası | | | X | | |
| **V. AÇIQLAMA VƏ ŞƏFFAFLIQ** | | | | | | |
| VA | Açıqlama standartları | | | | | |
| VA 1 | Şirkətin maliyyə və əməliyyat nəticələri | | | X | | |
| VA 2 | Şirkətin məqsədləri | | | | X | |
| VA 3 | Majoritar səhmlər və səsvermə hüquqları | | | | X | |
| VA 4 | Müşahidə şurası və idarə heyətinin üzvləri və əsas rəhbər əməkdaşlar mükafatlandırılması siyasəti | | | X | | |
| VA 5 | Maraqlı şəxslərin əqdləri | | | X | | |
| VA 6 | Proqnozlaşdırıla bilən risk amilləri | | | X | | |
| VA 7 | İşçilər və digər tərəf müqabillərinə aid məsələlər | | | | X | |
| VA 8 | İdarəetmə struktur və siyasəti | | | | X | |
| VB | Mühasibat uçotu və audit standartları | | | X | | |
| VC | Müstəqil audit yoxlamalarının hər il keçirilməsi | | | X | | |
| VD | Kənar auditorların hesabatlılığı təmin edilməlidir | | | | X | |
| VE | Məlumatın ədalətli və vaxtında yayılması | | | | X | |
| VF | Maraqların toqquşması hallarının araşdırılması | | | | X | |
| **VI. ŞURANIN VƏZIFƏLƏRI** | | | | | | |
| VIA | Vicdanla və qayğı ilə hərəkət etmək | | | X | | |
| VIB | Bütün səhmdarlara ədalətli yanaşmaq | | | X | | |
| VIC | Yüksək əxlaq standartlarına riayət etmək | | | X | | |
| VID | Şura müəyyən əsas funksiyaları yerinə yetirilməlidir | | | | | |
| VID 1 | Şura ümumi korporativ strategiyaya və əsas qərarların verilməsinə nəzarət edir | | | X | | |
| VID 2 | Şirkətin idarəetmə təcrübəsinin səmərəliliyinin monitorinqi | | | | X | |
| VID 3 | Əsas icraçı rəhbər əməkdaşların seçilməsi, əmək haqlarının ödənilməsi, monitorinqi, əvəz edilməsi | | | | X | |
| VID 4 | Vəzifəli şəxslərin və şura üzvlərinin əmək haqlarının uyğunlaşdırılması | | | | X | |
| VID 5 | Şura üzvlərinin təyin edilməsi / seçilməsi prosesinin şəffaflığı | | | | X | |
| VID 6 | İnsayderlər arasında maraqların toqquşmasına nəzarət | | | X | | |
| VID 7 | Mühasibat uçotu və maliyyə hesabatları sisteminə nəzarət | | | X | | |
| VID 8 | Açıqlama və kommunikasiya prosesinə nəzarət | | | | X | |
| VIE | Obyektiv mühakimənin tətbiq edilməsi | | | | | |
| VIE 1 | Müstəqil mühakimə | | | X | | |
| VIE 2 | Şuranın komitələri ilə bağlı aydın və şəffaf qaydalar | | | | X | |
| VIE 3 | Şuranın və idarə heyətinin öz vəzifələrinə sadiqliyi | | | X | | |
| VIF | Məlumatlara çıxış | | | X | | |

*Qeyd: TYY=Tam yerinə yetirilir; ƏYY=Əsasən yerinə yetirilir; QYYI=Qismən yerinə yetirilir; YY=yerinə yetirilmir; AD=aid deyil*

## KORPORATİIV İDARƏETMƏ HAQQINDA ÜMUMİ MƏLUMAT

### KAPİTAL BAZARLARI

Azərbaycanın kapital bazarı inkişafın erkən mərhələsindədir. Bakı Fond Birjasında (BFB) səhmləri ticarət olunan şirkətlər yoxdur. Səhmdarların sayı 100-cən çox olan 234 şirkətin səhmləri kotirovka vərəqəsinə daxildir və qanuna əsasən fond birjasında alınıb-satıla bilər.[7] Əqdlərin əksəriyyəti birjadankənar bazarda və əsasən notariuslar tərəfindən təsdiq olunan alqı-satqı müqavilələrin bağlanması vasitəsilə həyata keçirilir. BFB-ə uyğun olaraq, 2008-ci ildə birjanın tarixində ilk olaraq bijrada bağlanmış əqdlərin sayı birjadankənar bağlanmış əqdləri ötmüşdür. Alqı-satqı fəallığı hələ də aşağı olsa da, o, ildə 50-100 əqd bağlanan 2001-2002-ci illərlə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. BFB-də 2008-ci ildə ümumi dövriyyə 10 milyard təşkil etmişdir, bu da əvvəlki ilin göstəricisindən iki dəfə artıqdır. Rəqəmi 2004-cü ildə 113 milyon dollar təşkil edən ticarətin həcmi ilə müqayisə etmək olar. 2009-cu ilin birinci rübündə, BFB-də bağlanan bütün əqdlərin 94% dövlət qiymətli kağızlarının payına düşmüşdür. Səhmləri ticarət olunan şirkətlərin olmamasını, dövriyyənin aşağı olması və iri və qeyri-şəffaf birjadankənar ticarəti nəzərə alaraq, BFB üçün bazarın kapitallaşması rəqəmləri əsasən mənasızdır. 2009-cu ilin aprel ayından başlayaraq doqquz şirkətin istiqrazları ticarət olunurdu. Lisenziya əsasında fəaliyyət göstərən 12 broker / diler var.

Bir çox şirkətin səhmləri mütəmadi əsasda ticarət olunmur. BMK tərəfindən 2007-ci ildə aparılmış sorğuda iştirak etmiş şirkətlərin yalnız yeddisi (7%) səhmlərin ticarət olunmasını bildirmişdir. Övvəlki ildə, sorğuda iştirak etmiş əlli yedi şirkətin səhmləri (57%) təkrar bazarda tədavüldə olmayıb və otuz altı (36%) respondent onların şirkətlərinin səhmlərinin təkrar bazarda ticarət olması haqqında məlumatlı deyildi.

### SAHİBLİK ÇƏRÇİVƏSİ

SC-lərin əksəriyyəti işçilərin 15% həcmində iştirakı ilə özəlləşdirmə nəticəsində yaradılmışdır. Özəlləşdirmədən sonra, sahibliyin cəmləşməsi tədricən artıb, çünki maliyyə çətinliklərini çəkən işçilər özəlləşdirmə paylarını bazarın və likvidliyin çatışmazlığı səbəbindən nəzarət edən səhmdarlara süni azaldılmış qiymətlərlə satmışdır. Əsas sahiblərin yerli biznes liderləri və, həmçinin, bir neçə institusional investordan ibarət olmalıdır. Dövlət iri sahib olaraq qalır. Portfel investisiyaları sahəsində və bank sektorunda xarici şəxslərin sahibliyi ilə bağlı məhdudiyyətlər bu yaxınlarda aradan qaldırılmışdır.

Sahibliyin cəmləşməsi 2007-ci ildə BMK tərəfindən aparılmış sorğuda təsdiq olunmuşdur. Sorğuda iştirak etmiş şirkətlərin səksən birində (81%), bir səhmdar nəzarət payına malik idi. Daha konkret olaraq, əlli altı şirkətdə (56%) tək səhmdar səhmlərin 66.7%-dən artıq payına malik idi və iyirmi beşində (25%) tək səhmdar şirkətin 50.0%-66.7% səhmlərinə malik idi.

Ümumiyyətlə, nəzarət payı bir səhmdara məxsus olmayan bir neçə şirkətdə kiçik sayda səhmdarlar şirkətin nəzarət payına malik idi. Sorğuda iştirak etmiş şirkətlərin əksəriyyətində (76%) minoritar (səhmlərin 2% və daha kiçik payına sahil olan) səhmdarlar var idi. Sorğunun seçməsində yüksək dərəcədə cəmləşmiş sahibliyin bir istisna halı var idi. Həmin şirkətdə, bütün səhmdarlar səhmlərin 2.0% və ya daha aşağı payına malik idi.

Azərbaycanda 2007-cii ildə keçirilmiş korporativ idarəetmə sorğusunda[8], həmçinin, sorğuda iştirak etmiş şirkətlərdə sahibliyin idarəetmədən az ayrılması müəyyən edilib. Sorğuda iştirak etmiş bütün şirkətlərdə idarə heyəti və müşahidə şurasının üzvləri cəmi səhmlərin 55%-nə malik idi. Sorğuda iştirak etmiş bir çox şirkətdə, majoritar səhmdarlar, həmçinin, idarəetmədə (36%) və müşahidə şurasının üzvləri (31%) qismində iştirak etmişdir. Xarici investorlar sorğuda iştirak etmiş doqquş şirkətin səhmlərinə malikdir, bu da respondentlərin 99%-nin ümumi nizamnamə kapitalının yalnız 4%-ni təşkil edir. Sorğunun nəticələri göstərmişdir ki, şirkət bir şəxs tərəfindən idarə olunan on beş şirkətdən beşində baş direktorat şirkətin 20%-dən artıq səhmlərinə malik idi. Bu, Mülki Məcəllənin şirkətin səhmdar kapitalının 20%-dən artıq hissəsinə sahib olan səhmdarın həmin şirkətin icra orqanının üzv olmasını qadağan edən tələbini pozur.[9]

Sorğu nəticəsində aşkar olunub ki, bank olmayan SC-lərdə sahiblik bank sektoru kimi ailə əlaqələri vasitəsilə o qədər də təmərküzləşmiş deyil.[17] Yetmiş yeddi respondent (77%) bildirmişdir ki, onların majoritar və ya nəzarət edən səhmdarların bir biri ilə qohum əlaqələri yoxdur. Bundan əlavə, səksən respondent (80%) bildirmişdir ki, nəzarət edən səhmdarların müşahidə şurası və ya şirkətin rəhbərliyində qohumları yoxdur. On beş şirkətdə (15%) majoritar səhmdarların bir biri ilə qohumluq əlaqəsi var idi. Səkkiz şirkətdə (8%) majoritar səhmdarlar digər şirkətlərdə partnyorluq vasitəsilə əlaqəli idi.

***İnstitusional investorlar:*** Portfel investisiya fondları və özəl pensiya fondları mövcud deyil.[10] Şirkətlərə nadir hallarda investisiya qoyan və ya hətta heç investisiya qoymayan 46 bank və 30 sığorta şirkəti fəaliyyət göstərir.[11] Bankların və sığorta şirkətlərinin mühüm hissəsi sənaye-maliyyə qruplarına aiddir və əsasən qrup daxilində fəaliyyət göstərir və investisiya qoyur. Bazarda 2009-cu ilin aprel ayından başlayaraq bir xarici institusional investor fəaliyyət göstərir.

2006-ci ildə, hökumət qeyri-neft sektorunda fəaliyyət göstərən şirkətlərə investisiyaların qoyulması məqsədilə Azərbaycan İnvestisiya Şirkətini (AİŞ) yaratmışdır. AİŞ investisiya qərarlarını verəndə korporativ idarəetmə amillərini nəzərə alır. Xəzər Beynəlxalq İnvestisiya Şirkəti" AİŞ-in Şəriət qanununa əsasən fəaliyyət göstərən müəssisələrə investisiyaların qoyulması

7 Konkret müəyyən olunmuş kontragentlə birbaşa razılaşdırılmış və notarius vasitəsilə təsdiq olunan əqdlər istisna olmaqla.

8 Azərbaycanda Şirkətlərdə Korporativ İdarəetmə Sorğusu, p.16.

9 Sorğu, p.17

10 1997-ci ildə keçirilmiş özəlləşdirmənin həm yerli, həm xarici investisiya fondları ilə təcrübəsi mənfi idi, nəticə isə fondların bağlanması və ya bazardan çıxmasından ibarət olmuşdur.

11 Qanuna əsasən banklar səhmlərin 10%-nə qədər kapitalda yerləşdirə bilərlər. 2007-ci ildə qəbul olunmuş sığorta fəaliyyəti haqqında yeni qanunda həmin tələb irəli sürülmür.

məqsədilə yaradılmış törəmə qurumudur, lakin hələ ki, heç bir investisiya qoymayıb. “Kazimir Partners” Azərbaycanın iki bankına investisiya qoymuş özəl investisiya şirkətidir.

| Azərbaycan İnvestisiya Şirkəti (AİŞ): Cari İnvestisiya Layihələri | | | |
|---|---|---|---|
| **Şirkətin adı** | **Sektor** | **İnvestisiya məbləği** | **Digər investorlar** |
| Milk-pro | Kənd təsərrüfatı (süd emalı) | 4.6 milyard manat | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| Qaradağ Sement | Sement istehsalı / tikinti | 13.7 milyon avro (10% həcmində iştirak payı) | Avropa Yenidənqurma və İnkişaf Bankı, Holcim Qrup (tikinti xidmətlərini göstərən firma) |
| Azərsun | Duz istehsalı | 1.9 milyon manat (25% iştirak payı) | Hal-hazırda danışıqlar aparılır |
| Səngəçal və Qaradağ Neft və Qaz Terminalı | Neft tankerləri üçün erinarl | 7.6 milyon manat (25% iştirak payı) | |
| Dəvəçi Broyler | Kənd təsərrüfatı | 12 milyon manat (25% iştirak payı) | |
| Xəzər Beynəlxalq İnvestisiya Şirkəti | Şəriət (İslam) qanunu ilə qadağan olunan fəaliyyətlər istisna olmaqla, Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrə investisiya qoyan şirkət | 14 milyon ABŞ dolları (20% iştirak payı) | Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası |
| Küveyt-Azərbaycan İnvestisiya Şirkəti | Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna investisiyaların qoyulması sahəsində fəaliyyət göstərən şirkət | 5 milyon ABŞ dolları (25% iştirak payp) | Küvəyt Maliyyə Evi, törəmə şirkəti Türkkapital |

* AIŞ-in internet səhifəsindən (ww.aic.az) AIŞ-in portfeli haqqında məlumat

## Hüquqi çərçivə

***Korporativ hüquqi çərçivə.*** SC-ləri tənzimləyən əsas qanunlar Mülki Məcəllənin səhmdar cəmiyyətləri haqqında 98-108-ci maddələri və Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında Qanundur.

***Şirkət növləri.*** Təxminən 1700 açıq SC və 200 qapalı SC fəaliyyət göstərir. Onlardan yalnız təxminən iki yüzün il ərzində səhmləri ticarət oluna bilər. Yalnız açıq səhmdar cəmiyyətləri səhmləri buraxa, səhmlərə açıq yazıla və səhmləri sərbəst alıb-sata bilər (Mülki Məcəllə, 98.2, 99.1). 100 və daha çox səhmdarı olan şirkətlərin səhmləri yalnız birja vasitəsilə ticarət oluna bilər və onlara notarius vasitəsilə birbaşa əqdlərin bağlanması qadağan olunur. Lakin qanun hətta məhdud məsuliyyətli cəmiyyətlərə birjada ticarət olunan istiqrazları buraxmağı qadağan etmir.[12] Hal-hazırda, birjada ticarət aparan məhdud məsuliyyətli cəmiyyətlər yoxdur, lakin iki qapalı SC istiqrazları təklif edir. Bütün SC-lərə QKDK nəzarət edir. Digər şirkət növlərinə nəzarətin həyata keçirilməsi heç bir quruma konkret tapşırılmayıb. Açıq SC-lər (banklar istisna olmaqla) üçün nizamnamə kapitalının minimal həddi 4.000 manat (təxminən 5.000 ABŞ dolları), qapalı SC-lər üçün isə 2.000 manat (təxminən 2.500 ABŞ dolları) təşkil edir.[13] Qapalı səhmdar cəmiyyətləri səhmlərin sərbəst ötürülməsini məhdudlaşdıra bilər, səhmləri açıq buraxa bilməz və səhmdarlarının sayı 50-dən çox olmamalıdır. (Mülki Məcəllə, §100). Banklar açıq SC-lər formasında təşkil olunmalıdır.

***Qiymətli kağızlarla bağlı hüquqi çərçivə.*** Mülki Məcəllənin 987-997 və 1078 maddələri qiymətli kağızlar bazarını və qiymətli kağızların ticarətini tənzimləyir. Əlavə olaraq, 2000-ci ildə qəbul olunmuş (2002-ci ildə yenidən baxılmış) Qiymətli Kağızlar Bazarında İnvestorların Hüquqlarının Müdafiəsi haqqında Qanun və QKDK-nin qaydaları qiymətli kağızlar sahəsində hüquqi çərçivənin yaradılmasında faydalı olmuşdur.[14] BFB və MDM-in qaydaları, və, həmçinin, səhmlərin dövlət reyestri haqqında qaydalar, fond birjası, depozitar və reyestr xidmətləri üçün çərçivəni təmin edir.

***Listinq qaydaları.*** BFB-nin listinq və ticarətin aparılması qaydaları fond birjasnıda əməliyyatları tənzimləyir.[15] BFB-nin ticarət departamenti listinq və ticarət qaydalarının icrası üçün cavabdehdir. BFB şirkətləri kotirovka vərəqəsindən çıxara və ya ticarəti dayandıra bilər, lakin cərimələr tətbiq edə bilmir. Kotirovka vərəqələrinin iki səviyyəsi var. İstənilən hüquqi şəxs BFB-nin ikinci səviyyəli kotirovka vərəqəsində qiymətli kağızlar buraxa bilər. Birinci səviyyə üçün qaydalara SNƏH-in başa

12 Təxminən 8000 məhdud məsuliyyətli cəmiyyət var.

13 Azərbaycan Hökumətinin 224 nömrəli qərarı, 23 dekabr 2000.

14 Korporativ idarəetmə nöqteyi-nəzərdən QKDK-nin aşağıdakı qaydalarını qeyd etmək lazımdır :

- QKDK-nin investisiya qiymətli kağızlarının emitentləri tərəfindən illik hesabatların hazırlanması və açıqlanması qaydaları 2004,
- QKDK-nin Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyalarının qarşısının alınması qaydaları 2004,
- Qiymətli kağızlar bazarında xidməti məlumatın saxlanması. istifadəsi və verilməsi qaydaları 2004,
- QKDK-nin səhmdar cəmiyyətinin nizamnamə kapitalının artırılması zamanı səhmlərin emissiyası qaydaları 2004,
- QKDK-nin Səhmlərin geri satın alınması və ödənilməsi yolu ilə səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması qaydaları 2004.

15 Konkret olaraq onlar aşağıdakılardır: BFB-də üzlvük haqqında qaydalar, BFB-nin qiymətli kağızın hərraca buraxılması qaydaları, BFB-nin klirinq və hesablaşma qaydaları və listinq və delistinq qaydaları.

çatdırılması zamanı yenidən baxılmışdır. 2009-cu ilin sentyabr ayından başlayaraq, həmin səviyyənin listinqinə şirkətlər daxil olmayıb.

***Məcəllələr.*** Səhmdar cəmiyyətləri üçün korporativ idarəetmə məcəlləsi hal-hazırda hazırlanmaqdadır. İqtisadi İnkişaf Nazirliyinin rəhbərliyi altında işçi qrupu məcəlləni hazırlamağa başlayıb və sənədin yekun variantı 2009-cu ilin sonuna qədər hazır olmalıdır. AMB 2004-ü ildə banklarda korporativ idarəetmə qaydalarını təsdiq etmişdir.[16] Azərbaycan Bank Tədris Mərkəzi bank inzibatçıları üçün dəyərli məlumatlandırma və təlim xidmətlərini göstərmişdir. Beynəlxalq donorlar korporativ idarəetmə və onunla bağlı sahələrdə bir sıra təlim və texniki yardım layihələrini fəal dəstəkləmişdir. BMK-nin şirkətlərdə və müşahidə şuralarında iştirakını, KFW və USAID tərəfindən banklarda korporativ idarəetmə standartlarının yaradılması və tətbiqi sahəsində görülən işi və müvafiq təlim və icranın təmin edilməsini, BMK və digər donorların BFB və AMB ilə qanunvericilik təşəbbüsləri, misal üçün AMB-nin audit qaydaları üzrə gördüyü işi misal gətirmək olar.

***Nizamnamələr.*** Bəzi mühüm müddəalar bir qayda olaraq şirkətlərin nizamnamələrinə daxil olunur. Misal üçün, sorğuda iştirak etmiş şirkətlərin 82% nizamnamələrinə idarə heyəti və onun sədri arasında vəzifə və səlahiyyətlərin bölgüsü və ya baş direktorun vəzifələrinin müəyyən edilməsi kimi mühüm müddəaları daxil etmişdir. Yetmiş üç (73%) şirkətin nizamnamələrinə səhmdarların hüquqları ilə bağlı ümumi prinsiplər daxil olunmuşdur və altmış yeddi şirkətin (67%) səhmdarların ümumi yığıncağı bağlı prosedurları var idi. Əlavə olaraq, qırx iki (42%) şirkətin nizamnamələrinə sahibliyin dəyişməsi və ya şirkətin digər şirkətlə birləşməsi halında minoritar səhmdarlara qarşı yanaşma ilə bağlı müddəalar daxil olmuşdur. Digər tərəfdən, sorğuda iştirak etmiş şirkətlərin yalnız on səkkizi (18%) nizamnamələrinə müşahidə şuralarına müstəqil üzvlərin təyin edilməsi ilə bağlı müddəalar daxil etmişdir. Qeyd etmək lazımdır ki, həm qanun həm də yaxşı korporativ idarəetmə təcrübəsi səhmlərin ötürülməsinə hər hansı məhdudiyyətlərin qoyulmasını qadağan etsə də, sorğuda iştirak etmiş şirkətlərin on dördü (14%) nizamnamələrinə həmin məhdudiyyətləri daxil etmişdir. Müəyyən mühüm müddəalar bir qayda olaraq şirkətlərin nizamnamələrinə daxil olmuşdur.

## TƏNZİMLƏMƏ ÇƏRÇİVƏSİ

***Qiymətli kağızların tənzimləyicisi.*** QKDK qiymətli kağızları və qiymətli kağızlar bazarını tənzimləyir və onun vəzifələrinə dövlət qanunvericiliyinin icrası, qaydaların hazırlanması və tətbiq edilməsi, BFB, MDM, emitentlər və digər bazar iştirakçılarının fəaliyyətinə nəzarət, peşəkar bazar iştirakçılarına və investisiya fondlarına lisenziyaların verilməsi daxildir. QKDK dövlət büdcəsindən maliyyələşdirilir.[17] QKDK təlimat və qaydaları qəbul edə edə bilər və onları ictimaiyyətə açıqlayır. QKDK SC-lərlə və, eyni zamanda qiymətli kağızlar bağlı bütün kommersiya qanunvericiliyinin icrası üçün məsuliyyət daşıyır.

***Fond birjası.*** BFB 2000-ci ildə əsasən brokerlərdən ibarət 18 sahibi olan qapalı SC formasında yaradılmışdır. BFB-ə QKDK nəzarət edir.[18] BFB qiymətli kağızları depozitarı qismində fəaliyyət göstərər və klirinq və hesablaşma xidmətlərini göstərə yeganə təşkilatdır.

***Mərkəzi depozitar.*** Milli Depozit Mərkəzi (MDM) depozitar qismində fəaliyyət göstərir və səhmlərin sahiblərinin reyestrsaxlayıcısı qismində fəaliyyət göstərə bilər. 2009-cu ildə 2000-dən çox şirkət MDM-dən reyestrsaxlayıcı kimi istifadə edib və qanuna əsasən MDM-dən istifadə etməli təxminən 300 SC istifadə etmir.

***Bank və digər tənzimləyiciləri.*** Banklar və kredit təşkilatları Azərbaycanın Mərkəzi Bankı tərəfindən və sığorta şirkətləri Maliyyə Nazirliyi tərəfindən tənzimlənir.

***Şirkətlərin reyestri.*** 2007-ci ildə hüquqi şəxslərin dövlət reyestrinin aparılması Ədliyyə Nazirliyindən Vergilər Nazirliyinə verilmişdir. Vergilər Nazirliyi 70 000-dən çox qurumun daxil edildiyi reyestri aparır. SC-lər nizamnamələrini, şura üzvlərinin ilkin siyahısını və səhmdarların payları haqqında məlumatları qeydiyyat üçün Vergilər Nazirliyinə təqdim etməlidir. Nəzəri olaraq, şirkətlər həmin tələblərin yerinə yetirilməməsinə görə reyestrdən çıxarıla bilərlər.[19]2005-ci ildə aparılmış SMƏH-dən keçən müddət ərzində Reyestr öz sənədləşdirmə sistemini kompüterləşdirməyə başlamışdır və ondan istifadə imkanlarını təkmilləşdirmək üzərində çalışır. Lakin SC-lərin əksəriyyəti barədə məlumatları almaq çətin olaraq alır və Reyestr bütün informasiyanın dəqiq sənədləşdirilməsinin təmin edilməsi sahəsində məhdud imkanlara malikdir.

***Məhkəmə.*** Məhkəmələr Mülki və iqtisad məhkəmələrinə bölünür. İqtisadi Məhkəmə yalnız hüquqi şəxslər arasında mübahisələri həll edir; tərəflərin biri fiziki şəxs olduqda (hər hansı müəssisəni təmsil etməyən), işin obyekti qiymətli kağızlar olduğu halda belə, iş ümumi instansiya məhkəmələrinə verilir (Mülki-Prosessual Məcəlləsi, §25, 26). Şirkətlər və qiymətli kağızlarla bağlı mübahisələrdə məhkəmələrə nadir hallarda müraciət olunur. Məhkəmələrin şirkətlər və qiymətli kağızlarla bağlı məsələlər üzrə təlimi də məhduddur, amma bu sahədə vəziyyəti yaxşılaşdırmaq üçün Avropa Birliyinin yardımı planlaşdırılır.

16 AMB-nin Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları.

17 QKDK-nin Əsasnaməsi, §8, 9; QKDK-nin fəaliyyətinin təmin edilməsi haqqında fərman SCS, §4.

18 QKDK-nin Əsasnaməsi, §11.5; Mülki Məcəllə, §1078-35

19 Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında Qanun, 2003, §5, 6, 7, 8; Mülki Məcəllə, §130, 134.

# Korporativ idarəetmə prinsiplərinin bir-bir nəzərdən keçirilməsi

Hazırkı bölmədə İƏİT-nin hər bir Korporativ İdarəetmə Prinsipinin yerinə yetirilməsi qiymətləndirilir. Tam məlumat üçün İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinin İcrasının Qiymətləndirilməsi Metodologiyasına baxın.[20]

**HİSSƏ I: SƏMƏRƏLİ KORPORATİV İDARƏETMƏ ÇƏRÇİVƏSİ ÜÇÜN BAZANIN TƏMİN EDİLMƏSİ**

**Korporativ idarəetmə çərçivəsi şəffaf və səmərəli bazarları dəstəkləməli, qanuna uyğun olmalı və müxtəlif nəzarət, tənzimləmə və icra orqanları arasında vəzifələrin bölgüsünü dəqiq müəyyən etməlidir.**

**Prinsip IA: Korporativ idarəetmə çərçivəsi onun iqtisadiyyatın ümumi durumuna və bazarın tamlığına göstərdiyi təsiri, bazar iştirakçıları üçün yaratdığı stimulları və şəffaf və səmərəli bazarların dəstəklənməsi nəzərə alınmaqla yaradılmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Son illər ərzində banklar, şirkətlər və kapital bazarlarının hüquqi çərçivəsi SC-lər üçün hüquqi normaların daxil edilməsi üçün 2004-cü ildə dəyişiliklər edilmiş 1999-cu iln Mülki Məcəlləsi, 2004-cü ilin Mühasibat Uçotu haqqında Qanunu, 2004-cü ilin Banklar haqqında Qanunu, 2007-ci ilin Sığorta Fəaliyyəti haqqında Qanunu, 2007-ci ilin Daxili Audit haqqında Qanunu, 2008-c ilin Maraqlı Şəxslərlə Əqdlər haqqında Qaydalar və 2008-ci ildə Mülki Məcəlləyə direktorların fidusiar vəzifələri llə bağlı dəyişikliklərin edilməsi ilə sürətlə inkişaf etmişdir. Bu investorların hüquqi müdafiəsini artırıb və digər hüquqi dəyişikliklərlə birlikdə Azərbaycanın “Doing Business” hesabatında reytinqini 97-dən 33-cü yerə qaldırmışdır.

Qanunvericiliklə bağlı səylər dinamik olsa da, qanunvericiliyin icrası geridə qalır. Korporativ idarəetmə, şəffaflığın və hesabatlılıq üçün şəraitin aşağı səviyyədə olması qiymətli kağızlar bazarının inkişafına mənfi təsir göstərib, xarici investorların marağını azaldıb, güclü yerli institusional investorların formalaşmasına imkan verməyib və fond birjasında qeyri-likvidliyə və genişliyin və dərinliyin çatışmazlığına imkan vermişdir. Həmin icra nöqsanlara bir neçə amillə izah etmək olar. Birincisi, qanunvericilik nisbətən yenidir. İkincisi, icra əhəmiyyətli dərəcədə səmərəli dövlət reyestrinə faktiki ehtiyacdan, paralel həyata keçirilən davamlı özəlləşdirmə proqramından və işləyən mühasibat uçotu və audit institutlarından asılıdır. Yekun olaraq, bazarda ixtisaslı və təlimdən keçmiş mütəxəssislər çatışmır.

Şəffaflıq və idarəetmə ilə bağlı ümumi mühit zəifdir. Azərbaycan həmin sahələrdə Transperensi İnterneşnl və Dünya Bankının göstəricilərində ən aşağı 25%-ə düşən reytinqə malikdir.

Ümumi mühit problemli qalsa da, 2005-ci ilin SNƏH-dən sonra müəyyən irəliləyişlər əldə olunmuşdur. AMB banklarda korporativ idarəetməni təkmilləşdirib və BMK, Avropa Yenidənqurma və İnkişaf Bankı və xarici investorlar kiçik sayda SC-lərdə korporativ idarəetmənin səviyyəsini qaldırmışdır. Ölkə daxilində institusional investor yaradılıb və BFB-də ticarətin həcmi artırılmışdır, baxmayaraq ki, həmin ticarət əsasən təsbit gəlirli qiymətli kağızlarla aparılır.

**Prinsip IB: Yurisdiksiyada korporativ idarəetmə praktikasına təsir göstərən hüquqi və tənzimləyici tələblər qanuna uyğun, şəffaf və icra üçün yararlı olmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Hüquqi dəqiqlik.*** Azərbaycanda bütün kommersiya qurumlarına tətbiq olunan Mülki Məcəllə və Banklar haqqında Qanun və Sığorta Fəaliyyəti haqqında Qanun arasında ziddiyyətlər mövcuddur. Mülki Məcəllə banklar və sığorta şirkətləri üçün daha geniş çərçivəni təmin etməlidir, lakin, təcrübədə onlar sektora aid xüsusi qanunvericiliyə əməl edir və Mülki Məcəllənin rolu aydın deyil.

Hüquqi dəqiqlik, həminin, müxtəlif növ şirkətlərə bir çox müxtəlif tələblərlə məhdudlaşdırılır. Banklar, sığorta şirkətləri, açıq və qapalı SC-lər üçün konkret tələblərdən başqa İctimai Əhəmiyyətli Qurumlar və aktivlərin dəyəri 1.000.000 ABŞ dollarından və dövriyyəsi 500.000 ABŞ dollarından yüksək olan SC-lər (Hissə V-ə baxın) üçün də ayrı qaydalar mövcuddur. Ümumiyyətlə hüquqi dəyişiklikləri sürətlə edilməsi qanun və təcrübə arasında ciddi boşluq yaradır və yeni dəyişiklikləri anlama aşağı səviyyədədir, əsas korporativ funksiyalar və orqanlarla bağlı vəziyyət, misal üçün təftiş komissiyası, audit komitəsi və auditorlar komissiyasının rolları qeyri-müəyyəndir .

20 İƏİT prinsipləri bütün tətbiq olunan Mühüm Kriteriyalara cavab verərək bütün mühüm aspektlərdə tam yerinə yetiriləndə Prinsiplər tam yerinə yetirilmiş sayılır. Mühüm Kriteriya standartlara aid olanda (yəni, təcrübə tələb olunmalı, dəstəklənməli və ya əksinə qadağan edilməli və dəstəklənməməlidir), standartların bütün mühüm aspektləri mövcuddur. Mühüm Kriteriya korporativ idarəetmə təcrübəsinə aid olanda, müvafiq təcrübə geniş yayılmış olur. Mühüm Kriteriya icra mexanizmlərinə aid olanda, zəruri və səmərəli icra mexanizmi olmalıdır. Mühüm Kriteriya hüquqların müdafiəsi vasitələrinə aid olanda, zəruri, səmərəli və münasib müdafiə vasitələri olmalıdır. “Əsasən yerinə yetirilən” qiyməti bir və ya daha çox tətbiq olunan Mühüm Kriteriyanın bütün mühüm aspektlərdə tam dərəcədən az yerinə yetiriləndə verilir. ‹‹Qismən yerinə yetirilən” qiyməti (1) tətbiq olunan Mühüm Kriteriyaların az hissəsində təsvir olunan standartların bir və ya daha çox hissəsi yerinə yetirilməyəndə, lakin digər tətbiq olunan Mühüm Kriteriyalar bütün mühüm aspektlərdə tam və ya əsasən yerinə yetiriləndə (o cümlədən Mühüm Kriteriyanın korporativ idarəetmə, icra mexanizmi və hüquqların müdafiəsi vasitələri ilə bağlı olanda); və (2) bütün tətbiq olunan Mühüm Kriteriyalarda təsvir olunan standartların əsas elementləri mövcuddur, lakin stimullar və ya intizam qüvvələri bazar iştirakçılarının ən azı mühüm azlığını tövsiyə olunan təcrübəni qəbul etməyə həvəsləndirmək üçün səmərəli işləmir; və ya bütün tətbiq olunan Mühüm Kriteriyalarda təsvir olunan standartların əsas elementləri mövcuddur, lakin bütün standartların və ya onların müəyyən hissəsinin nisbətən yeni olmasına görə onların icrası aşağı səviyyədədir, icranın yüksək səviyyədə olmasını gözləmək tezdir və görünür ki, icranın aşağı səviyyəsinin səbəbi standartların yerni olmasından ibarətdir (yəni standartları qəbul etmək üçün stimulların aşağı olması kimi amillər deyil). “Yerinə yetirilmir” qiyməti ciddi nöqsanlar olan verilir. “Aidiyyəti deyil” qiyməti İƏİT prinsipi (və ya Mühüm Kriteriyalardan biri) struktur, hüquqi və institusional xüsusiyyətlərə görə (misal üçün, fidusiar qismində hərəkət edən institusional investorlar olmaya bilər) tətbiq olunmayanda verilir.

***İcranın həmahəngliliyi.*** Banklar daha ciddi tənzimlənir, QKDK isə yüzlərlə SC-lər tərəfindən aidiyyəti qanunlar və qaydalara əməl olunmasını təmin etməlidir. Hər ikisi lazımi qədər ədalətli və düzgün sayılır. Son islahatlar məhkəmələrin səmərəliliyini artırıb, lakin bazar iştirakçıları hələ də, onların nə dərəcədə ardıcıl hərəkət etməsini və həmin məsələlər sahəsində biliklərin səviyyəsini şübhə altına qoyur.

**Prinsip IC. Qanunvericilikdə müxtəlif orqanlar arasında vəzifələrin bölgüsü dəqiq müəyyən edilməli və ictimai marağa xidmət olunması təmin edilməlidir.**

***Qiymətləndirmə: Əsasən yerinə yetirilir***

***Tənzimləmə sahələrinin üst-üstə düşməsi.*** QKDK-nin kapital bazarları sahəsində qaydaları digər icra orqanları üçün məcburidir.[21] AMB və QKDK yurisdiksiyanın üst-üst düşməsi sahələrində qaydalarla bağlı bir biri ilə məsləhətləşməlidirlər.[22] Təcrübədə səlahiyyətlərin üst-üstə düşməsi azdır.

***Tənzimləmə sahəsində əməkdaşlıq.*** AMB və QKDK əməkdaşlıq sazişini bağladılar, harada ki, AMB və QKDK banklar haqqında məlumatı bölüşdürməyə və qiymətli kağızlar bazarında bankların fəaliyyətinə şamil olunan normativ-hüquqi aktların hazırlanması zamanı bir biri ilə məsləhətləşməyə razılaşırlar. Bazarın müşahidəsi üzrə cavabdehlik həm BFB, həm QKDK-ə aiddir, və BFB QKDK-ə gündəlik hesabat verir.

**Prinsip ID. Nəzarət, tənzimləmə və icra orqanları vəzifələrin peşəkar və obyektiv yerinə yetirlmsəi üçün zəruri səlahiyyətlərə, bütövlüyə və resurslara malik olmalıdır. Bundan əlavə, onların göstərişləri vaxtında verilməli, şəffaf olmalı və tam izah olunmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Tənzimləyicilərin səlahiyyətləri, düzgünlüyü və resursları.*** QKDK dövlət büdcəsindən maliyyələşdirilir və bütün gəlirlər dövlət büdcəsinə qaytarılır. 2005-ci ildə onun büdcəsi $2.774.300 ABŞ dolları təşkil etmişdir.[23] QKDK-nin hal-hazırda 95 işçidən ibarət ştatı var. QKDK-ə əmək haqlarının səviyyəsi özəl sektorda ödənilən əmək haqqının yarısını təşkil edir və BFB və AMB tərəfindən ödənilən əmək haqlarından əhəmiyyətli dərəcədə aşağıdır. Prezident QKDK-nin sədrini və onun müavinlərini təyin edir.[24] QKDK, digər hökumət qurumlarına oxşar olaraq, Nazirlər Kabinetinə tabedir.

QKDK-nin səlahiyyətləri qiymətli kağızların emitentləri, brokerlər və bazarların digər vasitəçiləri, BFB və MDM-i əhatə edir. O, həm qiymətli kağızlar bazarına, həm bütün 1.914 səhmdar cəmiyyəti üçün korporativ hüququn icrasına nəzarət edir. Bu cür iri sayda SC-lər tərəfindən hətta baza hüquqi tələblərin yerinə yetirilməsinə nəzarət etmək üçün külli miqdarda vəsait tələb olunur.

QKDK qaydaları və təlimatları qəbul edə bilər və onları ictimaiyyətə açıqlayır, lakin təcrübədə təklif olunan qaydalar üzrə ictimaiyyətlə məsləhətləşmələr praktikası hələ də, inkişaf etdirilməlidir (MM §1078-40.1).

QKDK bazar iştirakçılarının məlumatları əldə edə, yoxlamalar keçirə, şahidləri çağırmağa, cərimələri tətbiq edə, pozuntulara yol vermiş şəxslərə qarşı mülki işlərdə iştirak edə və lisenziyaları dayandıra və geri çağıra və ticarəti dayandıra bilər.[25] QKDK-ə qanunla mülki və kriminal işlərin başlanması səlahiyyətləri verilməyib və QKDK fiziki yoxlamalar aparmır. QKDK-nin hüquqi departamenti (2005-cı ildə 7 işçidən ibarət olub) əsasən icranın təmin edilməsi üçün cavabdehdir, lakin digər şöbələr də iştirak edir. 2008-ci ildə QKDK tərəfindən 226 şikayət araşdırılıb və 163 inzibati iş qaldırılıb, 2004-cü ildə isə həmin rəqəm 104 təşkil etmişdir.[26] 2008-ci ildə illik hesabatların təqdim edilməməsinə görə SC-lərə qarşı 96 cərimə tətbiq olunub və 57 SC QKDK-ə informasiyanın və sənədlərin təqdim edilməməsinə görə cərimə ödəyib və iki SC səhmdarların hüquqlarının pozulmasına görə cərimə ödəmişdir. Səkkiz SC qiymətli kağızla bazarında peşəkar fəaliyyət qaydalarını və lotereyalarla bağlı qanunvericiliyin tələblərini pozmuşdur.

BFB listinq qaydalarının pozulmasına görə listinqdən çıxara bilər və ticarəti dayandıra bilər, lakin bunu heç vaxt etməyib. Ticarət şöbəsi müşahidə üçün cavabdehdir. BFB yalnız öz üzvlərindən (brokerlərdən) cərimə tuta bilər. [27]

***Məhkəmələr.*** Məhkəmə sistemi tərəfindən səhmdarların hüquqlarının təmin edilməsinə hakimlərin müəyyən kommersiya və korporativ işlərdə təqdim olunan məsələlərlə lazımi dərəcədə tanış olmaması və, həmçinin, səhmdarların öz hüquqları barəsində məlumatlılığının aşağı səviyyədə olması məhdudiyyət qoyur. Lakin, məhkəmə səmərəliliyinin göstəriciləri 2005-ci ilin SNƏH-dən sonra kəskin artmışdır.

Dünya Bankı tərəfindən hazırlanmış göstəricilər onu göstərir ki, Azərbaycanda standart müqavilənin icrasına tələb olunan

---

21 QKDK-nin Əsasnaməsi, §7.1; QKDK-nin fəaliyyətinin təmin edilməsi haqqında fərman, §2, 5.

22 QKDK-nin Əsasnaməsi, §15; Mülki Məcəllə, §1078-43.5.

23 Azərbayacn Respublikasının 2005-ci il üçün Dövlət Büdcəsinin İcrası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 29 dekabr 2004.

24 QKDK-nin Əsasnaməsi, §1, 10, 12.

25 QKDK-nin qiymətli kağızlar bazarında pozuntuların aradan qaldırılması və investorların hüquqlarının müdafiəsinə nəzarətin həyata keçirilməsi Qaydaları, §3; QKDK-nin Əsasnaməsi, §7.20, 11.16; Qiymətli kağılzlar bazarında investorların hüqüqlarının müdafiəsi haqqında qanun, §6, 7, 8.

26 İnzibati Xətalar Məcəlləsi.

27 Qiymətli kağızlar bazarında investorların hüqüqlarının müdafiəsi haqqında qanun, §11.

vaxt regionun və İƏİT-in orta göstəricisindən yaxşıdır və prosedurlar və bərpa məsrəfləri regionun orta göstəricilərinə oxşardır (www.doingbusiness.org ünvanında 2008-ci ilin Doing Business Hesabatına baxın).

| Müqavilələrin icrası göstəriciləri | Azərbaycan | Avropa və Mərkəzi Asiya üzrə orta göstərici | İƏİT-də orta göstərici |
|---|---|---|---|
| Prosedurların sayı | 39 | 36.4 | 30.8 |
| Vaxt (günlər) | 237 | 425.2 | 462.7 |
| Məsrəf (borcun %) | 18.5 | 23.4 | 18.9 |

**HİSSƏ II: SƏHMDARLARIN HÜQUQLARI VƏ ƏSAS SAHIBLIK FUNKSIYALARI**

**Korporativ idarəetmə çərçivəsi səhmdarların hüquqlarını müdafiə etməli və onların icrasını dəstəkləməlidir.**

**Prinsip IIA: Korporativ idarəetmə çərçivəsi səhmdarların hüquqlarını müdafiə etməlidir. Səhmdarların əsas hüquqları aşağıdakıları hüquqları əhatə etməlidir:**

**Prinsip IIA 1: Sahibliyin qeydiyyatının etibarlı metodları**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Səhmlərin etibarlı qeydiyyatı.*** Səhmlər adsız və adlı olur və adlı səhmlər sertifikat formasında və ya qeyri-maddi şəkildə ola bilər (Mülki Məcəllə §989, 990). Banklar səhmləri adlı formada buraxmalıdır. (Banklar haqqında Qanun §19.3). Adlı səhmləri və 20 və ya ondan çox səhmdarı olan şirkətlər səhmləri özəl reyestrdə və ya Milli Depozit Mərkəzində (MDM) saxlamalı və səhmdarların sayı 20-dən az olan şirkətlər, həmçinin, öz reyestrlərini aparmaq hüququna malikdirlər (Mülki Məcəllə §106-2.2, 1078-34.6). MDM depozitar və reyestrsaxlayıcı qismində fəaliyyət göstərir.[28]

BMK-nin 2007-ci ildə keçirdiyi sorğuda şirkətlərin 93% kənar reyestrdən istifadə edib və yalnız üçü şirkət daxilində səhmlərin reyestrini aparırdı. MDM sorğuda iştirak edən 58% şirkətin səhmlərinin reyestrini aparırdı. MDM-də qeydiyyata durmamış və səhmdarların sayı 20-dən çox olan təxminən 300 şirkət var. Sahiblik hüquqlarının hüquqi sübutu MDM tərəfindən təqdim olunur (qeyri-maddi formada olan səhmlər üçün) və ya şirkət tərəfindən buraxılmış səhm şəhadətnaməsi (səhmləri maddi formada saxlayan şirkətlər üçün) vasitəsilə verilir. (Mülki Məcəllə §1078-20.3, 1078-21). MDM yalnız bilavasitə sahibliyin uçotunu aparır. Nominal saxlayıcı qanunla tanınır. MDM, brokerlər və özəl reyestrlər nominal saxlayıcının adından səhmləri saxlaya bilərlər. (CC§992-1.6, 1078-34.10, 1078-12-16). Təcrübədə yalnız brokerlər nominal saxlayıcı qismində çıxış edir. Qəyyum konsepsiyası qanunda müəyyən edilməyib.

**Prinsip IIA 2: Səhmlərin köçürülməsi və ya ötürülməsi**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Açıq səhmdar cəmiyyətlərində səhmlərin köçürülməsinə məhdudiyyət qoyulmur. BFB-də ticarət olunan bütün qiymətli kağızlar üzrə klirinq və hesablaşma MDM tərəfindən deyil, BFB tərəfindən həyata keçirilir. ÖƏÖ (ötürülmə əsasında ödəniş) tam yerinə yetirilmir. Hesablaşma real vaxt rejimində qross əsasda həyata keçirilir. MDM BFB-dən alınmış əmrlər əsasında bütün səhmlər üzrə hesablaşmanı həyata keçirilir. Əqdlərin əksəriyyəti birjadankənar bazarda bağlanılır. Birjada likvidlik çox aşağı səviyyədədir. Qeyd etmək lazımdır ki, həm qanun həm də yaxşı korporativ idarəetmə təcrübəsi səhmlərin ötürülməsinə hər hansı məhdudiyyətlərin qoyulmasını qadağan etsə də, sorğuda iştirak etmiş şirkətlərin on dördü (14%) nizamnamələrinə həmin məhdudiyyətləri daxil etmişdir.

**Prinsip IIA 3: Şirkətlə bağlı aidiyyəti və mühüm məlumatların vaxtında və mütəmadi qaydada alınması**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Azərbaycanda şirkətlərlə bağlı məlumatları əldə etmək imkanları əsasən məhduddur. Qanuna əsasən, səhmdarların ildə bir dəfə şirkətdən səhmdarların reyestrini, nizamnaməsini və illik hesabatını tələb etmək hüququ var. (Mülki Məcəllə §101-3.2, 106-2.3, 1078-43). Təcrübədə, bir çox şirkətlər həmin informasiyanı məxfi sayır və onu ictimaiyyətə açıqlamır və bəzi hallarda onu aidiyyəti tənzimləyiciyə də təqdim etmir. Daha çox şirkətin maliyyə hesabatlarını müntəzəm dərc etməsinə baxmayaraq, BMK-nin 2007-ci ildə apardığı sorğuya əsasən, respondentlərin yalnız 37% illik hesabatlarının açıqlanmasını və yalnız 33% balans hesabatlarının açıqlanmasını bildirmişdir.

**Prinsip IIA 4: Səhmdarların ümumi yığıncağında iştirak etmək və səs vermək**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Səhmdarların illik səhmdar yığıncaqlarında iştirak etmək ümumi hüququ var. İmtiyazlı səhmdarların ümumi yığıncağında iştirak etmək hüququna malik olub-olmaması şirkətin nizamnaməsində müəyyən edilir. İmtiyazlı səhmlər şirkətin ləğv edilməsi, yenidəntəşkili və onların hüquqları ilə bağlı məsələlər üzrə səs vermək hüququnu verir, lakin dividendlərin

28 "Milli Depozit Sistemi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, No 580, 14 may 1997.

| | |
|---|---|
| ödənilməməsi halında qanuna əsasən səs vermək hüququnu vermir. (Mülki Məcəllə §106.1.3.5, 106-1.4, 106-1.5).<br>Səhmdarların sayı 100-dən çox olan SC-lər üçün, qanun ən azı 3 üzvdən ibarət olan hesablama komissiyasının yaradılmasını tələb edir. Hesablama komissiyası ilə bağlı prosedurlar nizamnamədə müəyyən edilir. Təcrübədə, səhmdarlar əli qaldırmaqla səs verir. Hesablama komissiyasının protokolu səhmdarların ümumi yığıncağının protokoluna əlavə olunur. (Mülki Məcəllə §107-4).<br>Son SNƏH və BMK-nin 2007-ci ildə apardığı sorğuya əsasən, hətta banklarda da illik səhmdar yığıncaqları hər zaman keçirilmir. Səhmdar yığıncaqlarını keçirən şirkətlərin sayı haqqında məlumat vermək çətin olar, lakin QKDK-in hesablamalarına əsasən şirkətlərin ən azı 30% tərəfindən yığıncaqlar keçirilmir. Yalnız səhmdarların sayı çox yüksək olan şirkətlərin yığıncaqları müntəzəm olaraq keçirməsi görünür.<br>BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərdə, səhmdarların ümumi yığıncağı bir çox ümumi funksiyasını yerinə yetirməmişdir. Misal üçün, respondentlərin yalnız dörddə biri səhmdarların ümumi yığıncağında illik hesabatın təsdiq olunmasını və ya kənar auditorun təyin edilməsini bildirmişdir. |
| **Prinsip IIA 5: Müşahidə şurası üzvlərini seçmək və vəzifədən azad etmək** |
| ***Qiymətləndirmə: Əsasən yerinə yetirilir*** |
| ***Proses.*** Səhmdarların sayı 50-dən çox olan açıq səhmdar cəmiyyətlərindən müşahidə şuralarının yaradılması tələb olunur. Qapalı SC-lər üçün onlar məcburi deyil. Səhmdarların ümumi yığıncağı müşahidə şurasına üzvlərin seçilməsi üzrə müstəsna hüquqa malikdir və səhmdar cəmiyyətlərində sadə səs çoxluğu ilə və banklarda 75% səs çoxluğu müşahidə şurasını buraxa bilərlər (Mülki Məcəllə §106-1.3.1, 107). Müşahidə şurasına üzvlərin seçilməsi proseduru nizamnamədə müəyyən edilir.<br>***Kumulyativ səsvermə / proporsional təmsilçilik.*** Qanun kumulyativ səsverməni və ya proporsional təmsilçiliyi müəyyən etmir. BMK-nin 2007-ci ilin sorğusunda, şirkətlərin yalnız 6% kumulyativ səsverməyə icazə vermişdir.[50] |
| **Prinsip IIA 6: Şirkətin mənfəətlərində pay** |
| ***Qiymətləndirmə: Qismən yerinə yetirilir*** |
| Dividendlərin məbləği müşahidə şurası tərəfindən təqdim olunur və səhmdarların ümumi yığıncağı tərəfindən təsdiq olunur (lakin artırıla bilməz) və şirkətin mənfəətindən yüksək ola bilməz (Mülki Məcəllə §106-3). Dividendlərin məcburi minimal məbləği müəyyən edilməyib. SC-lərin əksəriyyəti ilə bağlı ciddi problem hesabatlarda mənfəətin çatışmazlığından ibarətdir və bununla onlar dividend ödəmir.<br>BMK-nin 2007-ci ildə apardığı sorğuda iştirak etmiş şirkətlərin 18% 2002-2004-cü maliyyə illərində dividendləri bəyan edib ödəmişdilər. Həmin şirkətlər ödənişləri vaxtında həyata keçirib: onlardan on ikisi dividendləri on beş gündən az müddətdə və qalan altı şirkət iki ay ərzində ödəmişdir.<br>BMK-nin 2007-ci ildə apardığı sorğuda iştirak etmiş şirkətlərin yarısından az hissəsi (45%) səhmdarların ümumi yığıncağı tərəfindən dividendlərin bəyan edilməsi və paylaşdırılmasının təsdiq edilməsini bildirmişdir. |
| **Prinsip IIB. Səhmdarlar şirkətlə bağlı aşağıdakı kimi fundamental dəyişikliklərlə bağlı qərarların qəbul edilməsində iştirak etmək və həmin qərarlar haqqında lazımi dərəcədə məlumatlandırılmaq hüququna malik olmalıdır:** |
| **Prinsip IIB 1: Nizamnamə, əsasnamə və şirkətin oxşar sənədlərinə dəyişikliklər** |
| ***Qiymətləndirmə: Əsasən yerinə yetirilir*** |
| Şirkətin nizamnaməsinə dəyişikliklər müəssisələrdə səhmdarların ümumi yığıncağında səslərin 2/3 hissəsini, və banklarda 75% səs çoxluğunu tələb edir. Bu, qanuna əsasən səhmdar yığıncağının müstəsna hüququdur. (Mülki Məcəllə §107.1). |
| **Prinsip IIB 2: Əlavə səhmlərin emissiyasının təsdiq edilməsi** |
| ***Qiymətləndirmə: Qismən yetirilir*** |
| ***Səhmdar kapitalının buraxılması.*** Səhmdarların ümumi yığıncağı səhmdar cəmiyyətlərində səslərin 2/3 hissəsi və banklarda 75% səs çoxluğu ilə səhmdar kapitalında dəyişikliklərin edilməsini təsdiq edir (Mülki Məcəllə §107.1.1). Səhmdar kapitalının buraxılması müşahidə şurasına həvalə edilə bilər.<br>***Üstünlük hüquqları.*** Üstünlük hüquqları qapalı səhmdar cəmiyyətlərində mövcuddur. Açıq səhmdar cəmiyyətləri üçün məcburi üstünlük hüquqları ilə müddəalar yoxdur, lakin şirkətin nizamnaməsində həmin hüquqlar nəzərdə tutula bilər (Mülki Məcəllə §101.1, 104.2). Lakin, səhmlərin yalnız nəzarət payına malik olan səhmdara buraxılması, kiçik səhmdarların istisna edilməsi və hətta bəzi hallarda onların kapitalın artırılması barədə xəbərdar edilməməsi halları var idi. |
| **Prinsip IIB 3: Xüsusi əqdlər, o cümlədən şirkəti iri aktivlərinin satılması** |
| ***Qiymətləndirmə: Əsasən yerinə yetirilir*** |
| Səhmdarların ümumi yığıncağı tərəfindən şirkətin yenidəntəşkili və ləğv edilməsi ilə bağlı qərarların verilməsi müəssisələr |

üçün səslərin 2/3 hissəsi və banklarda 75% səs çoxluğunu tələb edir (Mülki Məcəllə §107.1.5).

***Şirkətin iri aktivlərinin satılması.*** Səhmdarların ümumi yığıncağı xalis aktivlərinin 25%-dən artıq hissəsinin satılması əqdlərini təsdiq edir. Bu cür əqdlər haqqında məlumat şirkətin nizamnaməsində müəyyən edilmiş qaydada açıqlanmalıdır (Mülki Məcəllə §99.3). Bu cür əqdlərin bazar qiyməti ilə bağlanmasını təmin etmək üçün həmin əqdlərin kənar qiymətləndirilməsini tələb edən müddəalar var.

**Prinsip IIC: Səhmdarlar ümumi yığıncaqlarda səmərəli iştirak etmək və səs vermək hüququna malik olmalı və səhmdarların ümumi yığıncağı ilə bağlı qaydalar, o cümlədən səsvermə prosedurları haqqında məlumatlandırılmalıdır:**

**Prinsip IIC 1: Ümumi yığıncağın keçirilməsi vaxtı, yeri, gündəliyi və qərar veriləcək məsələlər haqqında yetərli məlumatların vaxtında verilməsi**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Son müddətə əməl olunması.*** Səhmdarların ümumi yığıncağı ildə bir dəfə keçirilməlidir. Yığıncaq maliyyə ilinin sonundan 6 ay ərzində müşahidə şurası tərəfindən çağırılır (müşahidə şurası olmayan şirkətlər üçün icraçı orqan tərəfindən çağrılır). Qanunda səhmdarların ümumi yığıncağının keçirilməsi yeri ilə bağlı tələblər yoxdur, və nəzəriyyədə yığıncaq ölkə xaricində keçirilə bilər. Səsvermə hüququ olan səhmlərin 10% səhmdarların növbədənkənar yığıncağını çağırmaq hüququnu verir (Mülki Məcəllə §107-1).

***Yığıncağın keçirilməsi haqqında bildiriş.*** Bildiriş kütləvi informasiya vasitələrində səhmdarların ümumi yığıncağının keçirilməsindən 45 gün əvvəl dərc olunmalı və məlumatların faktiki saxlayıcılara ötürülməsini təmin etmək üçün səhmdarlar və nominal saxlayıcılara poçtla göndərilməlidir. BMK-nin 2007-ci ildə apardığı sorğuda iştirak etmiş şirkətlərin yarısından aşağı hissəsi (46%) həmin tələbi yerinə yetirməmişdir. Şirkətlərin sorğusuna əsasən, bildirişlər əsasən sifarişli məktubla göndərilmişdir (69%). Digər üsullar mətbuatda elanın verilməsi (51%) və (səmərəliliyi daha az olan) şirkətin ofisində elanın verilməsindən (42%) ibarət olmuşdur.
***Verilən məlumat.*** Bildirişə yığıncağın keçirildiyi vaxtı, tarixi, yeri və gündəliyi daxildir, lakin yeni təyin olunmuş direktorlar və auditorlar haqqında ümumi məlumat verilmir. BMK-nin sorğusunda, bildirişə əlavə olunan materiallara gündəlik (92%) və gündəliyin hər maddəsinin təsviri (49%), illik hesabat (47%), maliyyə hesabatı (43%) və gündəliyə daxil olan maddələri dəstəkləyən sənədlər (33%) daxil idi. Əksər hallarda (44%) gündəlik rəhbərlik tərəfindən hazırlanırdı.

***Kvorum qaydaları.*** Ümumi səhmdar yığıncağı üçün kvorum birinci çağırışda səhmlərin 60%, ikinci çağırışda 40% və üçüncü və dördüncü çağırışda 25% təşkil edir.[29] İl ərzində kvorumun təmin edilməsi üçün dörd cəhd uğursuz olsa, QKDK şirkətin ləğv edilməsi üçün məhkəmədə iş qaldıra bilər.

Banklarda, səhmdarların ümumi yığıncağı nizamnaməyə və kapitala dəyişikliklərin edilməsi, müşahidə şurasının seçilməsi və buraxılması, bankın satılması, yenidəntəşkili və ləğv edilməsi (qərarlar 75% səs çoxluğu ilə qəbul olunur) və, həmçinin, audit komitəsinin seçilməsi və buraxılması və audit yoxlaması aparılmış maliyyə hesabatlarının təsdiqi (qərarlar 50% səs çoxluğu ilə qəbul olunur) ilə bağlı qərarların verilməsi üzrə müstəsna hüquqa malikdir. Bank tərəfindən digər təşkilatlara investisiyaların qoyulması, kənar auditorun təyin edilməsi və idarə heyəti üzvlərinin təyin edilməsi / vəzifədən azad edilməsi müşahidə şurasına həvalə edilə bilər. Səhmdarların ümumi yığıncağı audit yoxlaması aparılmış illik hesabatın hazırlanmasından sonra 2 ay ərzində keçirilir. İdarə heyəti, audit komitəsi, müşahidə şurası və 5% səsvermə hüququna malik olan səhmdarlar səhmdarların növbədənkənar yığıncağını çağıra bilərlər (Banklar haqqında Qanun, §24.1, 24.3, 24.5).

**Prinsip IIC 2: Ümumi yığıncaqda müşahidə şurasına suallar vermək imkanı**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Məsələlərin gündəliyə daxil edilməsi.*** Qanun səhmdarlara ümumiyyətlə gündəliyə dəyişikliklərin edilməsini tələb etmək hüququnu verir, lakin gündəliyə məsələlərin əlavə edilməsi üçün xüsusi prosedurları müəyyən etmir. Gündəliyə daxil edilməmiş məsələlər üzrə səhmdarların ümumi yığıncağı qərar qəbul edə bilmir (Mülki Məcəllə §106-1.3, 107-5.2).
BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərin səhdmarların 51%-I mütəmadi olaraq, 25%-I hallarda gündəliyə məsələlərin daxil edilməsi təklif edib və 9% ümumiyyətlə təklif etmirdi. Qeyd etmək lazımdır ki, respondentlərin 56%-i, zəruri olduqda, iclas zamanı gündəliyə dəyişikliklərin edilməsinə yol verilməsini qeyd etmişdir.

***Suallar.*** Qanunda səhmdarlar tərəfindən səhmdarların ümumi yığıncağında sualların verilməsi hüquqi və cavab alması hüququ müəyyən edilməyib.

**Prinsip IIC 3: Müşahidə şurası və əsas vəzifəli şəxslərin mükafatlandırılması siyasəti daxil olmaqla, səhmdarların idarəetmə ilə bağlı əsas qərarların qəbul edilməsində səmərəli iştirakı**

29 Mülki Məcəllə §107-1, 107-2. İkinci çağırışla bağlı qərar müşahidə şurası tərəfindən verilir və müvafiq məlumat kütləvi informasiya vasitələrində 3 gün əvvəl dərc olunmalıdır və ikinci yığıncaq haqqında bildiriş bütün səhmdarlara və ya onların nümayəndələrinə 5 gün ərzində göndərilməlidir. İkinci yığıncaq birinci yığıncaqdan sonra 3 gün ərzində elan olunmalıdır və 30 gündən az olmayan və 45 gündən gec olmayan müddət ərazində keçirilməlidir.

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Bankın idarə heyəti və müşahidə şurasının üzvlərinin əmək haqqı səhmdarların ümumi yığıncağı tərəfindən təsdiq olunur. Digər şirkətlərdə. bu cür təsdiqə nizamnamə ilə icazə verilə bilər.

**Prinsip IIC 4: Yığıncaqda şəxsən və qiyabi səs vermək imkanı**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Səhmdarların nümayəndələri ilə bağlı qaydalar.*** Səhmdarların nümayəndələri qanunda müəyyən edilir və notarius tərəfindən təsdiq edilmiş etibarnaməni tələb edir. (Mülki Məcəllə §107-3, 362). Onlardan, bəzi hallarda, təcrübədə də istifadə olunur. Səhmdarlar tərəfindən səhmdarın səsvermə üstünlükləri barəsində səhmdarın nümayəndəsinə göstərişlərin verilməsi tələbi yoxdur.

***Poçt vasitəsilə və elektron səsvermə.*** Şirkətin nizamnaməsində gündəliyin hər məsələsi üçün yazılı səsvermə göstərişləri əsasında poçt vasitəsilə səs vermək imkanı müəyyən edilə bilər (Mülki Məcəllə §107-3).

BMK-nin 2007-ci ildə keçirdiyi sorğuda iştirak etmiş şirkətlər səsvermə prosedurları da daxil olmaqla, minoritar səhmdarların hüquqlarının müdafiəsi ilə bağlı müvafiq mexanizmlər haqqında məlumatlılığın çatışmazlığını nümayiş etdirdilər. Misal üçün, onlardan yalnız otuz faiz səhmdarların nümayəndəsi vasitəsilə səsverməni tətbiq edirdi.

**Prinsip IID: Müəyyən səhmdarlara sahib çıxdığı səhmlərə proporsional olmayan nəzarət almağa imkan verən kapital strukturu və mexanizmləri açıqlanmalıdır.**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

***Səhm kateqoriyaları.*** SC adi və imtiyazlı səhmlər buraxa bilər. İmtiyazlı səhmlərin şirkətin kapitalında payı 25%-dən artıq ola bilməz. İmtiyazlı səhmlər şirkətin idarə edilməsində iştirak hüququnu vermir, lakin qanun həmin səhmlərə şirkətin yenidən təşkili, ləğv edilməsi və nizamnaməyə imtiyazlı səhmlərin hüquqlarına təsir göstərən dəyişikliklərin edilməsi ilə bağlı səs vermək hüququnu verir. İmtiyazlı səhmlərə verilən digər hüquqlar şirkətin nizamnaməsində müəyyən edilir (Mülki Məcəllə §106.2, 106-1). Qanunda imtiyazlı səhmlər üçün dividendlərin minimal məbləği müəyyən edilmir, lakin qanunda müəyyən edilir ki, “imtiyazlı səhm üzrə dividend səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, imtiyazlı səhm sahiblərinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində ödənilən vəsaitdir”. (Mülki Məcəllə C §106.3-4). İmtiyazlı səhmlərdən təcrübədə az istifadə olunur.

***Şirkətlər tərəfindən mülkiyyət haqqında məlumatların açıqlanması.*** Şirkətlər səhmlərin 10% və ya ondan artıq payına malik olan səhmdarlar haqqında illik hesabatlarında məlumat verməlidir.[30] Səhmlərə birbaşa və ya dolayısı ilə malik olan sahiblər haqqında məlumatların açıqlanması tələb olunmur. Açıqlanan məlumatlara mülkiyyətdə olan səhmlərin sayı, səhmdarın rəhbərlikdə / müşahidə şurasında tutduğu vəzifəsi və (səhm sahibinin hüquqi şəxs olması halında) müşahidə şurası və idarə heyətinin üzvləri daxil olmalıdır. Şirkətlər illik hesabatlarının qeydlərində əlaqəli şirkətlərdə sahib olduğu səhmlər haqqında məlumatları açıqlamalıdır. (Mülki Məcəllə §124.4). QKDK səhm sahibliyi haqqında məlumatların açıqlanmasına nəzarət edir.[31] Qanuna əsasən, MDM, Dövlət Reyestri (Vergilər Nazirliyi), özəl reyestrlər və şirkətlər səhm sahibliyi haqqında məlumatları saxlamalıdır.

Təcrübədə, Azərbaycanda səhm sahibliyi haqqında rəsmi məlumatları əldə etmək olduqca çətindir. Şirkətlərin reyestrləri ictimaiyyət üçün hələ ki açıq deyil və bunun əsas səbəbi ictimaiyyətin çıxışı üçün qaydaların icra olunmaması və ictimaiyyətin kommersiya reyestrlərindən məlumat əldə etmək hüququ haqqında məlumatlı olmamasından ibarətdir. Bu günə qədər QKDK tərəfindən səhm sahibliyi ilə bağlı məlumatların açıqlanmamasına görə cərimələr tətbiq olunmamışdır.

Banklar üçün lazımi və məqbul keyfiyyətlərlə bağlı müddəalar AMB-yə iri bank sahiblərinə sanksiya tətbiq etmək səlahiyyətini verir. Xüsusi olaraq, banklar AMB-ni səhmlərin 10%-nə birbaşa və dolayısı ilə sahib olan səhmdarların paylarında, o cümlədən, “mühüm təsirə” malik olan səhmdarların paylarında dəyişikliklər haqqında xəbərdar edir və səhmdar haqqında ətraflı məlumatları əlavə edir.[32] Bankların, həmçinin, qanunla investisiya limitləri müəyyən edilib – onlar iştirak payının bankın kapitalının 10 faizindən artıq olanda və ya bütün iştirak paylarının bankın kapitalının 40 faizindən artıq olanda hüquqi şəxslərdə iştirak paylarına malik ola bilməzlər (Banklar haqqında Qanun, §30.1, 30.2).

***Səhmdarlar tərəfindən səhm payları haqqında məlumatların açıqlanması.*** Səhmdarlar tərəfindən səhm payları haqqında məlumatların açıqlanması qanunla tələb olunmur. Səhmlərin qeyri-proporsional strukturu ilə konkret açıqlamaların verilməsi tələb olunmur, lakin bu məsələlərin bəziləri şirkətin nizamnaməsində müəyyən edilə bilər.

***Səhmdarların müqavilələri haqqında məlumatların açıqlanması.*** Səhmdarların müqavilələri haqqında məlumatların açıqlanması tələb olunmur. AİŞ və “Kazimir Partners” kimi institusional investorlar açıq səhmdar cəmiyyətlərinin səhmdarları

---

30 İnvestisiya qiymətli kağızlarının emitentləri tərəfindən illik hesabatların hazırlanması və açıqlanması qaydaları §2.2.8; Mülki Məcəllə §1078-47.1.4.

31 İnzibati Xətalar Məcəlləsi, §206, 220, 324.

32 Banklar haqqında Qanun, §22.2, 22.3, 22.4, 22.8 & 22.9. Hazırkı məlumatlara hüquqi şəxslər üçün son 3 il üçün audit yoxlaması aparılmış maliyyə hesabatları, audit rəyi, şura üzvlərinin siyahısı, hüquqi şəxsin kapitalında bankın və ya digər hüquqi şəxslərin 10% payları haqqında məlumat daxildir. Fiziki şəxs üçün təqdim olunan məlumatlara mülkiyyətində və nəzarətində olan hüquqi şəxslərin siyahısı və həm hüquqi, həm fiziki şəxslər üçün onların bankların və ya digər hüquqi şəxslərin kapitalında 10% payları haqqında məlumat daxilidir.

ilə yazılı müqavilələr bağlayır, lakin qeyri-formal razılaşma da adi haldır.

**Prinsip IIE: Korporativ nəzarət bazarlarının səmərəli və şəffaf qaydada fəaliyyət göstərməsi üçün şərait yaradılmalıdır.**

**Prinsip IIE 1: Korporativ nəzarətin əldə edilməsini tənzimləyən qaydaların şəffaflığı və ədalətliliyi**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

***Korporativ nəzarət bazarı haqqında ümumi məlumat.*** Hal-hazırda investordan səhmlərin minimal faizinin, misal üçün 25 və 50 faizinin alınmasından sonra şirkətin bütün səhmlərini almaq təklifinin verilməsini tələb edən sahibliyin dəyişməsi haqqında qanun və ya qaydalar yoxdur və qanun tender təkliflərinin verilməsini də nəzərdə tutmur. Bu günədək Bakı Fond birjasında ticarətin həcmləri məhdud idi və tender sənədlərini daxil etməmişdir. Azərbaycanda korporativ nəzarət bazarı, həmçinin, biznes qruplarının bazarda mühüm iştirakı, və, həmçinin, sahibliyin cəmləşməsi ilə məhdudlaşdırılır. BMK-nin 2007-ci ilin sorğusunda qırx iki şirkətin (42%) nizamnaməsinə şirkətdə sahibliyin dəyişməsi və ya birləşmə halında minoritar səhmdarlara qarşı yanaşma ilə bağlı müddəalar daxil olmuşdur.

Banklarda nəzarətin dəyişməsi ilə bağlı əqdlər AMB-nin icazəsi ilə həyata keçirilir (Banklar haqqında Qanun, §29).

***Tender qaydaları / məcburi təkliflər qaydaları.*** Tender qaydaları, məcburi tender təklifləri, çıxarma hüquqları və ədalətli qiymətlə bağlı digər müddəalar hal-hazırda qanunda tələb olunmur.

***Delistinq prosedurları.*** Açıq SC-nin qapalı formaya çevrilməsi səhmdarların ümumi yığıncağında 2/3 səs çoxluğu ilə qəbul olunur. Şirkətin özəl şirkətə çevrilməsi üçün səhmlərin birja vasitəsilə alınması prosesini tənzimləyən qaydalar (fond bijrasında istənilən əqd üçün qaydalardan başqa) yoxdur. Birjadankənar bazarda səhmlərin geri alınması əqdlərinin şərtləri (qiyməti) səhmdarların ümumi yığıncağında müəyyən olunur (Mülki Məcəllə §105-1.3). Sonuncu halda, açıq SC minoritar səhmdarların mühüm hissəsinin çıxarılması məqsədilə qapalı SC-yə çevrilməyə cəhd etmişdir. QKDK Ədliyyə Nazirliyindən şirkətin hərəkətlərinin qanunsuzluğuna görə onun qapalı SC formasında qeydiyyatının ləğv edilməsini tələb etmişdir.[33]

***Səhmlərin geri alınması ilə bağlı qaydaların pozulması.*** Şirkətlərin birja vasitəsilə öz səhmlərinin geri alınması əqdlərinin qiyməti, miqdarı və həmin əqdlərlə bağlı məlumatların açıqlanması tənzimlənmir (fond bijrasında istənilən əqd üçün qaydalardan başqa). Birjadankənar bazarda bağlandığı halda əqdin qiyməti səhmdarların ümumi yığıncağı tərəfindən təsdiq olunmalıdır. Minial kapital tələblərinin nəzərə alınmasından başqa, geri alınan səhmlərin həcminə məhdudiyyətlər qoyulmur. Geri alınmış səhmlərin səsvermə hüququ yoxdur və onlar il ərzində təkrar satılmalı və ya ləğv edilməlidir (Mülki Məcəllə §105-1.5).

**Prinsip IIE 2: Sahibliyin dəyişməsinə qarşı alətlər**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Qanunda sahibliyin dəyişməsinə qarşı alətlərlə bağlı müddəalar yoxdur. Səsvermə hüququ üzvə yuxarı hədlərə icazə verilir. (Mülki Məcəllə §103.6).

**Prinsip IIF: Bütün səhmdarların, o cümlədən institusional investorların sahiblik hüquqlarının icrası dəstəklənməlidir.**

**Prinsip IIF 1: İnstitusional investorlar tərəfindən korporativ idarəemtə və səsvermə siyasəti haqqında məlumatların açıqlanması**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

2005-ci ildən sonra bazara daxil olmuş institusional investorların sayı məhdud idi. Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) Azərbaycan Hökuməti tərəfindən qeyri-neft sektorunun inkişafının dəstəklənməsi məqsədilə yaradılmışdır. AİŞ dövlətə məxsus investisiya şirkətidir və yalnız şirkətlərə birbaşa investisiyalar qoya bilər. 2007-ci ilin noyabr ayında, AİŞ törəmə investisiya fondunu – Xəzər Beynəlxalq İnvestisiya Şirkətini yaradıb, lakin bu günə qədər həmin şirkətin investisiya layihələri olmayıb. “Kazimir Partners” Azərbaycanın iki bankına investisiya qoymuş regional investordur.

***Səsvermə ilə bağlı ümumi öhdəliklər / səsvermə siyasətinin açıqlanması.*** Tələblər yoxdur və təcrübə azdır.

***İnstitusional investorlar / pensiya fondları üçün xüsusi qaydalar.*** Qaydalar yoxdur. Azərbaycanda hal-hazırda özəl pensiya fondları və qarşılıqlı investisiya fondları yoxdur.

**Prinsip IIF 2: İnstitusional investorlar tərəfindən maraqların toqquşması ilə bağlı ciddi halların idarə edilməsi haqqında məlumatların açıqlanması**

33 Mart 2005, “Cənubtikintiservis” SC.

***Qiymətləndirmə: Yerinə yetirilmir***

İnstitusional investorlar tərəfindən maraqların toqquşması hallarının idarə edilməsi haqqında məlumatlar açıqlanmır və bazarda instutional investorlar olsa da, onların sayı azdır.

**Prinsip IIG: Hüquqların pozulması hallarının qarşısının alınması üçün nəzərdə tutulmuş istisna hallarından başqa, səhmdarlar Prinsiplərdə müəyyən edilmiş əsas səhmdar hüquqlarına aid məsələlər üzrə bir biri ilə məsləhətləşmək hüququna malik olmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Məsləhətləşmə ilə bağlı məhdudiyyətlər yoxdur. Birgə hərəkətlərlə bağlı qaydalar yoxdur.

**HİSSƏ III: SƏHMDARLARA QARŞI ƏDALƏTLİ YANAŞMA**

**Korporativ idarəetmə çərçivəsi bütün səhmdarlara, o cümlədən minoritar və xarici səhmdarlara ədalətli yanaşılmasını təmin etməlidir. Bütün səhmdarların hüquqların pozulmasına görə faktiki kompensasiya almaq imkanları olmalıdır.**

**Prinsip IIIA: Eyni kateqoriyaya aid olan bütün səhmdarlara eyni yanaşılmalıdır.**

**Prinsip IIIA 1: Səhm kateqoriyaları daxilində və arasında bərabərlik, ədalətlilik və hüquqların açıqlanması**

***Qiymətləndirmə: Əsasən yerinə yetirilir***

***Səhm kateqoriyası haqqında informasiyanı əldə etmək imkanları.*** Qanuna əsasən, səhmlərin kateqoriyaları üzrə səsvermə hüquqları haqqında məlumat emissiya prospektində və, həmçinin, nizamnamədə verilməlidir. Faktiki olaraq isə, yalnız adi səhmlərdən istifadə olunur.

***Səhm kateqoriyası daxilində bərabər hüquqlar.*** Qanuna görə bir səhm kateqoriyasına düşən bütün səhmlər eyni hüquqlara malikdir.

***Səsvermə hüquqlarında dəyişikliklərin mənfi təsirinə məruz qalmış kateqoriyalar tərəfindən təsdiq.*** İmtiyazlı səhmlərin adi səhmlərlə birlikdə (kateqoriya kimi olmayaraq) imtiyazlı səhmlərin hüquqlarında hər hansı dəyişikliklər üzrə səs vermək hüququ var (Mülki Məcəllə §106-1.5).

**Prinsip IIIA 2: Minoritar səhmdarların nəzarət paylarına malik olan səhmdarlar tərəfindən hüquqlarının pozulmasına qarşı müdafiəsi; minoritar səhmdarlar üçün kompensasiyalar**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Səhmdarların faktiki kompensasiya almaq imkanları azdır.

***Yığıncağı çağırmaq imkanı.*** SC-lərdə səsvermə hüququna malik olan səhmlərin 10 faizi və banklarda səhmlərin 5 faizi səhmdarların növbədənkənar yığıncağını çağırmaq hüququnu verir (Mülki Məcəllə §107-1), Banklar haqqında Qanun §24.5).

BMK-nin 2007-ci ildə apardığı sorğusunda iştirak etmiş şirkətlərin 16 faizi son iki il ərzində səhmdarların növbədənkənar yığıncağını keçirmişdir. Onlardan altısı (37.5%) yığıncağı nizamnaməyə dəyişikliklərin təsdiq edilməsi məqsədilə , ikisi (12.5%) şura üzvlərinin seçilməsi, biri (6.3%) mühüm əqdlərin təsdiq edilməsi üçün və biri (6.3%) səhmdarların ümumi yığıncağının gözləmələrə/ tələblərə cavab verməməsinə görə keçirmişdir.

***Geri alma hüquqları.*** Səhmdarın nizamnaməyə onun hüquqlarını ciddi pozan dəyişikliklərin edilməsi və ya birləşmə, bölünmə və ya çevrilmə və ya daşınmaz əmlakın balans dəyərindən aşağı qiymətlə alınması, satılması və ya digərinə dəyişilməsi lehinə səs verməməsi halında şirkətdən onun səhmlərini geri almağı tələb etmək hüququ müəyyən edilməmişdir. Mülki Məcəllə qanunvericilikdə və ya şirkətin nizamnaməsində yol verildiyi halda səhmdarlara səhmlərin geri alınmasını tələb etmək hüququnu verən çox ümumi müddəa var. lakin konkret prosedurlar və şərtlər müəyyən edilməmişdir (Mülki Məcəllə §105-1.1).

***Müstəqil audit.*** Səhmdarların 10 faizi şirkətin təftiş komissiyası tərəfindən yoxlanmasını, və, həmçinin, şirkətdə audit yoxlamasının aparılmasını tələb edə bilər. (Mülki Məcəllə §106.6).

***Yığıncaqda qəbul olunmuş qərarların ləğv edilməsi üçün məhkəməyə müraciət etmək hüququ.*** Səhmdarın səhmdarların ümumi yığıncağında qəbul edilən qərara görə məhkəməyə şikayət vermək hüququ var, lakin qanun mübahisənin əsaslarını müəyyən etmir (Mülki Məcəllə §107-5.4). Məhkəmə sisteminin qeyri-effektivliyini nəzərə alaraq, həmin hüququn səhmdarlar üçün dəyəri aşağıdır.

***Hüquqların pozulmasına görə kompensasiya.*** Səhmdarlar hüquqlarının müdafiəsi məqsədilə QKDK-ə müraciət edə bilərlər və bu cür hallar baş vermişdir. QKDK səhmləri buraxan şirkətlərlə bağlı qanun və qaydaların pozulması hallarını araşdıra bilər. QKDK-nin qərarlarına görə məhkəməyə şikayət verilə bilər. QKDK işə inzibati qaydada baxa bilər və nəticədə birbaşa cərimələr tətbiq edə bilər, lakin məhkəmə qərarı olmadan şirkət tərəfindən səhmdara ödənilməli kompensasiyanı qiymətləndirə bilməz.

Qanuna əsasən QKDK-nin cərimələri fiziki şəxslər üçün 28-99 ABŞ dolları, hüquqi şəxslər üçün isə 99-330 ABŞ dolları təşkil

edir, bu da pozuntuların ciddi qarşısının alınması nisbətən aşağı məbləğlərdir. 2008-ci ildə 150 şirkətdən maliyyə hesabatlarının vaxtında təqdim edilməməsinə görə və digər 100 şirkətdə digər pozuntulara görə cərimə tutulmuşdur. Cərimələrin ödənilməsi məhkəmə icraçısı vasitəsilə həyata keçirilir və bu ödəmələrdə gecikmələrin yaranmasına gətirə bilər.

***Direktorları məhkəməyə vermək imkanı.*** Səhmdarların mülki hüquqla verilmiş məhkəməyə iddia ilə müraciət etmək ümumi hüququ var və nəzəriyyədə həmin hüquq müşahidə şurası və idarə heyətinin üzvlərinə də tətbiq olunmalıdır.

Açıqlama sənədlərini imzalayan şəxslər saxta açıqlamalara görə məsuliyyət daşıyır (Mülki Məcəllə §1078-11.7). Direktorların və rəhbər işçilərin fidusiar vəzifələri 2008-ci ildə müəyyən edilib (Mülki Məcəllə 49.3). Direktorlar və şirkətin əməkdaşları hərəkətlərə və ya hərəkətsizliyə görə məsuliyyətə cəlb oluna bilər və hüquqi şəxsin səhmdarları şirkətə həmin pozuntular nəticəsində vurulmuş zərərin ödənilməsini tələb etmək hüququna malikdirlər (Mülki Məcəllə 49.3). Lakin, həmin vəzifələr qanunda yaxşı müəyyən edilməyib. Rəhbərlik və müşahidə şurasının üzvləri arasında məlumatlılıq aşağı səviyyədədir.

***Ümumi məhkəmə tərəfindən təyin edilən kompensasiya.*** Nəzəriyyədə, səhmdarlar kompensasiya üçün məhkəməyə müraciət edə bilərlər. Hüquqi şəxslər arasında mübahisələr İqtisadi Məhkəmədə baxılır; tərəflərin biri fiziki şəxs olduqda mübahisələrə ümumi məhkəmədə baxılır.[34] Məhkəmə prosesi uzun ola bilər və onun natamam olması hesab olunur. Məhkəmə sisteminin zəifliyini, yəni, hakimlərin səhmdarların hüquqları ilə bağlı işlərdə mövcud olan məsələlərlə lazımi dərəcədə tanış olmaması və, eyni zamanda səhmdarların öz hüquqları barəsində az məlumatlı olması nəticəsində səhmdarların hüquqlarının çətin icra olunması görünür. Qanunvericilik birbaşa və törəmə iddialara icazə verir, lakin onlarla bağlı hədləri müəyyən etmir (kollektiv iddialar nəzərdə tutulmur).

**Prinsip IIIA 3: Faktiki saxlayıcıların göstərişi əsasında qəyyumlar tərəfindən səsvermə**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Qanunda qəyyumlar müəyyən edilmir. Səhmdarların reyestrində adları verilən nominal saxlayıcılar səhmdarların ümumi yığıncağının gündəliyini faktiki saxlayıcılara ötürməlidir. Nominal saxlayıcılar faktiki saxlayıcılardan səsvermə ilə bağlı göstərişlər almalıdır.[35]

BMK-nin 2007-ci ilin sorğusunda yalnız şirkətlərin 12% nümayəndə vasitəsilə səsvermə təlimatlarına malik idi.

**Prinsip IIIA 4: Sərhədlərarası səsvermə ilə bağlı maneələr aradan qaldırılmalıdır.**

***Qiymətləndirmə: Əsasən yerinə yetirilir***

Depozit şəhadətnaməsi şəklində səhmlər saxlanılmır. Çox az xarici investorlar portfel investisiyalarını qoyur.

**Prinsip IIIA 5: Ümumi yığıncaqda bütün səhmdarlara ədalətli yanaşılması**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Görünür ki, şirkətlərin prosedurları ümumiyyətlə səsvermə prosesini çətinləşdirmir və ya onu məsrəfli etmir.

***Səsvermə nəticələrinin açıqlanması.*** Səhmdarların ümumi yığıncağının protokolu üç gün ərzində hazırlanmalı, sədr və yığıncağın katibi tərəfindən imzalanmalı və 15 gün ərzində səhmdarlar açıqlanmalıdır. Sorğu əsasında səhmdara protokolun surəti təqdim olunmalıdır. (Mülki Məcəllə §107-5.3, 107-6.1, 107-6.3). BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərin əksəriyyəti (77%) səhmdarların ümumi yığıncağının nəticələrini yığıncağın bağlanmasından əvvəl elan etdilər, 12% hesabatı adi poçt vasitəsilə göndərir, 5% sifarişli məktubla və 6% digər vasitələrlə göndərilir. Respondentlərin dörddə-üç hissəsi (75%) səhmdarların ümumi yığıncağının nəticələrini ictimaiyyətə açıqlamayıb. Nəticələri açıqlayan bütün respondentlər onları KİV-lər vasitəsilə açıqlamışdır.

**Prinsip IIIB: Xidməti məlumatın istifadəsi ilə əqdlərin bağlanması və öz vəziyyətindən sui-istifadə qadağan edilməlidir**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***İnsayderlərin təcarəti ilə bağlı əsas qaydalar.*** İnsayderlərə hal-hazırda müşahidə şurasının və idarə heyətinin üzvləri olan və ya son altı ay ərzində üzvləri olmuş və ya səhmlərin 10 faizinə malik olan səhmdarlar aid olunur. Həmçinin, ictimaiyyətə açıq olmayan məlumatları əldə etmək imkanı olan (müqavilələr və ya insayderlər vasitəsilə) və idarə heyəti və ya müşahidə şurasının təsiri altında olan şəxslər insayderlər sayılır. İnsaydelərin ailə üzvlə qanunla xüsusi olaraq insayderlər kimi müəyyən edilir. İnsayderlər xidməti məlumatdan istifadə etməklə əqdlər bağlaya bilməz və onu üçüncü tərəflərlə açıqlamamalıdır.[36] Əqdlərin qadağan edilməsi müddətləri qanunvericilikdə müəyyən edilmir.

34 Mülki-Prosessual Məcəllə, Fəsil 3.

35 Mülki Məcəllə, §107-1.4, 1078-34. Nominal saxlayıcılar nominal səhmlərlə bağlı hər hansı hüquqları icra etmək üçün faktiki saxlayıcıdan göstəriş almalıdır. Nominal saxlayıcılar bağladığı əqdlər haqqında reyestri 3 gün ərzində reyestri məlumatlandırmalı və reyestr tərəfindən sorğunun verilməsindən 7 gün ərzində faktiki saxlayıcıların siyahısını təqdim etməlidir.

36 Qiymətli kağızlar bazarında xidməti məlumatın saxlanması. istifadəsi və verilməsi qaydaları, §2.2, 3; Mülki Məcəllə, §1078-47.

Qiymətli kağızlar bazarında yanlış və təhrif olunmuş məlumatların açılması, və haqsız reklamların keçirilməsi və, eyni zamanda yanlış, təhrif olunmuş və ya xidməti məlumatı verməklə digər şəxsləri ticarətə təhrik edilməsi qadağandır. Qiymətlərlə manipulyasiya, brokerlər tərəfindən öz vəziyyətlərindən sui-istifadə hallarına yol verilməsi və digər oxşar fəaliyyətlər qadağan olunur.[37] 2004-cü ildə qəbul olunmuş xidməti məlumatın istifadəsi ilə əqdlərin bağlanması qaydaları Mülki Məcəllə ilə tam uyğunlaşdırılmış deyil.[38]

***İnsayderlərin əqdləri haqqında məlumatların açıqlanması.*** İnsayderlər bağladıqları əqdləri haqqında məlumatları qeydiyyat üçün bir gün ərzində QKDK-ə təqdim etməlidirlər. QKDK əlavə məlumatın verilməsini tələb edə bilər və həmin məlumatın verilməməsi halında insaydere cərimə tətbiq edə, əqdi dayandıra və ya onun ləğv edilməsi üçün məhkəməyə müraciət edə və ya əqd haqqında məlumatı kütləvi informasiya vasitələrində verə bilər.[39] Qanunun yeni olmasına görə bunun faktiki işləməsini proqnozlaşdırmaq çətindir.

***Cinayət/mülki/inzibati sanksiyalar.*** Qanun QKDK-ə xidməti məlumatın istifadəsi ilə aparılan ticarətdə sui-istifadə hallarının qarşısının alınması üçün bazarın monitorinqi vəzifələrini tapşırır. BFB-nin ticarət departamenti ticarət fəaliyyəti haqqında gündəlik hesabatları hazırlayaraq QKDK-ə təqdim edir və, həmçinin, xidməti məlumatın istifadəsi ilə bağlanan əqdləri izləyir. MDM-in sahiblik haqqında məlumatı, həmçinin, insayder ticarətinin monitorinqində istifadə olunur. Qanun insayder ticarəti ilə bağlı inzibati sanksiyaları nəzərdə tutur, lakin cinayət məsuliyyətini nəzərdə tutmur. Peşəkar iştirakçılar xidməti məlumatın istifadəsi ilə bağlanan əqdləri aşkar etdikdə onları dayandırmalı və QKDK-ni xəbərdar etməlidirlər (MM §1078-47.3, 1078-47.4).

**Prinsip IIIC: Şuranın üzvləri və əsas vəzifəli şəxslər şirkətə birbaşa təsir göstərən hər hansı əqddə və ya məsələdə birbaşa, dolayısı ilə və ya üçüncü tərəflərin adından iştirakı və mühüm marağı barədə məlumatı şuraya açıqlamalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Aidiyyəti şəxslərlə əqdlər barədə məlumatın açıqlanması qaydaları.*** Aidiyyəti şəxslərlə əqdlər ilə bağlı hüquqi baza tam deyil, lakin təkmilləşdirilir. Mülki Məcəllədə icra orqanının üzvləri tərəfindən bağlanan MT əqdləri müşahidə şurasına açıqlanır və müşahidə şurası tərəfindən təsdiq olunur. (MM §107-10.5).

QKDK-nin 2008-ci ilin may ayında qəbul etdiyi qaydaları bank və sığorta şirkətləri olmayan şirkətlərə qarşı aidiyyəti şəxslərlə əqdlər ilə bağlı tələbləri müəyyən edir.[40] Aidiyyəti şəxslər əqdin prosedur tələblərini pozmaqla bağlanması nəticəsində şirkətə vurulmuş zərərə görə məsuliyyətə cəlb oluna bilərlər. Müşahidə şurasının üzvləri, icra orqanının üzvləri və struktur bölmələrin rəhbərləri əqddə özlərinin və ya yaxın qohumlarının marağı haqqında məlumatlı olduqları, lakin onu açıqlamadıqları halda məsuliyyət daşıyır. Şirkətin icra orqanı, müşahidə şurasının üzvləri və ya səhmdarları məhkəməyə müraciət edə və əqddə marağını açıqlamamış maraqlı tərəfin vurduğu zərər görə kompensasiyanın ödənilməsini tələb edə bilərlər.

AMB-nin banklarda aidiyyəti şəxslərlə əqdlər ilə bağlı ətraflı qaydaları var, lakin bu günə qədər həmin qaydaların icrası xəbərdarlığın verilməsi və pozuntunun aşkar edilməsi halında bəzi əqdlərin ləğv edilməsi ilə məhdudlaşmışdır. Müşahidə şurası, idarə heyəti və audit komitəsinin üzvləri özlərinin və ailə üzvlərinin mühüm kommersiya maraqları haqqında məlumatları bankın daxili qaydaları ilə müəyyən edilmiş müddətlərdə və prosedurlara uyğun olaraq müşahidə şurasına və idarə heyətinə açıqlayırlar. Aidiyyəti şəxslərlə əqdlər müşahidə şurası tərəfindən aidiyyəti şəxsin iştirakı olmadan təsdiq olunur (Banklar haqqında Qanun, §28). Müşahidə şurası AMB-ni barəsində məlumat verilmiş və ya aşkar edilmiş maraqların toqquşması halı haqqında xəbərdar edir və məsələ ilə bağlı qərar haqqında məlumat vermək üçün səhmdarların növbədənkənar yığıncağını çağırır. Aidiyyəti şəxslərə müşahidə şurası və idarə heyətinin üzvləri və, eyni zamanda, bankın bütün komitələri, əməkdaşları, onların ailələri, bankın və onun nəzarət etdiyi hər hansı digər qurumların səhmlərinin ən azı 10%-nə malik olan səhmdarlar aid edilir. Qaydalar, həmçinin, banklar tərəfindən aidiyyəti şəxslərə kreditlərin bazar şərtləri əsasında və tam təminatla və hüquqi şəxsləri ümumi kreditlərin maksimum 10 faizinin, fiziki şəxslərə isə 3 faizinin verilməsini tələb edir. (Banklar haqqında Qanun, §34.2.5).

Azərbayan Respublikasının Sığorta Fəaliyyəti haqqında Qanunu aidiyyəti şəxslərin tərifini verir və aidiyyəti şəxslərlə əqdərin müşahidə şurasının təsdiqi əsasında bağlanmasını müəyyən edir. Aidiyyəti şəxslərlə əqdlərin ümumi həcmi şirkətin aktivlərinin 10 faizindən artıq olmamalıdır. Müşahidə şurası qərarın verilməsindən öncə təftiş komissiyasından əqdin düzgünlüyü barəsində rəy istəyə bilər.

Bazar iştirakçıları xüsusilə "cib" banklarına malik olan sənaye-maliyyə qrupları kontekstində aidiyyəti şəxslərlə əqdlərin geniş yayılmasını hesab edir.

***Aidiyyəti şəxslərlə əqdlərin təsdiqi / şura / səhmdarların ümumi yığıncağı tərəfindən əqdlərin təsdiqi qaydaları.*** QKDK-nin qaydaları (QKDK-nin aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydaları, maddə 1.3.2) aidiyyəti tərəflərdən əqdin

37 Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyalarının qarşısının alınması qaydaları., §2.1.

38 Misal üçün, beynəlxalq qaydalarla müqayisədə xüsusilə sərt qayda olaraq, Mülki Məcəllənin §107-10.6 maddəsi, müşahidə şurası və idarə heyətinin üzvlərindən səhmləri ilə əqdləri bağlamaqdan əvvəl bu barədə məlumatın kütləvi informasiya vasitələrində açıqlanmasını tələb edir.

39 Qiymətli kağızlar bazarında xidməti məlumatın saxlanması. istifadəsi və verilməsi qaydaları, §2.4, 2.5, 4.Əlavə məlumatlara aşağıdakılar daxildir: insayderin bağladığı əqdin tarixi və yeri; əqdin istiqaməti; əqdin iştirkçıları; qiymətli kağızın növü, nominal dəyəri və dövlət qeydiyyat nömrəsi, əqdin həcmi və məbləği.

40 QKDK-nin aidiyyəti şəxslərləaidiyyəti şəxslərlə əqdlərin bağlanması və açıqlanması qaydaları (May 2008).

bağlanması, əqd və əqddə marağın növü və həcmi haqqında müşahidə şurasının dərhal yazılı qaydada məlumatlandırılmasını tələb edir. Onlara müşahidə şurası və icra orqanının üzvləri, struktur bölmələrin rəhbərləri və, eyni zamanda onların yaxın qohumları daxildir.

Aidiyyəti tərəflərin şirkətin aktivlərinin 5 faizindən artıq olmayan əqdləri müşahidə şurasının təsdiqi əsasında bağlana bilər. QKDK-nin qaydaları direktorun əqddə marağı olduğu halda səsvermədən imtina etməyi tələb etmir. Dəyəri şirkətin aktivlərinin 5 faizindən artıq olan aidiyyəti şəxslərlə əqdlər səhmdarların ümumu yığıncağı tərəfindən təsdiq olunur. Səhmdarların ümumi yığıncağı, həmçinin, şirkətin müşahidə şurasının əqddə marağı olanda və ya aidiyyəti tərəf şirkətin yeganə icra orqanı (Baş Direktor) olanda, aidiyyəti şəxslərlə əqdləri təsdiq edir. Səhmdarların ümumi yığıncağına təsdiq üçün təqdim olunan aidiyyəti şəxslərlə əqd haqqında zəruri məlumat, o cümlədən, aidiyyəti tərəflərin adları, marağın növü və əqdin əsas şərtləri haqqında məlumat təqdim olunmalıdır. Səhmdarların ümumi yığıncağının qərarları səslərin sadə çoxluğu ilə qəbul olunur.

BMK-nin 2007-ci ildə keçirdiyi sorğusunda iştirak edən şirkətlərdə aidiyyəti şəxslərlə əqdlərin təsdiq edilməsi səlahiyyətlərinin idarəetmə orqanları arasında paylaşdırılması görünür: idarəetmə (72%), ondan sonra səhmdarların ümumi yığıncağı (32%) və müşahidə şurası (27%).

***Maraqların toqquşması ilə bağlı qaydalar və biznes imkanlarından istifadə.*** Səhmdar cəmiyyətlərində insayderlərin şirkətin biznes imkanlarından şəxsi faydalanma üçün istifadə etməsi və ya şirkətin insayderlərinin rəqib şirkətlərdə iştirak paylarına malik olması və ya həmin şirkətlərin idarə edilməsində iştirakı ilə bağlı konkret qaydalar yoxdur. Aiddiyəti tərəflərə kreditlərin verilməsinə icazə verilir. Banklarda idarə heyəti və müşahidə şuralarının üzvləri vəzifə borcunu yerinə yetirərkən onlara məlum olan biznes imkanlarını əvvəlcədən Şuraya açıqlamadan və müstəsna olaraq banka təklif etmədən həmin biznes imkanlarından istifadə etməməlidir.[41]

## HİSSƏ IV: TƏRƏF MÜQABİLLƏRİNİN KORPORATİV İDARƏETMƏDƏ ROLU

**Korporativ idarəetmə çərçivəsi tərəf müqabillərinin qanunla və ya qarşılıqlı razılaşma yolu ilə müəyyən edilmiş hüquqlarını qəbul etməli və tərəf müqabilləri arasında var-dövlətin artırılması, iş yerlərinin yaradılması sahəsində fəal əməkdaşlığı və müəssisələrin maliyyə davamlılığını dəstəkləməlidir.**

**Prinsip IVA: Tərəf müqabillərinin qanunla və ya qarşılıqlı razılaşma yolu ilə müəyyən edilmiş hüquqlarına əməl olunmalıdır**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Tərəf müqabilləri üçün aidiyyəti məcəllələrin siyahısı.*** Korporativ sosial məsuliyyət ilə bağlı məlumatlılığın səviyyəsi aşağıdır. Şirkətdən tərəf müqabillərinin hüquqlarının tanınmasını və tərəf müqabilləri ilə fəal əməkdaşlığın dəstəklənməsini tələb edən xüsusi hüquqi müddəalar yoxdur.

Özəlləşdirmə proqramı zamanı, işçilərin[42] şirkətlərin səhmlərini əldə etmək hüququ var idi və bir çox kiçik səhmdarlar həmin şirkətlərdə keçmişdə çalışıb və ya hal-hazırda çalışır. Onlar hüquqlarının icrası sahəsində digər səhmdarların üzləşdiyi eyni problemlərlə üzləşir.

Əmək münasibətləri Əmək Məcəlləsi ilə tənzimlənir. İşçi həmkarlar ittifaqına və ya digər təmsilçilik orqanları və ya digər təmsilçilik orqanları və ictimai birliklərin üzvü olmaq, tətil, mitinq, toplantılar və digər kütləvi tədibrlərdə iştirak etmək hüququna malikdir.[43] Kreditorların hüquqları Mülki Məcəllə və Müflisləşmə və İflas haqqında Qanunla tənzimlənir.[44] Şirkətlərin istehlakçılarla bağlı vəzifələri Mülki Məcəllədə və İstehlakçı Hüquqlarının Müdafiəsi haqqında Qanunda müəyyən edilir.[45] Şirkətlərin ətraf mühitlə bağlı vəzifələri Ətraf Mühitin Mühafizəsi haqqında Qanun və Yerin Altından Neftin Hasilatı haqqında Qanunda müəyyən edilir.[46] Tərəf müqabillərinin hüquqları ilə bağlı könüllü məcəllələr yoxdur.

**Prinsip IVB: Tərəf müqabillərinin maraqları qanunla müdafiə olunduğu hallarda, tərəf müqabillərinin hüquqların pozulmasına görə faktiki kompensasiya almaq hüququ olmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Məhkəmə və aidiyyəti nazirliklər icra səlahiyyətlərinə malikdir və kompensasiyanı təmin edə bilərlər.

**Prinsip IVC: İşçilərin iştirakı ilə bağlı işin səmərəliliyini artıran mexanizmlərin inkişafına imkan verilməlidir.**

41 Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları, §7.4.2.

42 Özəlləşdirmə üzər ikinci dövlət proqramı; Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı.

43 Əmək Məcəlləsi, §9.

44 Qısaca olaraq onlar aşağıdakılardır: fiziki şəxslərdən və hüquqi şəxslərin borcun ödənilməsini tələb etmək və icra etmək; aidiyyəti tərəflərdən vəzifələrin yerinə yetirilməsini tələb etmək; borcalanın müflislik prosedurundan keçməsini tələb etmək.

45 Qısaca, bunlar dövlət standartlarına uyğun olan mallar və xidmətlər almaq hüququdur və malın mənşəyi, brend adı, istehal tarixi, "son istifadə" müddəti və digər aidiyyəti məlumatları almaq hüququdur.

46 Qısaca bunlar aşağıdakılardır: ətraf mühitin mühafizəsi ilə bağlı tədbirlərin görülməsi; təhlükəli tullantılarla bağlı qoyulmuş limitlərə əməl olunması; ekoloji normalarla bağlı daxili qaydaların hazırlanması (ekoloji audit, ekoloji pasport və s.) və müntəzəm olaraq aidiyyəti orqana hesabat verilməsi.

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

İşçilər özəlləşdirmə nəticəsində alınmış səhmlərə malikdirlər və nəzarət paylarına malik olan bir çox səhmdarlar şirkətlərə nəzarətdə və onların idarə edilməsində iştirak edir. Lakin, bazarın likvidliyini və minimal hüquqi çərçivəni nəzərə alaraq, səhmlərin verilməsi vasitəsilə əməyin ödənilməsi tətbiq olunmur və bunun inkişafı çətin olacaq. Kiçik sayda banklar və xarici investorların payı olan digər şirkətlər istisna olmaqla, işin səmərəliliyi əsasında əməyin ödənilməsi ilə bağlı məcəllə yoxdur və müvafiq təcrübə də azdır.

**Prinsip IVD: Korporativ idarəetmə prosesində iştirak edən tərəf müqabillərinə aidiyyəti, yetərli və etibarlı məlumatları mütəmadi olaraq və vaxtında əldə etmək imkanı verilməlidir.**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Səhmlərə malik olan işçilər və əhali səhmdarların və investorların korporativ məlumatların əldə edilməsində üzləşdiyi eyni problemlərlə üzləşir.

**Prinsip IVE: İşçilər və onların təmsilçilik orqanları daxil olmaqla, tərəf müqabilləri qanuna və etikaya zidd olan təcrübələrlə bağlı narahatlıqlarını şuraya sərbəst bildirmək hüququna malik olmalı və buna görə onların hüquqları pozulmamalıdır.**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

***Siqnalçılarla bağlı qaydalar.*** Qanunda siqnalçılarla bağlı qaydalar müəyyən edilməyib və çox az şirkətin bu sahədə siyasətləri var.

**Prinsip IVF: Korporativ idarəetmə çərçivəsi səmərəli və effektiv müflislik çərçivəsi və kreditor hüquqlarının səmərəli icrası ilə tamamlanmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Müflislik, girov/təminat və borcların yığılması/icrası məcəllələrinin səmərəliliyi.*** Son zamanlara qədər müflisləşmə və borcların yığılması prosedurları ləng və qeyri-səmərəli olmuşdur. Son zamanlar kredit reyestrləri, lizinq və ödənilməmiş borcların yığılması və təminatın alınması ilə bağlı müəyyən islahatlar keçirilmişdir.

Qanuna əsasən kreditorlar dividendlərin ödənilməsini dayandıra bilməzlər. Kreditorlar borclunun nizamnamə kapitalının azaldılması vasitəsilə borcun ödənilməsini tələb etmək hüququna malikdirlər (Mülki Məcəllə §105.2). Maliyyə vəziyyəti çətin olan borclular üçün erkən xəbərdarlıq mexanizmləri yoxdur. Hüquqi rejim artıq müflisliyə uğramış şirkətin səhmlərinin alqı-satqısını məhdudlaşdırmır.

Dünya Bankı tərəfindən işlənmiş standart tədbirlər onu təsdiq edir ki, 2005-ci ilin SNƏH hesabatından sonra kreditorların hüquqları və məlumatlandırılması əhəmiyyətli dərəcədə yaxşılaşıb və regionun digər ölkələri ilə müsbət müqayisə olunur. Lakin, həmin göstəricilər əsasən kağızda qanunlara aiddir və təcrübəni tam əhatə etmir.( www.doingbusiness.org ünvanında “Doing Business 2008” hesabatına baxın).

| Kreditor hüquqlarının göstəriciləri | Azərbaycan | Şərqi Avropa və Mərkəzi Asiya üzrə orta göstərici | İƏİT-ni orta göstəricisi |
|---|---|---|---|
| Hüquqlar indeksi (mümkün 10 haldan) | 8 | 6.3 | 6.8 |
| Kreditlər haqqında informasiya indeksi | 5 | 4.1 | 4.8 |
| Dövlət kredit reyestrinin əhatəliliyi (faizlə) | 3.1 | 4.6 | 8.4 |
| Özəl reyestrlərdə əhatəliliyi (faizlə) | 0 | 17.6 | 58.4 |

## HİSSƏ V: AÇIQLAMA VƏ ŞƏFFAFLIQ

**Korporativ idarəetmə çərçivəsi şirkətlə bağlı bütün mühüm məsələlərin, o cümlədən şirkətin maliyyə vəziyyəti, mülkiyyəti və idarə edilməsi haqqında məlumatların vaxtında və dəqiq açıqlanmasını təmin etməlidir.**

**Prinsip VA: Açıqlama aşağıdakıları daxil edən, lakin onlarla məhdudlaşmayan mühüm məlumatları əhatə etməlidir:**

**Prinsip VA 1: Şirkətin maliyyə və əməliyyat nəticələri**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***İllik hesabat.*** Bütün SC-lər audit yoxlaması aparılmış maliyyə hesabatlarını daxil edən illik hesabatlarını (xülasə şəklində) dərc etməil və QKDK-ə təqdim etməlidirlər (§1078-43.1). İllik hesabata balans hesabatı, mənfəət və zərər hesabatı, auditorun hesabatı, səhmdarların sayı, səhmlərin 10%-dən artıq payına malik olan səhmdarların siyahısı (səhmdarın adı, saxladığı səhmlərin sayı, kapitalda faizi), şirkətin digər hüquqi şəxslərdə 10% və ondan artıq iştirak payları; şirkətin istifadə

etdiyi səhmlərin reyestri və ya şirkət tərəfindən reyestrin aparılmasını təsdiq edən qeyd və səhmdarların ümumi yığıncağı (yığıncağın tarixi, keçirildiyi yeri, protokolu) haqqında məlumat daxil olmalıdır.

İllik hesabata nağd vəsaitin hərəkəti haqqında hesabatın daxil edilməsi tələb edilmir və illik hesabatların KİV-lərdə dərc edilməsi qaydası yoxdur.

İllik hesabat QKDK-ə səhmdarların ümumi yığıncağının keçirilməsindən sonra 15 gün ərzində təqdim olunmalı və 30 gün ərzində (yəni maliyyə ilinin sonundan yeddi ay ərzində) kütləvi informasiya vasitələrində dərc olunmalıdır.[47]

Təcrübədə yalnız bank olmayan müəyyən SC-lər tam illik hesabatlarını dərc edir və təqdim edir, lakin bir neçə iri şirkət mətbuatda əsas rəqəmləri dərc edirlər.[48] BMK-in 2007-ci ildə keçirdiyi sorğuda otuz yeddi respondent (37%) illik hesabatlarının açıqlanmasını və yalnız otuz üç respondent (33%) balans hesabatlarının açıqlanmasını bildirmişdir.

Banklar maliyyə ilinin sonundan beş ay ərzində MBHS-lara uyğun olaraq hazırlanmış və audit yoxlaması aparılmış icmal maliyyə hesabatlarını hazırlamalı və AMB-ə təqdim etməli, kütləvi informasiya vasitələrində dərc etməli və öz internet səhifələrində yerləşdirməli və səhmdarlara və, həmçinin, müştərilərinə (sorğu əsasında) təqdim etməlidir. Açıqlanmış maliyyə məlumatı idarə heyətinin sədri və baş mühasib tərəfindən imzalanmalıdır (Banklar haqqında Qanun §12, 45.1). Faktiki olaraq, illik hesabatları 15-20 bank dərc edir.

***Konsolidasiya.*** İctimai əhəmiyyətli qurumlardan və banklardan konsolidə olunmuş hesabatların təqdim olunması tələb olunur.

***Rəhbərliyin müzakirəsi və təhlili.*** Aktivlərin dəyəri 1.000.000 ABŞ dollarından və gəliri 500.000 ABŞ dollarından artıq olan şirkətlərdən növbəti maliyyə ili üzrə planları əhatə edən "işlərin vəziyyəti" haqqında hesabatın təqdim edilməsini tələb edən müddəa qanunda çıxarılmışdır. BMK-nin 2007-ci ilin sorğusunda iştirak edən şirkətlərin 41% illik hesabatlarına rəhbərliin müzakirəsi və təhlilini daxil etmişdir.

***Nəzarət, sanksiyalar və bərpa tədbirləri.*** QKDK alınmış şikayətlər əsasında yoxlamaların aparılması yolu ilə tələblərin yerinə yetirilməsinə nəzarət edir. QKDK bildirişlər və xəbərdarlıqlar verə, cərimələr tətbiq edə, ticarəti dayandıra, əqdləri ləğv edə və pozuntuya yol vermiş şirkətin fəaliyyətini məhdudlaşdıra bilər.[49] Ötən il ərzində QKDK hesabatların verilməsi ilə bağlı tələblərin pozulmasına görə 150-dən artıq SC-yə cərimə tətbiq etmişdir. AMB banklar tərəfindən tələblərin yetirilməsinə ciddi nəzarət edir.

**Prinsip VA 2: Şirkətin məqsədləri**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Yenə də, aktivlərin dəyəri 1.000.000 ABŞ dollarından və gəliri 500.000 ABŞ dollarından artıq olan şirkətlərdən növbəti maliyyə ili üzrə planları əhatə edən "işlərin vəziyyəti" haqqında hesabatın təqdim edilməsini tələb edən müddəa qanunda çıxarılmışdır.[50]

Bankın müşahidə şurası və idarə heyəti növbəti 3 il müddətinə bankın strateji planını və missiya hesabatını hazırlayaraq təsdiq üçün səhmdarların ümumi yığıncağına təqdim etməli və onları mütəmadi olaraq nəzərdən keçirməlidir.[51]

**Prinsip VA 3: Majoritar səhmlər və səsvermə hüquqları**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Şirkətlər illik hesabatlarında səhmlərin 10% və daha artıq payına malik olan səhmdarlar haqqında məlumatları açıqlamalıdır. Səhmlərin dolayısı ilə və birbaşa sahibləri haqqında məlumatların açıqlanması tələb olunmur. Hal-hazırda həmin tələblərə az əməl olunur.[52]

BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərin 27% mühüm iştirak paylarına malik olan səhmdarlar haqqında məlumatları açıqlayıblar. Yalnız dördü müşahidə şurası və rəhbərliyin üzvlərinin səhmləri haqqında məlumat açıqlayıb. Faktiki nəzarət edən səhmdarların (səhmlərin 50 faizindən artıq payına malik olan səhmdarlar) şəxsiyyətləri sorğuda iştirak etmiş şirkətlərin yalnız ikisi tərəfindən açıqlanıb.

**Prinsip VA 4: Müşahidə şurası və idarə heyətinin üzvləri və əsas vəzifəli şəxslərin mükafatlandırılması siyasəti və direktorlar haqqında məlumat**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

47 Emitentlərin ililk hesabatlarının hazırlanması və açıqlanması qaydaları, §2.2, 3; Mülki Məcəllə §107.6, 121.1, 124, 1078-43.3.

48 Bazar iştirakçılarının hesablamalarına görə, 1700 SC-dən təxminən 100-200 SC, QKDK-nin hesablamalarına əsasən SC-lərin 25% bunu edir.

49 İnzibati Xətalar Məcələlsi, §206.0.1, 206.0.5, 214, 324; İnvestorların Hüquqlarının Müdafiəsi haqqında Qanun, §6, 8, 9, 11.

50 Mülki Məcəllə, §122.1, 125, Nazirlər Kabinetinin 5 aprel 2001-ci il tarixli 77 nömrəli Fərmanı; Mülki Məcəllənin təsdiqi, icrası və onlardan əmələ gələn problemlərin hüquqi tənzimlənməsi haqqında 386 nömrəli fərman, 2000.

51 Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları, §3.

52 İnvestisiya qiymətli kağızlarının emitentləri tərəfindən illik hesabatların hazırlanması və açıqlanması qaydaları, §2.2.8; Mülki Məcəllə, §124.4, 1078-47.1.4. Açıqlanan məlumatlara səhmdarların saxladığı səhmlərin sayı, idarə heyəti / müşahidə şurasında tutduğu vəzifələri və (sahibin hüquqi şəxs olduğu halda) müşahidə şuraları və idarə heyətlərinin üzvləri daxildir. Şirkətlər aidiyyəti şirkətlərdə iştirak payları haqqında məlumatları illik hesabatların qeydlərində açıqlayır.

Müşahidə şurasının üzvlərinin adları şirkətlər reyestrinə təqdim edilməli və illik hesabatda əks olunmalıdır. Maliyyə hesabatlarının qeydlərində əmək haqları, mənfəət payları, çəkilmiş məsrəflərin əvəzinin ödənilməsi, sığorta məsrəfləri, komissiya haqları və müşahidə şurası və idarə heyətinin üzvlərinə digər ödənişlər göstərilməlidir. Müşahidə şurası və ya idarə heyətinin üzvü qismində olmayaraq göstərilən xidmətlərə görə ödənişlər ayrı göstərilməlidir. Təcrübədə, ictimaiyyətin şirkətin reyestri və ya illik hesabatlarına asan çıxışı hələ də yoxdur, və səhmdarlar üçün həmin məlumatları əldə etmək çətin ola bilər.

BMK-nin 2007-ci ilin sorğusunda şirkətlərin yalnız iki faizi ayrı-ayrılıqda və ya birgə olaraq müşahidə şurasının üzvlərinin bioqrafiyası və ya onların mükafatlandırılması haqqında məlumatlar açıqlamışdır və yalnız üç faizi rəhbərliklə bağlı həmin məlumatları açıqladılar.

**Prinsip VA 5: Aidiyyəti tərəflərin əqdləri**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

QKDK-nin yeni qaydaları şirkətlərdən dəyəri şirkətin aktivlərinin 5 faizindən artıq olan aidiyyəti tərəflərin əqdləri haqqında məlumatların açıqlanmasını tələb edir. Həmin əqdlər haqqında məlumat əqdin bağlanmasından sonra beş iş günü ərzində QKDK-ə, kütləvi informasiya vasitələrində və şirkətin rəsmi internet səhifəsində (olduğu halda) açıqlanmalıdır. Aşağıdakı məlumatlar göstərilməlidir: əqdin bağlanması tarixi, əqdin tərəfləri, o cümlədən onların marağının təbiəti, əqdin həcmi (şirkətin xalis aktivləri münasibətdə satılan və ya alınan malların faizi) və əqdin məbləği və digər əsas şərtləri.

Aidiyyəti tərəflərin əqdləri haqqında məlumat illik hesabatda da açıqlanmalıdır. Aidiyyəti Tərəflər üzrə Milli Audit Standartı (2009) qanunvericiliyə əsasən bu münasibətdə müəyyən qaydaları tətbiq edir və BMUS 24 (MHBS əsasında hesabatları təqdim edən şirkətlər üçün), həmçinin, aidiyyəti şəxslərlə əqdlər haqqında məlumatların açıqlanmasını tələb edir. Təcrübədə, həmin tələblər haqqında məlumatlılıq aşağı səviyyəsidir və həmin əqdlər şəffaf deyil.

BMK-nin 2007-ci ilin sorğusunda aidiyyəti şəxslərlə əqdlərin açıqlanması aşağı səviyyədə idi. Sorğuda iştirak etmiş şirkətləri beş faizi aidiyyəti tərəflərin əqdləri haqqında məlumatları açıqladılar və dörd faizi mühüm əqdlər haqqında məlumatları açıqladılar. Yalnız on səkkiz faiz hər ikisini açıqlayıb. Yetmiş üç faiz onlardan heç birini açıqlamayıb.

**Prinsip VA 6: Proqnozlaşdırılan risk faktorları**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Daha iri SC-lər tərəfindən təqdim olunması tələb olunan işlərin vəziyyəti haqqında hesabat risk faktorlarını əhatə etməlidir. Banklar MHBS 7 standartına uyğun olaraq maliyyə hesabatlarının qeydlərində risk amillərini göstərməlidirlər, lakin AMB-nin bildirdiyinə görə banklar MHBS 7-nin tətbiqində çətinlik çəkmişdilər. AMB həmin sahədə təlimlər keçirməyi planlaşdırır.

**Prinsip VA 7: İşçilər və digər tərəf müqabilləri ilə bağlı məsələlər**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

İşçilər və digər tərəf müqabilləri ilə bağlı məsələlərin açıqlanması konkret tələb olunmur.

**Prinsip VA 8: İdarəetmə strukturları və siyasətləri**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Şirkətin idarəetmə strukturları və siyasətlərinin açıqlanması ilə bağlı hüquqi tələb yoxdur.

BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərin yalnız beş faizi tərəfindən ictimaiyyətə korporativ idarəetmə siyasəti və prinsipləri açıqlanıb və yalnız altı faiz nizamnamə və əsasnamələrini açıqlamlışdır.

**Prinsip VB: İnformasiya mühasibat və maliyyə və qeyri-maliyyə açıqlamalarının yüksək keyfiyyət standartlarına əsasən hazırlanmalı və açıqlanmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***MHBS-lara əməl olunma.*** 2004-cü ildə qəbul olunmuş Mühasibat Uçotu haqqında Qanun bütün ictimai əhəmiyyətli qurumlardan 1 yanvar 2008-ci il tarixindən başlayaraq konsolidə olunmuş maliyyə hesabatlarının MBHS-lara uyğun olaraq hazırlanmasını tələb edir. Bura sığorta şirkətləri, investisiya fondları, qiymətli kağızları fond birjasında ticarət olunan SC-lər və illik gəlir, işçilərin sayı və ya aktivləri müəyyən edilmiş minimal həddən yüksək olan digər kommersiya təşkilatları daxildir.[53] Digər SC-lər MHBS-ları və ya yenidən baxılmış Milli Mühasibat Uçotu Standartlarını tətbiq edə bilərlər. Yeni MMUS Maliyyə Nazirliyi tərəfindən hazırlanıb və MHBS-lara əsaslanır, lakin yerli şirkətlərin istifadəsi üçün sadələşdirilmişdir. MHBS-larla fərqlər MMUS-larda açıqlanır.

53 Azərbaycan Respublikasının Mühasibat Uçotu haqqında Qanunu 2004 2.9

Mühasibat Uçotu haqqında Qanun ictimai əhəmiyyətli qurumlardan auditorun hesabatı daxil olmaqla, maliyyə hesabatlarını onların internet səhifələrində yerləşdirməyi, mətbuatda dərc etməyi və sorğu əsasında təqdim etməyi tələb edir.

Banklardan MHBS-lara uyğun konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanması tələb olunur (Banklar haqqında Qanun, §43.1, 43.2, və 44.1).

Faktiki olaraq, Azərbaycanda maliyyə hesabatları tədricən beynəlxalq standartlara yaxınlaşır. BMK-nin Korporativ İdarəetmə Layihəsi, Dünya Bankı və bank sektorunda AMB müəyyən banklara və SC-lərə MHBS-ları tətbiq etməyə kömək edir. Lakin MHBS-lar bank sektorunda çox az və əsasən müəyyən xarici kapitalı olan şirkətlərdə tətbiq olunur. Bəzi SC-lər hələ də, vergi uçotu standartlarını tətbiq edir. MHBS-ları tətbiq edən banklar və şirkətlərdə auditor MHBS-ların tətbiqində ciddi yardım göstərə bilərlər və çox az SC daxili imkanlar hesabına MHBS-ları tətbiq edə bilərlər. Nə qədər SC-nin ictimai əhəmiyyətli qurumlara aid edilməsi və MHBS-ları tətbiq etmək tələbi haqqında məlumatlı olması məlum deyil.

BMK-nin 2007-ci ilin sorğusunda respondentlərin 45% maliyyə hesabatlarının MHBS-lara uyğun olaraq hazırlanmasını bildirib, lakin sorğuda iştirak etmiş şirkətlərin yalnız 15% nağd pul dövriyyəsi haqqında hesabatı açıqlayıb, sonuncu isə MHBS-lara əsasən maliyyə hesabatlarının tam dəstinin məcburi komponentidir.[53]

***Tələblərin yerinə yetirilməsinə nəzarət.*** QKDK SC-lər tərəfindən və AMB banklar tərəfindən hesabatların təqdim edilməsi tələblərinin yerinə yetirilməsinə.

**Prinsip VC: Maliyyə hesabatlarında şirkətin maliyyə vəziyyətinin və bütün mühüm aspektlərdə şirkətin fəaliyyətinin səmərəliliyin düzgün əks etdirilməsi haqqında müşahidə şurası, idarə heyəti və səhmdarlara obyektiv və kənar rəyin verilməsi məqsədilə illik audit yoxlaması müstəqil, səriştəli və ixtisaslı auditor tərəfindən aparılmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***BAS-lara əməl olunma.*** Azərbaycanda audit standartları BAS-lara uyğunlaşma prosesindədir və BAS-ların tam versiyası onların tərcümə olunmuş variantının hazır olmasından sonra daha sonra 2009-cu ildə qəbul olunacaq. 2007-ci ilin qaydaları banklardan BAS-ların tətbiq edilməsini tələb edir.

***Audit keçiriləcək təşkilatlar.*** SC-lər və bankların maliyyə hesabatlarında kənar audit yoxlamaları aparılmalıdır.[54] 2005-ci ilin SNƏH hesabatına uyğun olaraq, "audit sektorunun yaxşı inkişaf etməməsi Qanunun səmərəli icrasına mane edə bilər. Bazar iştirakçılarının hesablamalarına görə, açıq SC-lərin yalnız 20% kənar audit yoxlamalarını aparır". Həmin dövrdən sonra tələblərin yerinə yetirilməsi ilə bağlı vəziyyət yaxşılaşıb, lakin bütün SC-lər tərəfindən tələblərin yerinə yetirilib-yetirilməməsi aydın deyil.

***Auditorun müstəqilliyi.*** Lisenziya əsasında fəaliyyət göstərən auditor şirkət və ya onun səhmdarları / rəhbərləri ilə əmlak maraqları ilə və ya keçmişdə həmin şirkətin işçisi olduğuna görə əlaqəli ola bilməz.[55] Auditorların məcburi rotasiyası ilə bağlı tələb yoxdur. Başqa xidmətlərin göstərilməsi auditorlara bir qayda olaraq qadağan olunmur.[56] Auditor tərəfindən göstərilən digər xidmətlərin haqları açıqlanmır. Təcrübədə, auditin müstəqilliyi yüksək deyil, bəzi auditorlar müştərilərinə hesabatları hazırlamağa kömək edir.

***Audit komitəsi.*** İctimai əhəmiyyətli qurumlardan audit komitəsinin yaradılması tələb olunur (Daxili Audit haqqında Qanun 4.2). Qanuna əsasən audit komitəsinin vəzifələrinə kənar auditorların hesabatlarına nəzarət, daxili audit və nəzarət sistemləri və riskin idarə edilməsi daxildir. Lakin, qanunda audit komitəsinin səhmdarların ümumi yığıncağına və ya müşahidə şurasına tabe olması müəyyən edilmir. Qanun, həmçinin, audit komitəsinin üzvlərinin sayı, iclasların keçirilməsi müddətləri və müstəqillik kriteriyasını müəyyən etmir.

Bankların məcburi audit komitəsi və bütün SC-lərin təftiş komissiyaları var. Onlar şuranın komitələri deyil və aşağıda müzakirə olunur.

***Auditə nəzarətlə bağlı tələblər.*** Audit xidmətləri həm sektorun nümayəndələri, həm Milli Məclis və Hökumət tərəfindən seçilmiş üzvlərdən ibarət olan Auditorlar Palatası tərəfindən tənzimlənir. Palata, həmçinin, mövcud hüquqi sənədləri yeniləşdirir, audit standartlarını hazırlayır və, eyni zamanda monitorinqi həyata keçirir və onların icrasını təmin edir. Palatanın xəbərdarlığın verilməsi, yoxlamaların aparılması və auditorlardan lisenziyanın geri çağırılması kimi intizam səlahiyyətləri var. Palata, həmçinin, auditorlar və müştərilər arasında mübahisələri həll edir (buna nail ola bilmədikdə, mübahisə məhkəməyə verilir). Palata yalnız xüsusi hallarda, misal üçün ildə ən azı üç dəfə audit yoxlamasının keyfiyyətsiz aparılması, saxta iddialar əsasında lisenziyanın alınması və ya qanunun kobud pozulması halında auditordan lisenziyanı geri çağıra bilər.[57] Təcrübədə, palata vaxtaşırı auditorların lisenziyalarını geri çağırır və audit şirkətlərində yoxlamalar aparır. Lakin, bazar iştirakçıları və 2006-cı ilin Mühasibat və Audit üzrə SNƏH-i Palata tərəfindən auditin keyfiyyətinə səmərəli nəzarət etməsinə şübhə altına qoyur və onun bu sahələrdə potensialı məhduddur. AMB, həmçinin, bankların auditorlarına və audit yoxlamalarına nəzarət edir.

54 Mülki Məcəllə, §99.2, 107.6,; Banklar haqqında Qanun, §44; Emitentlər tərəfindən illik hesabatların hazırlanması və açıqlanması qaydaları.

55 Mülki Məcəllə §107.6,Audit Xidməti haqqında Qanun §18, Auditorların Peşəkar Etika Məcəlləsi, bölmə 8.

56 Brokerlər, dilerlər, investisiyalar üzrə məsləhətçilər və ya investisiya bankları ilə bağlı xidmətlər ixtisna olmaqla. Mülki Məcəllə §1078-28.4, Auditorların Peşəkar Etika Məcəlləsi, 9 və 10 maddələri.

57 Audit Xidmətləri haqqında Qanun, §9, 15, 19, 20; Hesablama Palatasıın Nizamnaməsi 1995, §1, 8.

***Auditin icrası peşəkar / ixtisaslı aparılır.*** Bir sıra yerli audit firması, müstəqil auditorlar fəaliyyət göstərir və beynəlxalq firmaların, o cümlədən, həm "Dördlüyün" üzvləri, həm də ikinci pilləyə aid olan beynəlxalq firmaların sayı artmaqdadır. Bir sıra banklara və, həmçinin, digər maliyyə şirkətləri və neft sektoruna xarici firmaların filialları xidmət göstərir və xarici kapitalı olan şirkətlər, həmçinin, beynəlxalq firmaların xidmətlərindən istifadə edir. Xarici firmaların son zamanlarda fəallığının artması və, həmçinin, mühasiblərin və auditorların təlimi ilə bağlı müxtəlif səylərin görülməsi nəticəsində audit yoxlamalarının keyfiyyətinin artması hesab olunur. Lakin, bazarın bir çox iştirakçısı auditin keyfiyyətinə və xüsusilə yerli audit firmaları tərəfindən aparılan auditə skeptik yanaşır.

Banklara gəldikdə, qanuna əsasən təqdim olunan standart audit hesabatından başqa, auditor tamlıq və düzgünlük haqqında hesabat hazırlayır və AMB-ni pozuntular və nöqsanlar haqqında məlumatlandırır. AMB bankdan auditoru dəyişməyi və bankın vəsaiti hesabına audit yoxlamasını təkrar aparmağı tələb edir. AMB, həmçinin, ən azı ildə bir dəfə banklarda özü və ya kənar auditor vasitəsilə yoxlama aparır və mühasibat jurnallarını, sənədləri, digər qeydləri və izahatları və, həmçinin, müşahidə şurası və idarə heyətinin üzvlərindən, iri səhmdarlardan, işçilərdən və digər tərəflərdən bütün zəruri məlumatların təqdim edilməsini tələb edə bilər. (Banklar haqqında Qanun, §44, 46). QKDK auditorlar nəzarət etmir.

***Auditorlara qarşı ixtisas tələbləri.*** Auditorlara lisenziyalar Auditorlar Palatası tərəfindən verilir. Lisenziya almaq üçün, onların mühasibat uçotu, maliyyə, iqtisadiyyat və hüquq sahəsində ali təhsili olmalı və ən azı 3 il peşəkar təcrübəsi olmalıdır və onlar Auditorlar Palatasının lisenziyanın verilməsi məqsədilə keçirdiyi ixtisas imtahanını verməlidirlər. (Audit Xidmətləri haqqında Qanun, §6). Lisenziyanı saxlamaq üçün davamlı ixtisasartırma tələb olunur.

***Məcburi audit və ya şirkətin ona bənzər orqanları.*** Səhmdarların sayı 50-dən çox olan şirkətlərin səhmdarların ümumi yığıncağı tərəfindən seçilən və şirkətin nizamnaməsinə uyğun olaraq fəaliyyət göstərən təftiş komissiyaları olmalıdır. Üzvlərin sayı ilə bağlı qaydalar yoxdur, lakin onlar səhmdar, müşahidə şurası və ya idarə heyətinin üzvü ola bilməzlər. təftiş komissiyası müşahidə şurası və ya idarə heyətinin iclaslarında iştirak etmir və təcrübə il bağlı tələblər irəli sürülmür. Komissiya səhmdarların ümumi yığıncağına illik maliyyə hesabatları haqqında hesabat verir və rəhbərlikdən zəruri sənədləri istəyə bilər (§107-11). O, həmçinin, səhmdarların 10 faizinin tələbi əsasında şirkətdə yoxlama aparır. Təcrübədə, təftiş komissiyalarının funksiyaları şirkətlərdən asılı olaraq fərqlənir və kənar auditorun funksiyaları ilə üst-üstə düşür. Təftiş komissiyası tam müstəqil audit komitəsinin adekvat əvəzi deyil.

Banklardan səhmdarların ümumi yığıncağı tərəfindən seçilən və əmək haqqı təyin edilən audit komitələrinin yaradılması tələb olunur.[58] Komitə ən azı üç üzvdən ibarət olmalıdır.[59] Komitə iclasları ən azı rübdə bir dəfə keçirilməli və üzvlərə müəyyən müstəqillik və seçimlilik məhdudiyyətləri qoyulur.[60] Audit komissiyasının vəzifələrinə kənar auditorun hesabatlarına nəzarət, daxili audit və nəzarət sistemləri və / və ya riskin idarə edilməsi sistemi daxildir (Banklar haqqında Qanun §27). Audit komissiyası kənar auditorun təyin edilməsi, azad edilməsi və ya ona ödəniləcək vəsaitin məbləği ilə bağlı tövsiyələr vermir və aidiyyəti tərəflərin əqdləri və ya iri əqdləri nəzərdən keçirib təsdiq etmir. Hazırkı komissiyanın və müşahidə şurasının audit komitəsinin funksiyaları oxşar olaraq üst-üstə düşür və yaxşı təcrübə şuranın müstəqil audit komitəsinin daha səmərəli olmasını göstərir.

**Prinsip VD: Kənar auditorlar səhmdarlara hesabatlı olmalıdır və şirkət qarşısında auditi zəruri peşəkar qayğı ilə aparmağa borcludurlar.**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Qanunda auditorun hesabatlılığı ilə bağlı əsas müddəalar son SNƏH hesabatından sonra çıxarılıb və əvəz olunmamışdır.

***Auditorun hesabatlılığı.*** Qərar vermək səlahiyyəti səhmdarların ümumi yığıncağına aid olan və müşahidə şurasına həvalə edilə bilən banklar və sığorta şirkətləri istisna olmaqla, SC-lərdə kənar auditorun təyin edilməsi və azad edilməsi müəyyən edilmir. Təcrübədə auditor əsasən nəzarət payına malik olan səhmdarla əlaqə saxlayır və bütün nəticələr haqqında ona hesabat verir, bu da qüvvələri lazımi balansını təmin etmir. Mülki hüquq ümumiyyətlə auditorlara qarşı məhkəmə iddialarının qaldırılmasına (ümumi məhkəmə iddialarına icazə verən ümumi müddəa) icazə verir, lakin bu cür hallar müşahidə olunmamışdır.

***Auditorun məsuliyyəti.*** Auditorların Auditorlar Palatası tərəfindən hazırlanmış Auditorların Peşəkar Etika Davranışı Məcəlləsinə əsasən könüllü öhdəlikləri var. Məsuliyyətlə bağlı müddəalar qeyri-müəyyəndir və səhmdarlara auditora qarşı məhkəmə iddiasının qaldırılması ilə bağlı real imkanlar vermir.

***Auditorun sığortası.*** Auditorlardan peşəkar məsuliyyətin sığortalanması tələb olunmur və onlar, bir qayda olaraq həmin sığorta təminatını əldə etmirlər.

**Prinsip VE: İnformasiyanın yayılması kanalları bütün istifadəçilərə informasiyanı vaxtında və məsrəf nöqteyi-nəzərdən səmərəli şəkildə əldə etmək üçün bərabər imkanları təmin etməlidir.**

58 Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları §5.5.7; Banklar haqqında Qanun §24, 27.

59 4 ilə qədər, təkrar seçilməyə icazə verilir.

60 Komissiyanın üzvləri digər idarəetmə orqanlarının üzvləri ola bilməzlər (səhmdarların ümumi yığıncağı istisna olmaqla); bankda digər vəzifələrdə çalışa: müşahidə şurası, audit komitəsi, idarə heyəti və ya baş mühasibin qohumları və dövlət qulluqçuları ola bilməzlər (Banklar haqqında Qanun, §10). Komitə üzvləri iqtisadiyyat və ya hüquq sahəsində ali təhsilə və ya iş təcrübəsinə malik olmalıdırlar.

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Yaxın keçmişdə, korporativ informasiya nadir hallarda açıqlanırdı. İllik hesabatlarını QKDK-ə təqdim edən və dərc edən şirkətlərin sayı az idi. Şirkətlərin əksəriyyəti (xülasə) hesabatlarını təqdim edir və dərc edir. İnvestorlar tam illik hesabatların əldə edilməsində hələ də, çətinlik çəkirlər.

BMK-nin 2007-ci ilin sorğusuna əsasən, potensial investorların şirkətin idarə edilməsi, fəaliyyəti və maliyyə vəziyyəti haqqında məlumatları asan əldə etmək imkanları yox idi. Respondentlərin yarısından bir qədər çox hissəsi (63%) həmin informasiyanın ictimaiyyətə açıqlanmasını göstərmişdir. Yalnız 13% aralıq hesabatları dərc edib və yalnız 10% həmin məlumatları internet səhifələrində yerləşdirmişdir. Sorğuda iştirak etmiş şirkətlərin əksəriyyəti (86%) həmin məlumatların sorğu əsasında təqdim edilməsini bildirmişdir. Bununla, investorlar üçün məlumatların alınmasının yeganə yolu şirkətin özünə müraciət etməsindən ibarət olmuşdur.

***Mühüm faktlar.*** Qanuna əsasən emitentin maliyyə-iqtisadi fəaliyyətinə təsir göstərən əsas hadisələr və tədbirlər haqqında məlumat onların baş verməsindən sonra 15 gün ərzində QKDK-ə açıqlanmalıdır (Mülki Məcəllə §1078-43.4). Mühümlüyün ətraflı tərifi və şirkətlər üçün açıqlamalarla bağlı misallar verilmir. Təcrübədə mühüm faktlar az açıqlanır.

***Dərc olunmuş məlumat (sənədlər, internet).*** Bəzi banklar illik hesabatlarını kütləvi informasiya vasitələrində və BFB-nin internet səhifəsində dərc edir. Bəzi SC-lər, həmçinin, əsas illik rəqəmləri mətbuatda dərc edir.

**Prinsip VF: Korporativ idarəetmə çərçivəsi analitiklər, brokerlər, reytinq təşkilatları və digərlər tərəfindən təhlilin aparılması və məsləhətlərin verilməsini əhatə edən və dəstəkləyən, investorların qərarlarına aidiyyəti olan, həmin təhlil və məsləhətlərin düzgünlüyünü ləğv edə bilən maraqların mühüm toqquşması hallarından sərbəst olan səmərəli yanaşma ilə tamamlanmalıdır.**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

***Analitiklər, brokerlər, reytinq təşkilatları tərəfindən maraqların toqquşması hallarının açıqlanması.*** Brokerlər, investisiyaların idarə edilməsində ixtisaslaşan şirkətlər və banklar arasında maraqların toqquşması və münasibətlər tənzimlənmir. Bazarda təhlil aparılmır və reytinq təşkilatları yoxdur. Bu yaxınlarda qəbul olunmuş geriyə qüvvəsi olmayan qaydalar banklara broker lisenziyasının alınmasını qadağan edir və broker fəaliyyətinin törəmə qurumlar vasitəsilə idarə olunmasına məcburiyyət yaradır.

## HİSSƏ VI: MÜŞAHIDƏ ŞURASI VƏ IDARƏ HEYƏTININ VƏZIFƏLƏRI

**Korporativ idarəetmə çərçivəsi şirkətin strateji istiqamətləndirilməsini, müşahidə şurası və idarə heyəti tərəfindən idarəetməyə səmərəli nəzarəti və müşahidə şurası və idarə heyətinin şirkətə və səhmdarlara hesabatlılığını təmin etməlidir.**

**Prinsip VIA: Müşahidə şurası və idarə heyətinin üzvləri tam məlumatlı əsasda, vicdanla, zəruri çalışqanlıqla və qayğı ilə, şirkətin və səhmdarların maraqlarında hərəkət etməlidir.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Müşahidə şurası və idarə heyətinin qısa təsviri.*** Şirkətin icra orqanı kollegial (idarə heyəti, müdiriyyət) və ya təkbaşına (direktor və ya baş direktor) ola bilər (Mülki Məcəllə §107.4). İdarə heyətinin vəzifələri müqavilə əsasında üçüncü tərəfə, yəni kommersiya təşkilatına və ya fərdi sahibkara tapşırıla bilərlər (Mülki Məcəllə §107.4). Səhmdarların sayı 50 və daha çox olan SC-lərin, həmçinin, idarə heyətinə nəzarət edən müşahidə şuraları var və idarə heyətinin üzvləri müşahidə şurasının üzvü ola bilməzlər. BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərin 96%-nin müşahidə şuraları var idi.

Qanuna əsasən, idarəetmə səlahiyyətləri idarə heyətinə verilir, lakin təcrübədə, müşahidə şurasının üzvləri və bir qayda olaraq nəzarət payına malik olan səhmdar və ya ona yaxın əlaqəsi olan tərəf şirkətin ofisində yerləşən daimi iş yerindən şirkəti idarə edə bilər. Müşahidə şurasının konkret səlahiyyətləri və fəaliyyəti, o cümlədən, iclasların keçirilməsi müddətləri, üzvlərinin sayı və qərarların verilməsi prosedurları şirkətin nizamnaməsində müəyyən edilir. (MM §107).

Banklarda səhmdarların ümumi yığıncağı müşahidə şurasının üzvlərini seçilir və onların əmək haqqını müəyyən edir (MM §107).

Bankın müşahidə şurası idarəetməyə nəzarət edir və səhmdarların ümumi yığıncağına hesabat verir. Müşahidə şurası, həmçinin, daxili pozuntu halları haqqında səhmdarların ümumi yığıncağı və AMB-nin məlumatlandırılması, təşkilat daxilində maraqların toqquşması hallarının idarə edilməsi və aidiyyəti şəxslərlə və iri əqdlərin təsdiqi üçün cavabdehdir.

***Üzvlərin sayı ilə bağlı tələblər və üzvlərin səciyyəvi sayı.*** SC-lər üçün müşahidə şurasında üzvlərin maksimal sayı qanunda müəyyən edilməyib, lakin nizamnamədə müəyyən edilir. BMK-nin 2007-ci ilin sorğusuna uyğun olaraq müşahidə şuralarında ən çox beş üzv qeydə alınmışdır və üzvlərin orta sayı 3.4 olmuşdur.

Banklar üçün, müşahidə şurası və idarə heyətinin ən azı üç üzvü olmalıdır (MM §107, Banklar haqqında Qanun §25.2, 26.2). Təcrübədə, iri şirkətlərin müşahidə şurası və idarə heyətində üzvlərin sayı 5-7 və kiçik firmalarda təxminən 3 ola bilər.

***Seçilmə tələbləri.*** Xarici vətəndaşlıqla bağlı məhdudiyyətlər qoyulmur. Bankların müşahidə şuralarının üzvləri AMB tərəfindən müəyyən edilən lazımi və məqbul meyarlarına cavab verməlidir, lakin həmin meyarların icra olunması hələ də, qiymətləndirilməyib. Hüquqi şəxslər müşahidə şurasının üzvü ola bilməzlər. Nizamnamə ilə tələb olunması istisna olmaqla,

müşahidə şurasının üzvləri səhmdar olmaya da bilərlər. (MM §107-7). Səhmlərin 20% və ondan artıq payına malik olan səhmdarlar idarə heyətinin üzvü ola bilməzlər.

Banklarda idarə heyəti və müşahidə şurasının üzvləri iqtisadiyyat və hüquq sahəsində ali təhsilə və bank sahəsində iş təcrübəsinə malik olmalıdırlar. Müşahidə şurası və idarə heyəti, audit komissiyasının üzvləri və bankın baş mühasibi bankın digər idarəetmə orqanlarının üzvü ola (səhmdarların ümumi yığıncağından başqa), bankda digər vəzifələrdə çalışa, bankın müşahidə şurası, idarə heyəti və audit komissiyasının üzvləri və baş mühasibinin qohumları ola və dövlət qulluqçuları ola bilməzlər. Əlavə olaraq, müşahidə şurasının üzvlərinin mülkiyyətində, idarəetməsində və nəzarətində ən çox üç hüquqi şəxsi ola bilər. Yekun olaraq, idarə heyətinin üzvləri və baş mühasib digər yerlərdə çalışa bilməz. (Banklar haqqında qanun, §10, 25.3, 26.3).

***Sadiqlik və qayğı ilə bağlı vəzifələrin adekvatlığı.*** Mülki Məcəlləyə son dəyişikliklərdə idarə heyəti və müşahidə şurasının üzvləri üçün sadiqlik və qayğı ilə bağlı fidusiar vəzifələri müəyyən edir. Müşahidə şurası və idarə heyətinin üzvləri "təmsil etdiyi hüquqi şəxsin mənafeləri üçün vəzifələrini yerinə yetirərkən vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etmək, hüquqi şəxsin və onun bütün iştirakçılarının maraqlarına sadiq olmaq və hüquqi şəxsin maraqlarını öz maraqlarından üstün tutmaq və ehtiyatlı olmağa borcludur." Direktorlar vəzifələri pozduğu halda şirkətə vurulmuş zərərə görə məsuliyyətə cəlb oluna bilərlər. (CC 49-3) Səhmdarlar şirkətə vurulmuş zərərlərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdirlər. Direktorların məsuliyyəti ilə bağlı məhkəmə işləri müşahidə olunmayıb.

Bankların müşahidə şuralarının üzvləri üçün fidusiar vəzifələrə aşağıdakılar daxildir: məlumatlılıq, zəruri vaxt və diqqətin həsr edilməsi (çalışqanlıq), "məntiqli, ehtiyatlı və konsertvativ" olma, müstəqillik (səhmdarların hər hansı qrupunun maraqlarına üstünlük verməmək), vicdanla hərəkət etmək, sadiqlik və məxfilik və bankın mənafelərini üstün tutmaqla hərəkət etmək vəzifəsi. Vəzifələrə, həmçinin, bankın maliyyə vəziyyətinin monitorinqi və qiymətləndirilməsi və bank tərəfindən bütün aidiyyəti qanun və qaydaların yerinə yetirilməsinin təmin edilməsi və, o cümlədən, müşahidə şurası və idarə heyəti tərəfindən maraqların toqquşması hallarının qarşısının alınması daxildir. Banklarda fidusiar vəzifələrin yerinə yetirilməməsinə görə sanksiyalar qanunvericilikdə müəyyən edilmə prosesindədir – fidusiar vəzifələr və cəzaların icrası məcəlləsi və cinayət qanunvericiliyinin strukturu və tətbiqi arasında ziddiyyətlər icranı çətinləşdirə bilər.[61] Sığorta fəaliyyəti haqqında qanun direktorlar üçün fidusiar vəzifələri müəyyən etmir. Mövcud fərdi vəzifələr hətta AMB-nin müvafiq qaydalarına əsasən fidusiar tələblərə cavab vermir.

***Direktorların sığortası.*** Şura üzvlərinin sığortası ilə bağlı tələblər yoxdur və, bir qayda olaraq, sığorta təminatı alınmır.

***İşgüzar mühakimə qaydası /müşahidə şurası və idarə heyətinin hesabatlılığı.*** Mülki Məcəllə müəyyən edir ki, direktorlar və şirkətin əməkdaşlarının vicdanla, məlumatlı əsasda və şirkətin maraqlarında hərəkət etməsi istisna olmaqla, onlar hərəkətlərinə görə məsuliyyətə cəlb oluna bilərlər.

**Prinsip VIB: Müşahidə şurasının qərarlarının müxtəlif səhmdar qruplarına müxtəlif təsir göstəməsi mümkün olduqda, şura bütün səhmdarlara ədalətli yanaşmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Qanunda müşahidə şurasının üzvlərindən bütün səhmdarlara ədalətli yanaşılmasını tələb edən müddəa yoxdur. Banklarda, müşahidə şurası "səsvermə və ya qərar qəbul etmə zamanı hər hansı bir səhmdarın və ya səhmdarlar qrupunun maraqlarına üstünlük verməməli və ya onların göstərişləri ilə hərəkət etməməlidir". (Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları §7.3.2)

**Prinsip VIC: Müşahidə şurası yüksək etika standartlarını tətbiq etməli və səhmdarların maraqlarını nəzərə almalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Mövcud çərçivədə səhmdar cəmiyyətləri üçün etika standartları və ya səhmdarların maraqlarının müdafiəsi haqqında qanun və ya məcəllə yoxdur. Mülki Məcəllə və Banklar haqqında Qanuna icrası müvafiq qaydalarla təmin olunan qanuna zidd hərəkətlərlə bağlı müddəalar daxildir. Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydalarına bank işçiləri üçün etika məcəlləsinin hazırlanması ilə bağlı müddəa daxildir.[62]

**Prinsip VID: Müşahidə şurası müəyyən əsas funksiyaları yerinə yetirməlidir, o cümlədən:**

**Prinsip VID 1: Müşahidə şurası tərəfindən ümumi korporativ strategiyaya və əsas qərarlara nəzarət**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Müşahidə şuranın qanunla və təcrübədə funksionallığı.*** Səhmdar cəmiyyətlərində müşahidə şuralarının rolu, vəzifələri, işləməsi, üzvlərinin ixtisas göstəriciləri və strukturu ilə bağlı ətraflı qaydalar yoxdur. Təcrübədə, müşahidə şuraları müstəqil nəzarət funksiyasını qəbul etmədilər və şirkətlərin strateji istiqamətləndirilməsində nisbətən kiçik rol oynayırlar. BMK-nin 2007-ci ilin sorğusuna əsasən, dividendlərin elan olunması və ödənilməsi (41%) və səhmlərin buraxılması (34%) kimi

61 Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları, anlayışlar və §7.

62 Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları, §15.2.

müəyyən əsas funksiyalar idarə heyəti tərəfindən yerinə yetirilir. Müşahidə şuralarında bir qayda olaraq sədrlik edən nəzarət payına malik olan səhmdarlar əsas rol oynayır. Müşahidə şuralarının müntəzəm iclaslarını keçirən şirkətlərin sayı artsa da, həmin iclaslar hələ də, bir çox şirkətlərdə keçirilmir. Digər tərəfdən, idarə heyəti bəzi gündəlik vəzifələrdən kənarlaşmalı və əvəzinə şirkətin ofisində daimi kabineti olan nəzarət payına malik olan səhmdarlarla gündəlik məsləhətləşməyə məcbur olur.

Qanuna əsasən, bankların müşahidə şuraları strateji korporativ planlaşdırmanı həyata keçirir, idarəetməyə nəzarət edir və səhmdarların ümumi yığıncağına hesabat verir. Qeyd olunmalı digər vəzifələrə maraqların toqquşması hallarının həll edilməsi və aidiyyəti şəxslərlə və iri əqdlərin təsdiqi daxildir.[63] Təcrübədə, nəzarət payına malik olan səhmdar banklarda da faktiki olaraq dominant rol oynayır. Sığorta şirkətlərində, vəzifələr bank qanunvericiliyinin tələblərini təkrarlayır.

**Prinsip VID 2: Şirkətdə idarəetmə təcrübəsinin effektivliyinin monitorinqi**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Müşahidə şuraları tərəfindən korporativ idarəetmə təcrübəsinin monitorinqi ilə bağlı müddəalar yoxdur. Banklarda korporativ idarəetmə ilə bağlı müəyyən ciddi məsələlərə qanuna əsasən nəzarət olunur və bu bankın idarə edilməsi ilə bağlı funksional və struktur tələblərə daxildir.

**Prinsip VID 3: Əsas vəzifəli şəxslərin seçilməsi, onların əmək haqları və mükafatlandırılması, monitorinqi və əvəz olunması**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Mülki məcəlləyə uyğun olaraq, şirkətin nizamnaməsində müvafiq səlahiyyətlərin müşahidə şurasına verilməsi istisna olmaqla, rəhbərlik səhmdarların ümumi yığıncağı tərəfindən seçilməli və vəzifədən azad edilməlidir.

Təcrübədə, rəhbərlik bəzi hallarda müşahidə şurası və ya səhmdarların ümumi yığıncağına aid səlahiyyətləri və vəzifələri icra edir. Misal üçün, Mülki Məcəlləyə uyğun olaraq, səhmdarların ümumi yığıncağı müşahidə şurasının sədrinin və üzvlərinin təyin edilməsi üzrə müstəsna hüquqa malikdir, lakin, bazar iştirakçıları bəzən bu funksiyanın idarə heyəti tərəfindən yerinə yetirilməsi barədə məlumat vermişlər. Bundan əlavə, BMK-nin 2007-ci ilni sorğusunda otuz respondent rəhbərliyin öz əmək haqlarını müəyyən etməsini qeyd etmişdir.

Banklarda səhmdarların ümumi yığıncağı rəhbərliyin işə götürülməsi, əmək haqqının müəyyən edilməsi və əvəz edilməsi səlahiyyətlərinə malikdir, lakin həmin səlahiyyətlər müşahidə şurasına həvalə edilə bilər. Qanuna əsasən, müşahidə şurası ildə bir dəfə rəhbərliyin fəaliyyətini qiymətləndirir.

**Prinsip VID 4: Rəhbərliyin və müşahidə şurasının üzvlərinin əmək haqlarının şirkətin uzun müddətli maraqları və səhmdarların maraqları ilə əlaqələndirilməsi**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Ümumiyyətlə səhmdar cəmiyyətləri ilə bağlı aidiyyəti müddəalar yoxdur. Banklara gəldikdə, qanuna əsasən müşahidə şurasının vəzifələrindən biri şirkətin (o cümlədən rəhbərliyin) əmək haqqı və mükafatlandırma sisteminin şirkətin uzun müddətli məqsədlərinə xidmət etməsinin təmin edilməsindən və qısa müddətli mənfəət hədəflərinin qoyulmamasından ibarətdir.[64]

BMK-nin 2007-ci ilin sorğusunda iştirak edən şirkətlərin yalnız onu müşahidə şurasının üzvləri üçün əmək haqqı və mükafatlandırma sisteminə malik idi.

**Prinsip VID 5: Müşahidə şurası və idarə heyətinə üzvlərin təyin edilməsi / seçilməsi**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Baxmayaraq ki, qanuna əsasən səhmdarların ümumi yığıncağı müşahidə şurası və idarə heyətinin üzvlərinə seçmək və onları vəzifədən azad etmək hüququna malikdir, o, hər iki orqana üzvlərin təyin edilməsi və ya seçilməsində səmərəli faktiki rol oynamır. Qanun qərarın qəbul edilməsini asanlaşdırmaq üçün səhmdarların ümumi yığıncağına yeni təyin olunmuş direktorlar haqqında ümumi məlumatların təqdim olunmasını tələb etmir.

**Prinsip VID 6: İnsayderlər arasında maraqların toqquşmasına nəzarət, o cümlədən şirkətin aktivlərindən sui-istifadə və aidiyyəti şəxslərlə əqdlərin bağlanmasında pozuntu halları**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Qanuna əsasən, insayderlər arasında maraqların toqquşmasına nəzarət ümumiyyətlə səhmdar cəmiyyətləri üçün deyil,

63 Banklar haqqında Qanun, §25; Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları, §3, 5.

64 Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları, §15.1.

yalnız banklar üçün məcburidir. Təcrübədə, hətta banklarda, müşahidə şurası və idarə heyətinin maraqların toqquşmasına səmərəli nəzarət etmək üçün nəzarət paylarına malik olan səhmdarlardan zəruri dərəcədə müstəqil olmaya bilərlər.

**Prinsip VID 7: Mühasibat uçotu və maliyyə hesabatları sisteminə, o cümlədən, müstəqil audit və nəzarət sistemlərinə nəzarət**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

Səhmdar cəmiyyətlərində nizamnamə maliyyə hesabatları imzalamaq səlahiyyətinə malik olan şəxsləri müəyyən edir və onlar yanlış məlumatların verilməsinə görə məsuliyyət daşıyırlar.[65] Emissiya prospektində yanlış məlumatların verilməsi halında, həmçinin, cinayət məsuliyyəti əlavə olunur.[66] Müşahidə şurasından maliyyə hesabatlarında verilən məlumatların həqiqiliyinin təsdiq edilməsi tələb olunmur.

Banklara gəldikdə, bütövlükdə idarə heyəti maliyyə hesabatları sistemi üçün cavabdehdir və idarə heyətinin sədri və baş mühasib maliyyə hesabatlarının düzgünlüyünü təsdiq edir. Vəzifələri və hesabatlılığı dəqiq bölüşdürən sistemin yaradılması tələb olunur.[67] Müşahidə şurası maliyyə hesabatları və audit sistemlərinə nəzarəti həyata keçirir. Audit komitəsi, həmçinin, həmin vəzifələri yerinə yetirir.

BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərin mühüm hissəsində kənar auditoru seçmək (57%) və illik hesabatı və maliyyə hesabatlarını təsdiq etmək (54%) səlahiyyətinə müşahidə şurası deyil, idarə heyəti malik idi.

**Prinsip VID 8: Açıqlama və kommunikasiya prosesinə nəzarət**

***Qiymətləndirmə: Yerinə yetirilmir***

Açıqlama və kommunikasiya prosesi qanunla səhmdar cəmiyyətinin müşahidə şurasının vəzifələrinə daxil edilməyib. Təcrübədə, şirkətlərdə açıqlama və kommunikasiyanın səviyyəsi aşağıdır.

**Prinsip VIE: Müşahidə şurası korporativ məsələlərlə bağlı obyektiv müstəqil mühakiməni tətbiq edə bilməlidir.**

**Prinsip VIE 1: Müşahidə şuraları maraqların toqquşması ehtimalı olan hallarda müstəqil mühakiməni tətbiq edə biləcək yetərli sayda şuranın vəzifəli şəxs olmayan üzvlərinin təyin edilməsini nəzərdən keçirməlidir. Bu cür əsas vəzifələrə maliyyə və başqa hesabatların düzgünlüyünün təmin edilməsi, aidiyyəti şəxslərlə əqdlərin nəzərdən keçirilməsi, şura üzvlərinin və əsas vəzifəli şəxslərin təyin edilməsi və şura üzvlərinin əmək haqqı və mükafatlandırılması daxil olmalıdır.**

***Qiymətləndirmə: Qismən yerinə yetirilir***

***Qanunvericilikdə direktorun müstəqilliyinin müəyyən edilməsi.*** Qanunda müşahidə şurasının üzvlərinin müstəqilliyi ilə bağlı müddəalar yoxdur. İdarə heyətinin üzvləri müşahidə şurasının üzvü ola bilməzlər. Səhmlərin 20% və ondan artıq payına malik olan səhmdarlar müşahidə şurasının üzvü ola bilməzlər. Banklara gəldikdə, müşahidə şurası, audit komitəsi və idarə heyətinin üzvləri və, həmçinin, baş mühasib bankın digər idarəetmə orqanlarının üzvləri ola (səhmdarların ümumi yığıncağı istisna olmaqla); bankda digər vəzifələrdə çalışa; müşahidə şurası, audit komitəsi və idarə heyətinin üzvləri və, həmçinin, baş mühasibin qohumları ola; və dövlət qulluqçuları ola bilməzlər.
Sığorta fəaliyyəti haqqında qanun sığorta şirkətlərində müşahidə şurasının ən azı bir üzvünün müstəqil olmasını tələb edir. Lakin, müstəqillik kriteriyası üzvün şirkətlər hər hansı məşğulluq əlaqələrinin, auditorla əlaqələrin və ya sığorta şirkətinin iri müştərisi olmamasını tələb etmir.
***Direktorların faktiki müstəqilliyi.*** Müşahidə şuralarına faktiki olaraq nəzarət payına malik olan səhmdarlar nəzarət edir. Bir neçə şirkət müşahidə şuralarına müstəqil üzvləri seçib, lakin bu təcrübə geniş yayılmayıb. Şirkətlər şikayətlənirlər ki, ölkədə hələ də, müstəqil direktorlar üçün yaxşı namizədlər çatışmır.

BMK-nin 2007-ci ilin sorğusunda iştirak edən şirkətlərin yetmiş səkkiz faizində majoritar səhmdarlar və onlarla əlaqəli şəxslər müşahidə şurasının üzvləri olmuşdur. Qeyd etmək lazımdır ki, sorğuda iştirak etmiş on səkkiz şirkətdə (18%) müşahidə şuraları tamamilə majoritar səhmdarlardan və onlarla əlaqəli şəxslərdən ibarət idi. Qrup olaraq, majoritar səhmdarlar və onlarla əlaqəli şəxslər bütün müşahidə şurası üzvlərinin 48%-ni təşkil etdilər. Minoritar səhmdarlar sorğuda iştirak etmiş şirkətlərin əlli üç faizində müşahidə şurasında təmsil olunub və sorğuda iştirak etmiş bütün şirkətlərin müşahidə şuralarının üzvlərinin 27%-ni təşkil etmişdirlər. Müşahidə şurasının üzvləri arasında həcminə görə növbəti iri qrup mərkəzi və rayon orqanlarının nümayəndələrindən ibarət olmuşdur (iki faiz).

Müşahidə şuralarının müstəqil üzvləri sorğuda iştirak etmiş şirkətlərin iyirmi səkkiz faizində çalışmışdır və respondentlərin beş faizi müşahidə şurasının tamamilə müstəqil üzvlərdən ibarət olmasını bildirmişdir.

**Prinsip VIE 2: Şura komitələri ilə bağlı aydın və şəffaf qaydalar**

65 Mülki məcəllə, §1078-11.7; İnvestisiya qiymətli kağızlarının emitentləri tərəfindən illik hesabatların hazırlanması və açıqlanması qaydaları, §2.4.

66 Cinayət Məcəlləsi, §203, 211, 212, 213.

67 Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları, §8.3.

| *Qiymətləndirmə: Yerinə yetirilmir* |
|---|
| ***Audit komitələri.*** Daxili Audit haqqında Qanun ictimai əhəmiyyətli qurumlarda audit komitələrinin yaradılmasını tələb edir, lakin digər şirkətlər üçün tələb etmir. Əksər səhmdar cəmiyyətlərin audit komitələri yoxdur, lakin səhmdarlar tərəfindən seçilən, şirkətlə əlaqəsi olmayan və maliyyə hesabatlarını yoxlayan şəxslərdən ibarət olan təftiş komissiyaları var. Təftiş komissiyasının vəzifələri, faktiki olaraq, kənar auditorun vəzifələri ilə üst üstə düşür.<br><br>Müşahidə şurasından müstəqil üzvləri səhmdarlar tərəfindən seçilən audit komitələri yalnız banklar üçün tələb olunur və onların vəzifələri təftiş komissiyalarının müəyyən vəzifələri ilə üst üstə düşür. Audit komitələri və təftiş komissiyaları haqqında ətraflı məlumat VC hissəsində verilir.<br><br>***Digər komitələr.*** Qanun səhmdar cəmiyyətlərində digər komitələrin yaradılmasını tələb etmir, lakin bu cür komitələrin yaradılması təcrübəsi mövcuddur. BMK-nin sorğusunda iştirak edən şirkətlərin bəziləri komitələrin yaradılmasını bildirmişdir. Ən çox yayılmış komitə etika komitəsi (28%), ondan sonra mübahisələrin həlli komitəsi (24%), korporativ idarəetmə komitəsi (18%) və strateji planlaşdırma komitəsi olmuşdur. Yalnız 10% audit komitəsini yaradıb, lakin 26% audit komitəsinin yaradılmasını planlaşdırmışdır.<br><br>Banklarda, müşahidə şurası səviyyəsində deyil, idarə heyəti səviyyəsində bir sıra komitələrin yaradılması tələb olunur. Konkret olaraq, qanun tələb edir ki, müşahidə şurası idarə heyəti ilə məsləhətləşərək aşağıdakı komitələri yaratsın: kredit riskinin idarə edilməsi prosesinin səmərəliliyi üçün Kredit Komitəsi, likvidliyin və vəsaitin səmərəli idarə edilməsi məqsədilə Aktivləri və Passivləri İdarəetmə Komitəsi, bankda İnformasiya Texnologiyalarının təhlükəsizliyi və səmərəliliyi məqsədilə İnformasiya Texnologiyaları Komitəsi yaradıla bilər (Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydalar §5, 10). Aktivlərin ümumi dəyəri 6 milyon ABŞ dollarından artıq olan və üç filialdan artıq filial şəbəkəsinə malik olan banklar daxili komitələrin fəaliyyətinin əlaqələndirilməsi və digər risklərin idarə edilməsi üçün Riskləri İdarəetmə Komitəsini yaratmalıdır. yaradılmalıdır. 10-12 bank artıq həmin hüquqi tələbləri yerinə yetirməyə başlayıb. |
| **Prinsip VIE 3: Müşahidə şurası və idarə heyətinin öz vəzifələrinə sadiqliyi** |
| *Qiymətləndirmə: Qismən yerinə yetirilir* |
| ***Müşahidə şurasının üzvünün tutduğu vəzifələrin sayının məhdudlaşdırılması.*** Müşahidə şurasının üzvlərinin müşahidə şurasında vəzifələrinin sayı ilə bağlı hüquqi məhdudiyyətlər yoxdur. Bankların müşahidə şuralarının üzvünün mülkiyyətində, idarəsində və nəzarətində maksimum üç şirkət ola bilər.<br><br>***Şura iclaslarının keçirilməsi ilə bağlı tələblər.*** Mülki Məcəllə müşahidə şurası tərəfindən ən azı rübdə bir dəfə iclasların keçirilməsini tələb edir. (Mülki Məcəllə 107-9.1) Kvorum üzvlərin 50%-dən ibarətdir. Səhmdar cəmiyyətlərinin müşahidə şuraları, bir qayda olaraq, iclasları tez-tez keçirmir. Təcrübədə bankların müşahidə şuraları tərəfindən iclasların keçirilməsi tezliyini qiymətləndirmək çətindir.<br><br>BMK-nin 2007-ci ilin sorğusunda müşahidə şurasının iclasları ən çox ildə iki və ya üç dəfə (31%), və ildə bir dəfə (29%) keçirilir. Sorğuda iştirak etmiş şirkətlərin yalnız 26% müşahidə şuralarının iclaslarının ayı ilə bağlı minimal tələbləri yerinə yetirmişdir və 8% müşahidə şurasının ayda bir dəfə iclas keçirməsini qeyd etmişdir. Respondentlərin demək olar ki, yarısı (48%) müşahidə şurasının iclaslarının bir saat çəkməsini qeyd etmişdir: orta vaxt isə altmış iki dəqiqə təşkil etmişdir.<br><br>BMK-nin 2007-ci ilin sorğusunda iştirak etmiş şirkətlərin bildirdiyinə əsasən il ərzində idarə heyətinin keçirdiyi iclasları birdən əlliyə qədər idi. Bu cür böyük fərqin səbəbi iclasların sayı ilə bağlı minimal hüquqi tələblərin olmaması və qismən hər respondentin rəsmi iclas anlayışından ibarət ola bilər. Sorğuda iştirak etmiş şirkətlərin təxminən dörddə biri (22%) idarə heyətinin ildə bir dəfə iclas keçirməsini qeyd etmişdir. On beş şirkət (15%) idarə heyətinin rübdə bir dəfə və on üç şirkət (13%) ayda bir dəfə iclas keçirməsini qeyd etmişdir.<br><br>***Fəaliyyətin qiymətləndirilməsi.*** BMK-nin 2007-ci ilin sorğusunda respondentlərin yalnız 36% son iki il ərzində müşahidə şurası tərəfindən öz fəaliyyətinin qiymətləndirilməsini bildirmişdir. Konsepsiya Azərbaycan üçün bir qədər yenidir və 36% rəqəmi həddindən artıq yüksək ola bilər.<br><br>***Direktorların təlimi, IOD.*** Müşahidə şurasının üzvlərinə vəzifələrin yerinə yetirilməsində köməklik etmək üçün korporativ idarəetmə məcəlləsi hazırlanmamışdır və səhmdar cəmiyyətlərində müşahidə şurası üzvlərinin formal təlimi ilə məşğul olan təşkilatlar yoxdur. Bank sektorunda bu cür alətlərdən fəal istifadə olunur. AMB-nin korporativ idarəetmə qaydaları banklar üçün qanun qüvvəsinə malikdir və Azərbaycan Bank Tədris Mərkəzi bank inzibatçıları üçün dəyərli məlumatlandırma və istiqamətləndirmə xidmətlərini göstərir.<br><br>***Müşahidə şurasının üzvlərinin iclaslarda iştirak haqqında məlumatların ictimaiyyətə açıqlanması.*** Müşahidə şurasının üzvlərindən iclaslarda iştirak haqqında məlumatın açıqlanması tələb olunmur. İclasın protokollu və iclasda iştirak edən üzvlərin siyahısı, həmçinin, ictimaiyyətə açıqlanmır. |
| **Prinsip VIF: Vəzifələrini yerinə yetirmək üçün şura üzvlərinə dəqiq və aidiyyəti məlumatları vaxtında əldə etmək imkanı yaradılmalıdır** |
| *Qiymətləndirmə: Qismən yerinə yetirilir* |
| Qanunda səhmdar cəmiyyətlərində müşahidə şurası üzvlərinin informasiyanı və peşəkar məsləhəti almaq imkanı ilə bağlı xüsusi müddəalar yoxdur. |

BMK-nin sorğusunda iştirak etmiş şirkətlərin yarısından az hissəsi müşahidə şurasının üzvlərini iclasın keçirilməsindən kifayət qədər əvvəl zəruri məlumatlarla təmin etmişdir. Yalnız 41% iclasın keçirilməsinə qədər iki həftədən çox vaxt qalanda iclas haqqında bildirişi və aidiyyəti məlumatları göndərdilər. Təxminən üçdə bir hissəsi (28%) bildirişi və materialları bir həftə əvvəl və 13% iclasdan bir-iki həftə əvvəl göndərmişdir. Bəziləri materialları bir gün əvvəl (6%) və ya iclaslarda (2%) paylamışdır, digərlərdə isə (6%) materialların əvvəlcədən paylaşdırılması təcrübəsi yox idi. Müşahidə şurasının üzvlərinə iclasın keçirilməsindən əvvəl bir qayda olaraq təqdim olunan materiallara iclasın gündəliyi (82%), son iclasın protokolu (63%), son hesabat dövrünün maliyyə hesabatları (59%) və gündəliyin hər maddəsi ilə bağlı izahatlar (36%) daxil olmuşdur. Yalnız 29% materiallara iclasda təsdiq olunmalı məsələlərlə bağlı qətnamələrin layihələrini daxil etmişdir.

Banklarda isə, müşahidə şuraları (fərdi üzvlər istisna olmaqla) idarə heyətindən bütün zəruri məlumatları əldə edə bilərlər. Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydalarında idarə heyəti və digər komitələr tərəfindən müşahidə şurasının iclaslarında paylaşdırılan məlumatların ətraflı siyahısı verilir (§5.2).

# Terminlər / Qısaltmalar

| |
|---|
| AKİL: BMK-nin Azərbaycanda Korporativ İdarəetmə Layihəsi |
| AİŞ: Azərbaycan İnvestisiya Şirkəti |
| BFB: Bakı Fond Birjası |
| AMB: Azərbaycan Mərkəzi Bankı |
| MM: Mülki Məcəllə |
| BİƏ: Baş İcraçı Əməkdaş |
| KSM: Korporativ Sosial Məsuliyyət |
| Kumulyativ səsvermə: Kumulyativ səsvermə minoritar səhmdarlara bütün səslərini bir namizədə verməyə imkan verir. Fərz edək ki, açıq səhmdar cəmiyyətinin iki səhmdarı var, biri səslərin 80%, ikincisi isə 20%-ə malikdir. Beş direktor seçilməlidir. Kumulyativ səsvermə qaydası olmasa, hər səhmdar hər direktor üçün ayrıca səs verməlidir. Majoritar səhmdar bütün beş vəzifəni əldə edəcək, çünki, o, bütün hallarda səsvermədə səslərin 80:20 bölgüsü ilə qalib gələcəkdir. Kumulyativ səsvermə minoritar səhmdara bütün səslərini (beş dəfə 20%) idarə heyətinin bir üzvünə verməyə və, bununla, onun seçilmiş namizədinə həmin vəzifəni əldə etmək imkanını verəcək. |
| AYİB: Avropa Yenidənqurma və İnkişaf Bankı |
| NÜY: Növbədənkənar Ümumi Yığıncaq |
| İSSP: İşçilərin Səhmdarlara Sahiblik Proqramı |
| SÜM: Səhmdarların Ümumi Yığıncağı |
| ÜDM: Ümumi Daxili Məhsul |
| BMK: Beynəlxalq Maliyyə Korporasiyası |
| MHBS: Maliyyə Hesabatlarının Beynəlxalq Standartları |
| QKKBT: Qiymətli Kağızlar Komitələrinin Beynəlxalq Təşkilatı |
| SİY: Səhmlərin İlkin Yerləşdirilməsi |
| BAS: Beynəlxalq Audit Standartları |
| SC: Səhmdar Cəmiyyəti |
| LQ: Listinq Qaydaları |
| MMUS: Milli Mühasibat Uçotu Standartları |
| MDM: Milli Depozit Mərkəzi |
| Üstünlük hüquqları: Üstünlük hüquqları mövcud səhmdarlara yeni buraxılmış səhmləri onların digərlərinə təklif olunmasından əvvəl almaq hüququnu verir. Həmin hüquq səhmdarları yeni səhmlərin buraxılması nəticəsində dəyərin və nəzarətin azalmasından müdafiə edir. |
| Proporsional təmsilçilik: Proporsional təmsilçilik səhmlərin müəyyən olunmuş faizi olan səhmdarlara idarə heyətinin üzvünü təyin etmək hüququnu verir. |
| DK: Daimi Katib |
| Piramid strukturu: Piramid strukturu sahiblik və nəzarət laylara bölünən sahiblik və altsahiblik strukturudur. Onlar səhmdarlara sahibliyin çoxsaylı layları vasitəsilə nəzarəti təmin etməyə imkan verir və, eyni zamanda, onlar hər aralıq sahiblik layında investisiya və riskləri digər səhmdarlarla bölüşdürürlər. |
| AŞƏ: Aidiyyəti şəxslərlə əqdlər. |
| QKDK: Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |
| Səhmdar müqaviləsi: Şirkətin idarə edilməsi haqqında səhmdarlar arasında bağlanmış müqavilədir və bir qayda olaraq ilk imtina hüquqları və səhmlərin ötürülməsi ilə bağlı digər məhdudiyyətləri, aidiyyəti şəxslərlə əqdləri və direktorların təyinatını əhatə edir. |
| DM: Dövlət Müəssisəsi |
| Çıxarma hüquqları: Çıxarma hüququ (bəzi hallarda “dondurulma hüququ” adlandırılır) şirkətin majoritar səhmdarlarının minoritar səhmdarlardan səhmlərini satmağa tələb etmək hüququdur. Satma hüququ çıxarma hüququnun əksidir, minoritar səhmdar majoritar səhmdardan ondan səhmlərin alınmasını tələb edə bilər. |
| Geri alma hüquqları: Geri alma hüquqları (bəzi yurisdiksiyalarda “təzyiqə məruz qalmış azlıqlar”, “qiymətləndirmə” və ya “alqı” üzrə müdafiə tədbiri adlandırılır) səhmdarlara şirkətdə müəyyən fundamental dəyişikliklərin baş verməsi halında səhmləri şirkətə satmaq hüququnu verir. |

Bu hesabat Standart və Normalara Əməl Olunma Hesabatları (SNƏH) proqramı çərçivəsində ölkələrdə korporativ idarəetmə sahəsində aparılan qiymətləndirmələrdən biridir. Korporativ İdarəetmə sahəsində SNƏH qiymətləndirmələri çərçivəsində hüquqi və tənzimləyici çərçivə, icranın təmin edilməsi sahəsində fəaliyyət və özəl sektor tərəfindən tətbiq olunan işgüzar fəaliyyət qaydaları və əməl olunma təhlil olunur və fond birjalarında qeydiyyatdan keçmiş şirkətlərin tətbiq etdiyi qaydaları və İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə əməl olunması qiymətləndirilir.

Qiymətləndirmələr
- Milli korporativ idarəetmə təcrübəsinin qiymətləndirilməsi üçün vahid metodologiyadan istifadə edir
- ölkələrin özünü qiymətləndirə bilməsi və koprorativ idarəetmə islahatları sahəsində irəliləyişlərin ölçülməsi üçün etalon təşkil edir
- emitentlər, investorlar, tənzimləyicilər və dövlət qərarlarını verənlər arasında səmərəli əlaqələri dəstəkləməklə qiymətləndirilən ölkələrdə islahatlara sahibliyi gücləndirir
- siyasət tövsiyələrinin yerinə yetirilməsi ilə nəticələnəcək siyasət dialoqunun aparılması üçün bünövrə təmin edir

Dərc olunmuş SNƏH-ların tam siyahısını http://www.worldbank.org/ifa/rosc_cg.html ünvanında əldə edə bilərsiniz

Korporativ idarəetmə ilə bağlı daha ətraflı məlumatları Dünya Bankı və BMK-nin korporativ idarəetməyə həsr olunmuş səhifəsindən əldə edə bilərsiniz: http://www.worldbank.org/corporategovernance

Bizimlə CG-ROSC@worldbank.org e-poçt ünvanı
vasitəsilə əlaqə saxlaya bilərsiniz.